RƏSMİ DÖVLƏT QƏZETİ

# AZƏRBAYCAN



№ 107 (10127) 20 iyun 2026-cı il ŞƏNBƏ

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

QƏZETİN ƏSASI 1918-Cİ İLDƏ QOYULMUŞDUR

## Dostluq və qardaşlıq nümunəsi

### Prezident İlham Əliyev Dağıstanın tanınmış ictimai-siyasi xadimi Qurban Qurbanova "Dostluq" ordenini təqdim edib



**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyunun 19-da Rusiya Federasiyasının Dağıstan Respublikasının tanınmış ictimai-siyasi xadimi Qurban Qurbanovu qəbul edib və ona "Dostluq" ordenini təqdim edib.**

AZƏRTAC xəbər verir ki, Prezident İlham Əliyev görüşdə çıxış edərək dedi:

- Hörmətli Qurban Səidoviç, Siz bu yaxınlarda yubileyinizi qeyd etmisiniz. İlk növbədə Sizi bu əlamətdar hadisə münasibətilə təbrik edirəm. Sizə, yaxınlarınıza, ailənizə əmin-amanlıq, xoşbəxtlik diləyir və ən xoş arzularımı çatdırıram.

Sizin ailəniz haqlı olaraq həm Azərbaycanda, həm də Dağıstanda böyük hörmət qazanıb. Sizin atanız, ağsaqqal, mərhum Səid Camaloviç ilə unudulmaz görüşləri həmişə xatırlayıram. Əlbəttə, biz Sizinlə Səid Camaloviçin Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əlirza oğlu ilə dostluğunu yaxşı xatırlayırıq. Onların yaxın, səmimi münasibətləri dostluq və qardaşlıq nümunəsi idi. Azərbaycan üçün ağır zamanlarda da biz dağıstanlı qardaşlarımızın dəstəyini daim hiss edirdik.

Xatırlayırsınız, mən Prezident olanda Səid Camaloviç ilə dəfələrlə görüşmüşdük, bax, elə bu otaqda, mükafatlar təqdim etmişik. Bütün bunlar yaddaşımızdadır, bu, ortaq tarixdir. Bizi ortaq tariximiz və Azərbaycan ilə Dağıstanı bütövlükdə həm ümumi tarix, həm də sıx qohumluq bağları, ortaq coğrafiya və əminəm ki, ümumi gələcək birləşdirir. Azərbaycan və Dağıstan xalqları arasında sıx münasibətlər Qafqazda sabitliyin, inkişafın və tərəqqinin mühüm amilidir.

Həm Səid Camaloviç, həm də onun layiqli davamçısı olan Siz xalqlarımızı daha da yaxınlaşdırmaq, ümumi təhlükəsizlik və sabitlik sisteminin vacib amili olan regionlarımızın iqtisadi inkişafına və ümumilikdə insanlar arasında münasibətlərə ardıcıl töhfə vermək üçün həmişə çox iş görmüsünüz və görürsünüz.

Ağsaqqallardan söz düşmüşkən, Dağıstan və dağıstanlılar üçün çətin vaxtlarda - Böyük Vətən müharibəsi illərində respublikaya başçılıq edən və Şimali Qafqazın başqa xalqlarından fərqli olaraq dağıstanlıların repressiyalara və deportasiyalara məruz qalmaması naminə çox iş görən mənim babam Əziz Əliyevi xatırlamaya bilmərəm. Bilirəm ki, Əziz Əliyevin xatirəsi Dağıstanda çox əziz tutulur və onun inkişafa verdiyi töhfələr, ən əsası isə müharibənin çox çətin dövründə respublikaya rəhbərlik etməsi və xoş izlər qoyması, əlbəttə ki, bizim üçün və onun nəvəsi kimi mənim üçün qürur mənbəyidir.

Mənim otağımda heykəl var. Bu heykəl Mahaçqalada Əziz Əliyevin kabinetində olub. Dağıstanlılar onu qoruyub saxlayıb və bu yaxınlarda mənə bağışlayıblar. Mənim nə bu otağımda, nə də digər iş kabinetlərimdə heç bir heykəl yoxdur, təkcə bu var. Bu, təəssüf ki, mən xatırlamıram, amma həm azərbaycanlıların, həm də dağıstanlıların tarixi yaddaşında yaşayan babamın yadigarıdır. Beləliklə, bizim ortaq cəhətlərimiz çoxdur və bir daha demək istəyirəm: Dağıstan və Azərbaycan xalqları arasında qardaşlıq münasibətlərinin möhkəmləndirilməsi bir çox hallarda bütün Qafqaz regionunun davamlı inkişafından asılıdır.

Bu gün Sizi şəxsən təbrik etməyimə çox şadam, artıq öz təbriklərimi çatdırmışam və Sizin yüksək dövlət mükafatı - "Dostluq" ordeni ilə təltif olunmağınız barədə Sərəncam imzalamışam. İndi həmin ordeni Sizə şəxsən təqdim etmək istəyirəm.




## Azərbaycanın dünyaya təqdim olunan inkişaf modeli

### Dönməz siyasi sabitlik, dinamik iqtisadi inkişaf, artan beynəlxalq nüfuz

Müasir beynəlxalq münasibətlər sistemində geosiyasi risklərin artdığı, silahlı münaqişələrin genişləndiyi, iqtisadi qeyri-müəyyənliyin dərinləşdiyi bir dövrdə sabitlik artıq yalnız daxili siyasət məsələsi deyil, həm də iqtisadi rəqabət üstünlüyü kimi çıxış edir. İnvestorların sabit ölkələrə üstünlük verməsi də bunun ən aydın göstəricisidir. Azərbaycan modeli isə göstərir ki, uzunmüddətli iqtisadi inkişaf yalnız siyasi sabitlik, sosial həmrəylik və idarəetmə sisteminin effektivliyi şəraitində mümkündür. Son illərdə həyata keçirilən iri enerji, nəqliyyat və sənaye layihələrinin uğuru da məhz bu amillər üzərində qurulub.

Prezident İlham Əliyevin çıxışında səsləndirdiyi iqtisadi göstəricilər də Azərbaycanın sabitlik mühitində son iyirmi ildə keçdiyi inkişaf yolunu aydın şəkildə nümayiş etdirir. Qeyri-neft sektorunun ÜDM-də payının 70 faizi keçməsi iqtisadiyyatın şaxələndirilməsi istiqamətində həyata keçirilən siyasətin real nəticəsidir. Uzun illər enerji ixracatçısı kimi tanınan Azərbaycan artıq qeyri-neft sənayesinin, xidmət sektorunun, kənd təsərrüfatının və logistikanın inkişafı hesabına yeni iqtisadi model formalaşdırır.

350 milyard ABŞ dollarına yaxın birbaşa investisiyanın cəlb edilməsi, xarici dövlət borcunun ÜDM-in cəmi 6 faizini təşkil etməsi və Azərbaycanın strateji valyuta ehtiyatlarının xarici borcu təxminən 20 dəfə üstələməsi Azərbaycanın maliyyə dayanıqlığını nümayiş etdirən mühüm göstəricilərdir. Beynəlxalq reytinq agentliklərinin ölkəmizin kredit reytinqini investisiya səviyyəsinə yüksəltməsi də təsadüfi olmayıb, ölkədə iqtisadi idarəetmənin effektivliyinə verilən yüksək beynəlxalq qiymətdir.

Sosial sahədə də diqqətəlayiq nəticələr əldə olunub. İşsizlik və yoxsulluq səviyyəsinin təxminən 5 faizə qədər enməsi, əhalinin üçdəbirindən çoxunu əhatə edən sosial proqramların həyata keçirilməsi iqtisadi inkişafın sosial rifahla paralel aparıldığını göstərir. Prezident İlham Əliyev dedi: "Ötən bir neçə ildə əhalimizin demək olar ki, 30 faizindən çoxunu əhatə edən bir neçə sosial dəstək layihəsini icra etmişik. Yoxsulluğun və işsizliyin azaldılması da hədəflərimizdən biri idi və biz buna uğurla nail olduq. Bu gün yoxsulluğun və işsizliyin səviyyəsi təqribən 5 faiz təşkil edir. Məşğulluqla bağlı olan məsələlər əhalisi artmaqda olan istənilən digər ölkə kimi, bizim də diqqətimizin mərkəzində olacaq. Çünki əhali artdığı zaman, - təəssüf ki, müsəlman ölkələrində bu tendensiyanın davam etdiyini hamımız bilirik, - bunun, eyni zamanda özü ilə bir çox çağırışlar gətirdiyini görürük. Çünki siz iş yerləri yaratmalısınız, daha çox sosial infrastruktur və ümumiyyətlə, infrastruktur qurmalısınız. Beləliklə, bu məsələ - işsizlik səviyyəsinin çox aşağı səviyyədə saxlanılması həmişə diqqət mərkəzində olacaq".

7

## Azərbaycan Respublikasının Prezidenti zati-aliləri cənab İlham Əliyevə

Hörmətli İlham Heydər oğlu!

Azərbaycan Respublikasının Müstəqillik Günü münasibətilə Tatarıstan sakinləri adından və şəxsən öz adımdan Sizə səmimi təbriklərimi qəbul etməyinizi xahiş edirəm.

Sizə və ölkənizin bütün vətəndaşlarına möhkəm cansağlığı, xoşbəxtlik, dövlətçiliyin daha da möhkəmləndirilməsi işində və çoxşaxəli sosial-iqtisadi vəzifələrin yerinə yetirilməsində daim uğurlar arzulayırıq. Qoy, Azərbaycan cəmiyyətinin birliyi və quruculuqla bağlı güclü əzmi əcdadların tarixi nailiyyətlərinə dair xatirələrlə möhkəmlənərək ölkənin davamlı dinamik inkişafının və firavanlığının təminatı olsun!

Qardaş xalqlarımızın xoşməramlı əməkdaşlıq ənənələrinin gələcəkdə də sarsılmaz qalacağına, habelə Rusiya ilə Azərbaycan arasında strateji tərəfdaşlıq maraqları naminə geniş qarşılıqlı fəaliyyətin daha da inkişaf etdiriləcəyinə ümid bəsləyirik.

Sizə, yaxınlarınıza və Azərbaycan xalqına ən xoş arzularımızı çatdırıram.

*Hörmətlə,*

***Rüstəm MİNNİXANOV,***
***Rusiya Federasiyası Tatarıstan Respublikasının Rəisi,***
***"Rusiya - İslam dünyası" Strateji Baxış Qrupunun sədri***

## Bir ömrün sınağı

### Bizim üçün qaçqınlıq doğma yurda dönməyin sonsuz qüruru ilə əvəzlənib

Ulu Öndərin siyasi kursunu uğurla həyata keçirən Prezident İlham Əliyevin fəaliyyətinin əsas istiqaməti qaçqınların və məcburi köçkünlərin problemlərinin həlli, ən başlıcası isə torpaqlarımızın işğaldan azad edilməsi idi. Dövlət başçısının diqqəti nəticəsində cəmi 4 il ərzində - 2003-cü ildən 2007-ci ilə qədər ölkədəki bütün çadır şəhərcikləri ləğv olundu. 2020-ci ilə qədər ölkədə məcburi köçkünlər üçün 100-dən çox qəsəbə-şəhərcik salındı. Ötən müddət ərzində Azərbaycanda 300 mindən çox məcburi köçkün mənzillərlə, fərdi evlərlə təmin olundu, həmçinin onların problemləri ardıcıl şəkildə öz həllini tapdı.



Ancaq Prezident İlham Əliyevin də vurğuladığı kimi, bütün bunlar müvəqqəti xarakter daşıyırdı. Hədəf Qarabağ və Şərqi Zəngəzurun azadlığı, məcburi köçkünlərin öz yurdlarına əbədi qayıdışı idi. 28 may 2020-ci ildə - Müstəqillik Günündə məcburi köçkünlər üçün salınmış "Qobu Park-3" yaşayış kompleksinin açılış mərasimində bu milli strategiya barədə Prezident İlham Əliyev qətiyyətlə bəyan etmişdi: "Ancaq onu da bilməliyik və bütün Azərbaycan xalqı bilməlidir ki, bu, sizin üçün müvəqqəti yaşayış yeridir. Torpaqlarımız işğaldan azad edildəndən sonra biz bu gün hələ də işğal altında olan torpaqlarda buna oxşar gözəl binalar, şəhərciklər tikəcəyik, ermənilər tərəfindən dağılmış şəhərlərimizi yenidən quracağıq".

8

## "Balanslı xarici siyasət tərəfdaş ölkələrin Azərbaycana olan etimadını daha da artırıb"



2024-cü ildə Bakının BMT-nin ən böyük tədbiri olan İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransına (COP29) qapılarını açması, bu il 57 mindən çox iştirakçının qatıldığı Ümumdünya Şəhərsalma Forumuna (WUF13) uğurlu evsahibliyi ölkəmizin təşkilatçılıq imkanlarının və qlobal etimadının göstəricisidir. Azərbaycanın bir neçə il əvvəl BMT Təhlükəsizlik Şurasına qeyri-daimi üzv seçilməsi və Qoşulmama Hərəkatına sədrliyi dövründə geniş beynəlxalq dəstək qazanması da qlobal miqyasda etibarlı və məsuliyyətli tərəfdaş kimi qəbul edildiyini təsdiqləyir. Təbii ki, bütün bunların əsasında Prezident İlham Əliyevin yürütdüyü siyasət dayanır.

5

# "Diplomatik xidmət haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə

## Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 19-cu bəndini rəhbər tutaraq **qərara alır:**

**Maddə 1.** "Diplomatik xidmət haqqında" Azərbaycan Respublikasının Qanununda (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2025, № 2, maddə 95) aşağıdakı dəyişikliklər edilsin:

1.1. 10.1.2-ci və 10.7-ci maddələr ləğv edilsin;

1.2. 12-ci maddə üzrə:

1.2.1. 12.1-ci maddə aşağıdakı redaksiyada verilsin:

"12.1. Müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanda (qurumda) xidmət keçən diplomatik xidmət əməkdaşlarının dövlət məvacibinə aşağıdakılar daxildir:

12.1.1. aylıq vəzifə maaşı;

12.1.2. diplomatik rütbəyə görə əlavə haqq;

12.1.3. təmsilçiliyə görə əlavə haqq;

12.1.4. xidmət üçün zəruri olan hallarda aylıq iş vaxtı norması 5 (beş) saatdan çox artırılanda işlədiyi hər saata görə ödənilən əlavə haqq;

12.1.5. əmək qanunvericiliyinə əsasən əmək şəraiti ilə əlaqədar diplomatik xidmət əməkdaşlarına şamil edilən əlavələr (xidmət şəraitinin ağır və zərərliliyinə, iqlim şəraitinə və s.).";

1.2.2. 12.2-ci maddədə "vəzifə maaşlarının məbləği və vəzifə maaşına diplomatik xidmət stajına, diplomatik rütbəyə, təmsilçiliyə, hakimiyyət səlahiyyətinə görə əlavələr" sözləri "aylıq vəzifə maaşlarının və aylıq vəzifə maaşlarına diplomatik rütbəyə və təmsilçiliyə görə əlavə haqqın məbləğləri" sözləri ilə əvəz edilsin;

1.2.3. aşağıdakı məzmunda 12.2-1 - 12.2-6-cı maddələr əlavə edilsin:

"12.2-1. Müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanda (qurumda) xidmət keçən diplomatik xidmət əməkdaşlarının aylıq vəzifə maaşları və bu Qanunun 12.1.4-cü maddəsində müəyyən edilən əlavə haqq bu Qanuna və "Dövlət qulluğu haqqında" Azərbaycan Respublikası Qanununun 33-4-cü maddəsində təsbit edilmiş şərtlərə uyğun müəyyən edilir.

12.2-2. Müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanda (qurumda) xidməti fəaliyyətləri qiymətləndirilməyən vəzifələrdə xidmət keçən diplomatik xidmət əməkdaşlarının əməyinin ödəniş pilləsi diplomatik xidmət stajının müddətindən asılı olaraq "Dövlət qulluğu haqqında" Azərbaycan Respublikası Qanununun 33-4.3-cü maddəsi nəzərə alınmaqla müəyyən edilir.

12.2-3. Müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanda (qurumda) xidməti fəaliyyətləri qiymətləndirilən vəzifələrdə xidmət keçən diplomatik xidmət əməkdaşlarının əməyinin ödəniş pilləsi diplomatik xidmət stajının müddətindən və diplomatik xidmət əməkdaşının xidməti fəaliyyətinin qiymətləndirilməsinin nəticəsindən asılı olaraq "Dövlət qulluğu haqqında" Azərbaycan Respublikası Qanununun 33-4.4-cü maddəsi nəzərə alınmaqla müəyyən edilir.

12.2-4. Diplomatik xidmət orqanı əməkdaşına dövlət büdcəsindən ödənilən dövlət məvacibi yalnız bu Qanunla müəyyən edilir.

12.2-5. Bu Qanunun 12.1.5-ci maddəsində nəzərdə tutulan əlavələr müvafiq qaydada hesablanan məbləğin 50 (əlli) faizi məbləğində tətbiq edilir.

12.2-6. Müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanda (qurumda) diplomatik xidmətə qəbul həyata keçirilənədək diplomatik vəzifədə müvəqqəti işləyən işçinin aylıq vəzifə maaşı minimum əməkhaqqından aşağı olmamaqla həmin diplomatik vəzifənin 1-ci ödəniş pilləsi üzrə vəzifə maaşının 50 (əlli) faizi məbləğində müəyyən edilir.";

1.2.4. 12.3-cü maddədə ", dövlət qulluqçuları üçün nəzərdə tutulan vəzifə maaşından, mükafatlardan və vəzifə maaşına əlavələrdən ibarətdir" sözləri "müəyyən edilir" sözləri ilə əvəz edilsin;

1.3. 13-cü maddə üzrə:

1.3.1. 13.14-cü maddə aşağıdakı redaksiyada verilsin:

"13.14. Diplomatik xidmət orqanı əməkdaşının "Əmək pensiyaları haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq pensiya yaşına çatmasına görə öz arzusu ilə və ya diplomatik xidmətdə olmanın yaş həddinə çatdığı üçün diplomatik xidmətinə xitam verildikdə, digər pensiya növünün təyin edilməsindən asılı olmayaraq, ona öz seçimi ilə diplomatik xidmətin son 24 (iyirmi dörd) ayı və ya istənilən ardıcıl gələn 60 (altmış) ayı ərzindəki orta aylıq dövlət məvacibinin 6 (altı) misli miqdarında birdəfəlik haqq verilir və bu məbləğdən vergi, məcburi dövlət sosial sığorta haqqı və digər icbari ödənişlər tutulmur.";

1.3.2. aşağıdakı məzmunda 13.14-1-ci və 13.14-2-ci maddələr əlavə edilsin:

"13.14-1. Diplomatik xidmətə bu Qanunun 30.1.14-cü maddəsi ilə xitam verildikdə diplomatik xidmət əməkdaşının vərəsələrinə orta aylıq dövlət məvacibinin 4 (dörd) misli miqdarında müavinət ödənilir.

13.14-2. Diplomatik xidmətə bu Qanunun 30.1.3-1-ci maddəsi ilə xitam verildikdə diplomatik xidmət əməkdaşına orta aylıq dövlət məvacibinin 3 (üç) misli miqdarında müavinət ödənilir. Diplomatik xidmət orqanının ləğvi istisna olmaqla, müddətli həqiqi hərbi xidmətə çağırılanadək diplomatik vəzifədə xidmət keçmiş şəxslər, hərbi xidmətdən buraxıldıqdan ən geci 60 (altmış) təqvim günü keçənədək əvvəlki diplomatik vəzifəsini tutmaq üçün müraciət etdikdə həmin orqanda əvvəlki və ya analoji vəzifəyə təyin edilirlər.";

1.4. 22.1-ci maddənin birinci cümləsində "Bu" sözü "Müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən diplomatik rütbə verilən və bu" sözləri ilə əvəz edilsin;

1.5. 28-ci maddə üzrə:

1.5.1. 28.1.4-cü maddənin sonunda nöqtə işarəsi nöqtəli vergül işarəsi ilə əvəz edilsin və aşağıdakı məzmunda 28.1.5 - 28.1.11-ci maddələr əlavə edilsin:

"28.1.5. məhkəmə və ya müvafiq səlahiyyətli orqan tərəfindən müəyyən edilmiş məcburi işburaxma dövrü;

28.1.6. diplomatik vəzifənin və orta əməkhaqqının saxlanılması şərtilə diplomatik xidmətdən ayrılma dövrü;

28.1.7. əmək qabiliyyətinin müvəqqəti itirildiyi dövr;

28.1.8. ödənişli məzuniyyət dövrləri, o cümlədən uşağa qulluq etmək üçün qismən ödənişli sosial məzuniyyət dövrü;

28.1.9. müddətli həqiqi hərbi xidmətə çağırılmazdan əvvəl diplomatik vəzifədə xidmət keçmiş və ehtiyata buraxıldıqdan sonra bilavasitə yenidən diplomatik vəzifəyə təyin edilmiş diplomatik xidmət əməkdaşının müddətli həqiqi hərbi xidmətdə olduğu dövr;

28.1.10. müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən göndərilmək şərtilə beynəlxalq təşkilatın orqanında iş dövrü;

28.1.11. dövlət orqanının rəhbəri və rəhbərinin müavini vəzifələrində qulluq (xidmət) illəri.";

1.5.2. aşağıdakı məzmunda 28.3-cü maddə əlavə edilsin:

"28.3. Diplomatik xidmət əməkdaşının diplomatik xidmət stajı "Dövlət qulluğu haqqında" Azərbaycan Respublikası Qanununun 22.4-cü maddəsi ilə müəyyən edilmiş qaydada müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən hesablanır.";

1.6. aşağıdakı məzmunda 30.1.3-1-ci maddə əlavə edilsin:

"30.1.3-1. müddətli həqiqi hərbi və ya alternativ xidmətə çağırıldıqda;".

**Maddə 2.** Keçid müddəa

Bu Qanun qüvvəyə minənədək "Diplomatik xidmət haqqında" Azərbaycan Respublikası Qanununun 12.1-ci maddəsində nəzərdə tutulan diplomatik xidmət əməkdaşlarına ödənilmiş aylıq vəzifə maaşı, əlavələr (diplomatik rütbəyə və təmsilçiliyə görə əlavə istisna olmaqla) və mükafat həmin əməkdaşların həmin Qanunun 12.2-1-ci maddəsinə əsasən müəyyən edilən aylıq vəzifə maaşlarına daxil edilir.

**Maddə 3.** Bu Qanun 2026-cı il yanvarın 1-dən tətbiq edilir.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 5 iyun 2026-cı il*

# "Diplomatik xidmət haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2026-cı il 5 iyun tarixli 416-VIIQD nömrəli Qanununun tətbiqi və "Diplomatik xidmət haqqında" Azərbaycan Respublikasının 2024-cü il 27 dekabr tarixli 109-VIIQ nömrəli Qanununun tətbiqi və bununla əlaqədar Azərbaycan Respublikası Prezidentinin bəzi fərmanlarında dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2025-ci il 17 fevral tarixli 331 nömrəli Fərmanında dəyişiklik edilməsi haqqında

## Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 19-cu və 32-ci bəndlərini rəhbər tutaraq, "Diplomatik xidmət haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2026-cı il 5 iyun tarixli 416-VIIQD nömrəli Qanununun qüvvəyə minməsi ilə əlaqədar həmin Qanunun tətbiqini təmin etmək məqsədilə **qərara alıram:**

1. Müəyyən edilsin ki:

1.1. "Diplomatik xidmət haqqında" Azərbaycan Respublikası Qanununun 12.1-ci, 12.2-1-12.2-3-cü, 12.2-6-cı maddələrində, 22.1-ci maddəsinin birinci cümləsində (birinci halda), 28.1.10-cu və 28.3-cü maddələrində nəzərdə tutulmuş müvafiq icra hakimiyyəti orqanının səlahiyyətlərini Azərbaycan Respublikasının Prezidenti həyata keçirir;

1.2. həmin Qanunun 22.1-ci maddəsinin birinci cümləsində (birinci halda) "orqan (qurum)" dedikdə Azərbaycan Respublikasının Prezidenti nəzərdə tutulur;

1.3. həmin Qanunun 28.1.10-cu maddəsində "orqan (qurum)" dedikdə Azərbaycan Respublikasının Prezidenti və Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi nəzərdə tutulur;

1.4. həmin Qanunun 12.1-ci, 12.2-1-12.2-3-cü, 12.2-6-cı və 28.3-cü maddələrində "orqan (qurum)" dedikdə Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi nəzərdə tutulur.

2. Azərbaycan Respublikasının Nazirlər Kabineti "Diplomatik xidmət haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2026-cı il 5 iyun tarixli 416-VIIQD nömrəli Qanunundan irəli gələn məsələləri həll etsin.

3. "Diplomatik xidmət haqqında" Azərbaycan Respublikasının 2024-cü il 27 dekabr tarixli 109-VIIQ nömrəli Qanununun tətbiqi və bununla əlaqədar Azərbaycan Respublikası Prezidentinin bəzi fərmanlarında dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2025-ci il 17 fevral tarixli 331 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2025, № 2, maddə 123) 1-ci hissəsində aşağıdakı dəyişikliklər edilsin:

3.1. 1.1-ci bənddən ", 10.7-ci" sözləri çıxarılsın və həmin bəndə "12.3-cü" sözlərindən əvvəl "12.2-1-12.2-3-cü, 12.2-6-cı," sözləri, "22.1-ci maddəsinin birinci cümləsində" sözlərindən sonra "(hər iki halda)" sözləri, "28.1.4-cü," sözlərindən sonra "28.1.10-cu, 28.3-cü," sözləri əlavə edilsin;

3.2. 1.2-ci bəndə "(ikinci halda) maddələrində," sözlərindən sonra "22.1-ci maddəsinin birinci cümləsində (birinci halda)," sözləri əlavə edilsin;

3.3. 1.3-cü bənddə "və 25.4-cü" sözləri ", 25.4-cü və 28.1.10-cu" sözləri ilə əvəz edilsin;

3.4. 1.5-ci bənddən ", 10.7-ci" sözləri çıxarılsın və həmin bəndə "12.3-cü" sözlərindən əvvəl "12.2-1-12.2-3-cü, 12.2-6-cı," sözləri, "22.1-ci maddəsinin birinci cümləsində" sözlərindən sonra "(ikinci halda)" sözləri, "28.1.4-cü," sözlərindən sonra "28.3-cü," sözləri əlavə edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 19 iyun 2026-cı il*

# Azərbaycan Respublikası Prezidentinin "İnzibati xətalar haqqında işlərə baxmağa səlahiyyəti olan vəzifəli şəxslərin Siyahısı"nın təsdiq edilməsi barədə" 2017-ci il 23 fevral tarixli 1256 nömrəli və "Rayon (şəhər) məhkəmələrinin və hərbi məhkəmələrin baxdığı inzibati xətalar haqqında işlər üzrə protokol tərtib etmək səlahiyyəti olan vəzifəli şəxslərin Siyahısı"nın təsdiq edilməsi barədə" 2017-ci il 3 may tarixli 1361 nömrəli fərmanlarında dəyişiklik edilməsi haqqında

## Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

1. Azərbaycan Respublikası Prezidentinin 2017-ci il 23 fevral tarixli 1256 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2017, № 2, maddə 200 (Cild I); 2024, № 2, maddə 157, № 6 (I kitab), maddə 649, № 7, maddələr 806, 812, 814, № 8, maddə 948, № 12 (I kitab), maddələr 1294, 1295, (II kitab), maddə 1378; 2025, № 2, maddə 127, № 4 (I kitab), maddə 325, № 5, maddə 463, № 8, maddə 746, № 9, maddə 820; 2026, № 1, maddə 41, № 2, maddə 117, № 3, maddələr 223, 226; Azərbaycan Respublikası Prezidentinin 2026-cı il 6 may tarixli 660 nömrəli Fərmanı) ilə təsdiq edilmiş "İnzibati xətalar haqqında işlərə baxmağa səlahiyyəti olan vəzifəli şəxslərin Siyahısı"nın 7-ci hissəsində aşağıdakı dəyişikliklər edilsin:

1.1. 7.1-ci bənddə "ərazi və ixtisaslaşdırılmış baş gömrük idarələrinin, gömrük idarələrinin və gömrük postlarının" sözləri "Komitənin strukturuna daxil olan gömrük orqanlarının" sözləri ilə əvəz edilsin;

1.2. 7.2-ci bənddə "ərazi və ixtisaslaşdırılmış baş gömrük idarələrinin idarə, şöbə və bölmə" sözləri "Komitənin strukturuna daxil olan gömrük orqanlarının rəisləri, həmin gömrük orqanlarının idarə, mərkəz, şöbə (bölmə), post" sözləri ilə, "böyük inspektorlar" sözləri "baş müstəntiqlər, baş təhqiqatçılar, böyük inspektorlar, böyük müstəntiqlər, böyük təhqiqatçılar" sözləri ilə əvəz edilsin və həmin bənddən "gömrük postlarının rəisləri," sözləri çıxarılsın.

2. Azərbaycan Respublikası Prezidentinin 2017-ci il 3 may tarixli 1361 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2017, № 5, maddə 765 (Cild I); 2024, № 4, maddə 381, № 6 (I kitab), maddə 649, № 7, maddələr 812, 814, 815, № 12 (I kitab), maddə 1294, (II kitab), maddə 1367; 2025, № 2, maddə 127, № 3, maddə 232, № 4 (I kitab), maddə 325, № 5, maddə 463, № 6, maddələr 541, 561, № 8, maddələr 756, 763, № 9, maddə 820, № 10, maddə 898, № 11, maddələr 1018, 1036; 2026, № 1, maddə 36, № 2, maddə 123, № 3, maddə 226; Azərbaycan Respublikası Prezidentinin 2026-cı il 15 aprel tarixli 643 nömrəli, 6 may tarixli 660 nömrəli və 2 iyun tarixli 676 nömrəli fərmanları) ilə təsdiq edilmiş "Rayon (şəhər) məhkəmələrinin və hərbi məhkəmələrin baxdığı inzibati xətalar haqqında işlər üzrə protokol tərtib etmək səlahiyyəti olan vəzifəli şəxslərin Siyahısı"nda aşağıdakı dəyişikliklər edilsin:

2.1. aşağıdakı məzmunda 14-1-ci hissə əlavə edilsin:

"14-1. Məcəllənin 212-1.2-ci maddəsində nəzərdə tutulmuş inzibati xətalar haqqında işlər üzrə protokol:

14-1.1. elektron siqaretlərin və ya onların komponentlərinin idxalına və ixracına münasibətdə Azərbaycan Respublikasının Dövlət Gömrük Komitəsi adından - bu Siyahının 46.1-ci bəndində nəzərdə tutulan vəzifəli şəxslər;

14-1.2. elektron siqaretlərin və ya onların komponentlərinin istehsalına, topdan və ya pərakəndə satışına və ya satış məqsədilə saxlanılmasına münasibətdə:

14-1.2.1. inzibati xətanı aşkar etmiş Azərbaycan Respublikasının Prezidenti yanında Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Agentliyi adından - bu Siyahının 16.2-ci bəndində nəzərdə tutulan vəzifəli şəxslər;

14-1.2.2. vergi nəzarəti zamanı aşkar edildiyi hallarda Dövlət Vergi Xidməti qismində Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi adından - bu Siyahının 32.1-ci bəndində nəzərdə tutulan vəzifəli şəxslər.";

2.2. 46.1-ci bənd aşağıdakı redaksiyada verilsin:

"46.1. inzibati xətanı aşkar etmiş Azərbaycan Respublikasının Dövlət Gömrük Komitəsi adından - Komitənin sədri, onun müavinləri, Komitə Aparatının Əməliyyat-İstintaq Baş İdarəsinin rəisi, onun müavinləri, həmin Baş İdarənin idarə, şöbə (bölmə) rəisləri, Komitənin strukturuna daxil olan gömrük orqanlarının rəisləri, onların müavinləri, həmin gömrük orqanlarının idarə, mərkəz, şöbə (bölmə), post rəisləri, onların müavinləri, baş inspektorlar, baş müstəntiqlər, baş təhqiqatçılar, böyük inspektorlar, böyük müstəntiqlər, böyük təhqiqatçılar, müstəntiqlər və təhqiqatçılar;".

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 19 iyun 2026-cı il*

# Azərbaycan Respublikasının Portuqaliya Respublikasında (Lissabon şəhərində) Səfirliyinin təsis edilməsi haqqında

## Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 95-ci maddəsinin I hissəsinin 2-ci bəndini rəhbər tutaraq **qərara alır:**

Azərbaycan Respublikasının Portuqaliya Respublikasında (Lissabon şəhərində) Səfirliyi təsis edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 12 iyun 2026-cı il*

# Azərbaycan Respublikasının Portuqaliya Respublikasında (Lissabon şəhərində) Səfirliyinin fəaliyyətinin təmin edilməsi haqqında

## Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, Azərbaycan Respublikasının Portuqaliya Respublikasında (Lissabon şəhərində) Səfirliyinin fəaliyyətinin təmin edilməsi məqsədilə **qərara alıram:**

1. Azərbaycan Respublikasının Nazirlər Kabineti:

1.1. Azərbaycan Respublikasının Portuqaliya Respublikasında (Lissabon şəhərində) Səfirliyinin fəaliyyətinin təmin edilməsi ilə bağlı maddi-texniki təchizat və maliyyələşdirilmə məsələlərini həll etsin;

1.2. bu Sərəncamdan irəli gələn digər məsələləri həll etsin.

2. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi Səfirliyin strukturunu və ştat cədvəlini təsdiq etsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 17 iyun 2026-cı il*

# Məktəbəqədər təhsil sahəsində valideyn-dövlət-özəl əməkdaşlığına əsaslanan maliyyələşmə modelinin tətbiq edilməsi haqqında

## Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, məktəbəqədər təhsil sahəsində alternativ təhsil və maliyyələşmə modelləri əsasında əhatəliliyin artırılması məqsədilə **qərara alıram:**

1. Məktəbəqədər təhsil sahəsində valideyn-dövlət-özəl əməkdaşlığına əsaslanan maliyyələşmə modeli tətbiq edilsin.

2. Məktəbəqədər təhsil sahəsində valideyn-dövlət-özəl əməkdaşlığına əsaslanan maliyyələşmə modeli üzrə dövlət dəstəyinin maliyyələşdirilməsi müvafiq illərin dövlət büdcəsində Azərbaycan Respublikasının Elm və Təhsil Nazirliyi üçün nəzərdə tutulmuş məqsədli vəsait hesabına təmin edilsin.

3. Azərbaycan Respublikasının Nazirlər Kabineti:

3.1. məktəbəqədər təhsil sahəsində valideyn-dövlət-özəl əməkdaşlığına əsaslanan maliyyələşmə modelinin tətbiqi qaydasını üç ay müddətində təsdiq edib Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

3.2. bu Fərmandan irəli gələn digər məsələləri həll etsin.

4. Azərbaycan Respublikasının Elm və Təhsil Nazirliyi hər növbəti maliyyə ili üzrə məktəbəqədər təhsil sahəsində valideyn-dövlət-özəl əməkdaşlığına əsaslanan maliyyələşmə modelinin tətbiqi üçün tələb olunan məqsədli vəsaitin həcmini Azərbaycan Respublikasının Maliyyə Nazirliyi ilə razılaşdırmaqla müəyyən etsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 19 iyun 2026-cı il*

# Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyində xidmət keçən diplomatik xidmət əməkdaşlarının aylıq vəzifə maaşlarının və aylıq vəzifə maaşlarına diplomatik rütbəyə və təmsilçiliyə görə əlavə haqqın məbləğlərinin təsdiq edilməsi haqqında

## Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

1. "Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyində xidmət keçən diplomatik xidmət əməkdaşlarının əməyinin ödəniş pillələri üzrə aylıq vəzifə maaşlarının məbləği" təsdiq edilsin *(əlavə olunur)*.

2. "Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyində xidmət keçən diplomatik xidmət əməkdaşlarının aylıq vəzifə maaşlarına diplomatik rütbəyə görə əlavə haqqın məbləği" təsdiq edilsin *(əlavə olunur)*.

3. "Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyində xidmət keçən diplomatik xidmət əməkdaşlarının aylıq vəzifə maaşlarına təmsilçiliyə görə əlavə haqqın məbləği" təsdiq edilsin *(əlavə olunur)*.

4. Müəyyən edilsin ki, Azərbaycan Respublikasının diplomatik nümayəndəliklərində və konsulluqlarında xidmət keçən diplomatik xidmət orqanı əməkdaşlarının yeni dövlət məvacibinin məbləği müəyyən edilənədək onlara dövlət məvacibinin ödənilməsi bu Fərmanın tətbiqinədək qüvvədə olan qaydada və məbləğdə davam etdirilir.

5. "Azərbaycan Respublikası Xarici İşlər Nazirliyinin əməkdaşlarına əlavə pul təminatının verilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2008-ci il 9 iyul tarixli 2935 nömrəli Sərəncamı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2008, № 7, maddə 646 (Cild I) ləğv edilsin.

6. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Fərmandan irəli gələn məsələləri həll etsin.

7. Bu Fərman 2026-cı il yanvarın 1-dən tətbiq edilir.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 19 iyun 2026-cı il*

*Azərbaycan Respublikası Prezidentinin 2026-cı il 19 iyun tarixli Fərmanı ilə təsdiq edilmişdir*

### Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyində xidmət keçən diplomatik xidmət əməkdaşlarının əməyinin ödəniş pillələri üzrə aylıq vəzifə maaşlarının məbləği

| Diplomatik vəzifənin adı | Ödəniş pillələri | | | | | | |
|---|---|---|---|---|---|---|---|
| | I | II | III | IV | V | VI | VII |
| Xüsusi tapşırıqlar üzrə səfir, idarə rəisi | 8245 | 8450 | 8660 | 8865 | 9070 | 9275 | 9485 |
| İdarə rəisinin müavini | 6635 | 6805 | 6970 | 7135 | 7300 | 7465 | 7635 |
| Müşavir | 6175 | 6330 | 6485 | 6635 | 6790 | 6945 | 7100 |
| Şöbə müdiri | 4970 | 5095 | 5220 | 5340 | 5465 | 5590 | 5715 |
| Birinci katib | 4625 | 4740 | 4855 | 4970 | 5085 | 5200 | 5315 |
| İkinci katib | 4300 | 4410 | 4515 | 4625 | 4730 | 4840 | 4945 |
| Üçüncü katib | 4000 | 4100 | 4200 | 4300 | 4400 | 4500 | 4600 |
| Attaşe | 3720 | 3815 | 3910 | 4000 | 4095 | 4185 | 4280 |

**Qeyd:**

"Diplomatik xidmət haqqında" Azərbaycan Respublikası Qanununun 14.2.1.1-ci və 14.2.1.2-ci maddələrində təsbit olunan xarici işlər nazirinin və onun müavinlərinin diplomatik vəzifələri üzrə aylıq vəzifə maaşlarının məbləği "Azərbaycan Respublikasının bəzi dövlət orqanlarının rəhbər işçilərinə yeni vəzifə maaşlarının müəyyən edilməsi və bununla əlaqədar bəzi məsələlərin tənzimlənməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2026-cı il 19 mart tarixli 625 nömrəli Fərmanı ilə müəyyən edilir.

*Azərbaycan Respublikası Prezidentinin 2026-cı il 19 iyun tarixli Fərmanı ilə təsdiq edilmişdir*

### Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyində xidmət keçən diplomatik xidmət əməkdaşlarının aylıq vəzifə maaşlarına təmsilçiliyə görə əlavə haqqın məbləği

| Diplomatik vəzifənin adı | Aylıq vəzifə maaşlarına təmsilçiliyə görə əlavə haqq (manatla) |
|---|---|
| Xüsusi tapşırıqlar üzrə səfir, idarə rəisi | 400 |
| İdarə rəisinin müavini | 330 |
| Müşavir | 310 |
| Şöbə müdiri | 250 |
| Birinci katib | 230 |
| İkinci katib | 220 |
| Üçüncü katib | 200 |
| Attaşe | 180 |

**Qeyd:**

1. Diplomatik xidmət əməkdaşlarının (xarici işlər naziri və onun müavinləri istisna olmaqla) aylıq vəzifə maaşlarına təmsilçiliyə görə əlavə haqqın verilməsi dövlət büdcəsində Azərbaycan Respublikası Xarici İşlər Nazirliyinin saxlanılması xərclərində nəzərdə tutulmuş vəsait hesabına həyata keçirilir.

2. Aylıq vəzifə maaşına təmsilçiliyə görə əlavə haqq, diplomatik xidmət əməkdaşına diplomatik rütbənin ilk dəfə verildiyi aydan sonrakı ayın 1-dən başlayaraq hər ay vəzifə maaşı ilə birlikdə ödənilir.

*Azərbaycan Respublikası Prezidentinin 2026-cı il 19 iyun tarixli Fərmanı ilə təsdiq edilmişdir*

### Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyində xidmət keçən diplomatik xidmət əməkdaşlarının aylıq vəzifə maaşlarına diplomatik rütbəyə görə əlavə haqqın məbləği

| Diplomatik rütbənin adı | Aylıq vəzifə maaşlarına diplomatik rütbəyə görə əlavə haqq (manatla) |
|---|---|
| Fövqəladə və səlahiyyətli səfir | 550 |
| Birinci dərəcəli fövqəladə və səlahiyyətli elçi | 500 |
| İkinci dərəcəli fövqəladə və səlahiyyətli elçi | 450 |
| Birinci dərəcəli müşavir | 400 |
| İkinci dərəcəli müşavir | 350 |
| Birinci dərəcəli birinci katib | 300 |
| İkinci dərəcəli birinci katib | 275 |
| Birinci dərəcəli ikinci katib | 260 |
| İkinci dərəcəli ikinci katib | 250 |
| Üçüncü katib | 225 |
| Attaşe | 200 |

**Qeyd:**

1. Diplomatik xidmət əməkdaşlarının aylıq vəzifə maaşlarına diplomatik rütbəyə görə əlavə haqqın verilməsi dövlət büdcəsində Azərbaycan Respublikası Xarici İşlər Nazirliyinin (bundan sonra - Nazirlik) saxlanılması xərclərində nəzərdə tutulmuş vəsait hesabına həyata keçirilir. Bu məqsədlə hər il növbəti ilin dövlət büdcəsi layihəsinin tərtibi zamanı Nazirlik üzrə baza aylıq vəzifə maaşlarının (birinci ödəniş pilləsi) 0,8 misli həcmində vəsait Nazirliyin saxlanılması xərclərinin tərkibinə daxil edilir.

2. Aylıq vəzifə maaşına diplomatik rütbəyə görə əlavə haqq, diplomatik xidmət əməkdaşına diplomatik rütbənin verildiyi aydan sonrakı ayın 1-dən başlayaraq hər ay vəzifə maaşı ilə birlikdə ödənilir.

3. Diplomatik xidmət əməkdaşının diplomatik rütbəsi artırıldıqda əvvəlki diplomatik rütbəyə görə əlavə haqqın verilməsi növbəti ayın 1-dən dayandırılır.

4. Diplomatik xidmət əməkdaşının əvvəlki diplomatik rütbəsi bərpa olunduqda, həmin diplomatik rütbəyə görə aylıq vəzifə maaşına əlavə haqqın verilməsi növbəti ayın 1-dən başlayaraq həyata keçirilir.

5. Diplomatik xidmət əməkdaşının diplomatik rütbəsi aşağı salındıqda, əvvəlki diplomatik rütbəyə görə aylıq vəzifə maaşına əlavə haqqın verilməsi dərhal dayandırılır.

# Sənaye və kənd təsərrüfatı üzrə tikinti obyektlərinin elektrik şəbəkəsinə qoşulma xidmətinə görə ödənişin subsidiyalaşdırılması haqqında

## Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

1. "Sənaye və kənd təsərrüfatı üzrə tikinti obyektlərinin elektrik şəbəkəsinə qoşulma xidmətinə görə ödənişin subsidiyalaşdırılması Qaydası" təsdiq edilsin *(əlavə olunur)*.

2. Müəyyən edilsin ki:

2.1. bu Fərmanın 1-ci hissəsi ilə təsdiq edilən Qaydaya uyğun olaraq, sənaye və kənd təsərrüfatı üzrə tikinti obyektlərinin elektrik şəbəkəsinə qoşulma xidmətinə görə Azərbaycan Respublikasının Tarif (qiymət) Şurası tərəfindən müəyyən edilən ödənişin 50 (əlli) faizi məbləğində dövlət büdcəsinin vəsaiti hesabına subsidiya ödənilir;

2.2. bu Fərmanın 2.1-ci bəndində nəzərdə tutulan subsidiya bu Fərman qüvvəyə mindikdən sonra elektrik şəbəkəsinə qoşulan sənaye və kənd təsərrüfatı üzrə tikinti obyektlərinə şamil edilir.

3. Azərbaycan Respublikasının Nazirlər Kabineti:

3.1. bu Fərmanın 2.1-ci bəndində nəzərdə tutulan subsidiyanın 2027-2030-cu illərdə ödənilməsinin maliyyələşdirilməsi üçün zəruri vəsaitin həmin illərin dövlət büdcəsi layihələrində nəzərdə tutulmasını təmin etsin;

3.2. bu Fərmandan irəli gələn digər məsələləri həll etsin.

4. Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi:

4.1. bu Fərmanın 1-ci hissəsi ilə təsdiq edilən Qaydaya uyğun olaraq, elektrik şəbəkəyə qoşulma xidmətinə görə ödənişin subsidiyalaşdırılmasını təşkil etsin;

4.2. bu Fərmandan irəli gələn digər məsələlərin həlli üçün zəruri tədbirlər görsün.

5. Bu Fərman 2027-ci il yanvarın 1-dən qüvvəyə minir və 2030-cu il dekabrın 31-dək qüvvədədir.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 19 iyun 2026-cı il*

# Azərbaycan Respublikası Prezidentinin "Azərbaycan Respublikası Vergi Məcəlləsinin təsdiq edilməsi, qüvvəyə minməsi və bununla bağlı hüquqi tənzimləmə məsələləri haqqında" Azərbaycan Respublikası Qanununun və bu Qanunla təsdiq edilmiş Azərbaycan Respublikası Vergi Məcəlləsinin tətbiq edilməsi barədə" 2000-ci il 30 avqust tarixli 393 nömrəli, "Gömrük tarifi haqqında" Azərbaycan Respublikası Qanununun tətbiqi barədə" 2013-cü il 4 iyul tarixli 936 nömrəli, "İnvestisiya təşviqi sənədini almış hüquqi şəxslərə və fərdi sahibkarlara texnikanın, texnoloji avadanlıqların və qurğuların idxalı üçün təsdiqedici sənədin verilməsi Qaydası"nın təsdiq edilməsi, "Azərbaycan Respublikasının Vergi Məcəlləsində dəyişikliklər edilməsi haqqında" Azərbaycan Respublikasının 2016-cı il 19 yanvar tarixli 107-VQD nömrəli Qanununun tətbiqi və "Azərbaycan Respublikası Vergi Məcəlləsinin təsdiq edilməsi, qüvvəyə minməsi və bununla bağlı hüquqi tənzimləmə məsələləri haqqında" Azərbaycan Respublikası Qanununun və bu Qanunla təsdiq edilmiş Azərbaycan Respublikası Vergi Məcəlləsinin tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2000-ci il 30 avqust tarixli 393 nömrəli Fərmanında dəyişikliklər edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 15 fevral tarixli 797 nömrəli Fərmanında dəyişiklik edilməsi barədə" 2016-cı il 20 aprel tarixli 877 nömrəli və "İnvestisiya təşviqi sənədinin verilməsi nəzərdə tutulan strateji investisiya layihələrinin istiqamətləri"nin təsdiq edilməsi haqqında" 2024-cü il 1 fevral tarixli 2462 nömrəli fərmanlarında dəyişiklik edilməsi barədə

## Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

1. "Azərbaycan Respublikası Vergi Məcəlləsinin təsdiq edilməsi, qüvvəyə minməsi və bununla bağlı hüquqi tənzimləmə məsələləri haqqında" Azərbaycan Respublikası Qanununun və bu Qanunla təsdiq edilmiş Azərbaycan Respublikası Vergi Məcəlləsinin tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2000-ci il 30 avqust tarixli 393 nömrəli Fərmanında (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2000, № 8 (III kitab), maddə 616 (Cild I); 2024, № 5 (I kitab), maddə 513, № 6 (I kitab), maddələr 653, 661, № 8, maddə 947, № 12 (I kitab), maddə 1289, (II kitab), maddə 1375; 2025, № 4 (I kitab), maddələr 331, 334, № 5, maddə 461, № 6, maddə 541, № 8, maddə 747, № 11, maddələr 1018, 1023, № 12 (I kitab), maddə 1154; 2026, № 1, maddə 35, № 2, maddələr 123, 125) aşağıdakı dəyişikliklər edilsin:

1.1. 1.9-cu bənddən "164.1.26-cı," sözləri çıxarılsın;

1.2. aşağıdakı məzmunda 1.9-1-ci bənd əlavə edilsin:

"1.9-1. həmin Məcəllənin 164.1.26-cı maddəsində nəzərdə tutulmuş müvafiq icra hakimiyyəti orqanının səlahiyyətlərini hərbi təyinatlı məhsulların istehsalı layihələrinə münasibətdə Azərbaycan Respublikasının Müdafiə Sənayesi Nazirliyi, digər layihələrə münasibətdə Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi həyata keçirir.".

2. "Gömrük tarifi haqqında" Azərbaycan Respublikası Qanununun tətbiqi barədə" Azərbaycan Respublikası Prezidentinin 2013-cü il 4 iyul tarixli 936 nömrəli Fərmanında (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2013, № 7, maddə 801 (Cild I); 2024, № 6 (I kitab), maddə 661, № 12 (II kitab), maddə 1371; 2025, № 12 (I kitab), maddə 1154; 2026, № 2, maddə 125) aşağıdakı dəyişikliklər edilsin:

2.1. 3.5-ci bənddən "20.0.17-ci (ikinci halda) və" sözləri çıxarılsın və həmin bənddə "maddələrində" sözü "maddəsində" sözü ilə əvəz edilsin;

2.2. aşağıdakı məzmunda 3.5-3-cü bənd əlavə edilsin:

"3.5-3. həmin Qanunun 20.0.17-ci (ikinci halda) maddəsində nəzərdə tutulmuş müvafiq icra hakimiyyəti orqanının səlahiyyətlərini hərbi təyinatlı məhsulların istehsalı layihələrinə münasibətdə Azərbaycan Respublikasının Müdafiə Sənayesi Nazirliyi, digər layihələrə münasibətdə Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi həyata keçirir.".

3. Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 20 aprel tarixli 877 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2016, № 4, maddə 682; 2019, № 2, maddə 241; 2022, № 8, maddə 858, № 12, maddə 1423; 2023, № 7, maddə 972) ilə təsdiq edilmiş "İnvestisiya təşviqi sənədini almış hüquqi şəxslərə və fərdi sahibkarlara texnikanın, texnoloji avadanlıqların və qurğuların idxalı üçün təsdiqedici sənədin verilməsi Qaydası"nda aşağıdakı dəyişikliklər edilsin:

3.1. 2-ci hissə üzrə:

3.1.1. 2.1-ci bəndə "olaraq," sözündən sonra "Azərbaycan Respublikası Prezidentinin 2024-cü il 1 fevral tarixli 2462 nömrəli Fərmanı ilə təsdiq edilmiş "İnvestisiya təşviqi sənədinin verilməsi nəzərdə tutulan strateji investisiya layihələrinin istiqamətləri"nin 10-cu hissəsi üzrə Azərbaycan Respublikasının Müdafiə Sənayesi Nazirliyinə, digər hissələri üzrə isə" sözləri əlavə edilsin və həmin bənddə "Nazirlik" sözü "qurumlar" sözü ilə əvəz edilsin;

3.1.2. 2.3-cü bənd üzrə:

3.1.2.1. birinci cümlədə "Nazirlik" sözü "qurumlar" sözü ilə əvəz edilsin;

3.1.2.2. ikinci cümlədə "Nazirlik" sözü "qurumlar" sözü ilə, ikinci halda "və" sözü vergül işarəsi ilə əvəz olunsun və həmin cümləyə "Komitəsinə" sözündən sonra "və Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi Xidmətinə" sözləri əlavə edilsin;

3.1.3. 2.4-cü bənddə "Nazirlik" sözü "qurumlar" sözü ilə əvəz edilsin;

3.1.4. 2.5-ci bənddə "Nazirliyə" sözü "qurumlara" sözü ilə əvəz edilsin;

3.2. 3-cü hissə üzrə:

3.2.1. 3.1.2-ci yarımbənddə "Nazirlik" sözü "qurumlar" sözü ilə əvəz edilsin;

3.2.2. 3.3-cü bənddə "Nazirlik" sözü "qurumlar" sözü ilə, "və" sözü vergül işarəsi ilə əvəz olunsun və həmin cümləyə "Komitəsinə" sözündən sonra "və Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi Xidmətinə" sözləri əlavə edilsin.

4. Azərbaycan Respublikası Prezidentinin 2024-cü il 1 fevral tarixli 2462 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2024, № 2, maddə 143 (Cild I); 2026, № 2, maddə 114) ilə təsdiq edilmiş "İnvestisiya təşviqi sənədinin verilməsi nəzərdə tutulan strateji investisiya layihələrinin istiqamətləri"ndə aşağıdakı dəyişikliklər edilsin:

4.1. aşağıdakı məzmunda 1-1-ci hissə əlavə edilsin:

"1-1. Bərpaolunan enerji mənbələri hesabına enerji istehsalı üçün istifadə edilən avadanlığın istehsalı layihələri";

4.2. 7-ci hissə aşağıdakı redaksiyada verilsin:

"7. Azərbaycan Respublikasında istehsalı olmayan məhsulların yerli istehsalının təşkili layihələri";

4.3. 10-cu hissənin sonundan nöqtə işarəsi çıxarılsın və aşağıdakı məzmunda 11 - 16-cı hissələr əlavə edilsin:

"11. Aqroparklarda həyata keçirilən kənd təsərrüfatı məhsullarının istehsalı və emalı layihələri

12. Kənd təsərrüfatında istifadə olunan gübrələrin, pestisidlərin, toxum və yem məhsullarının istehsalı layihələri

13. Kənd təsərrüfatı məhsullarının çeşidlənməsi və qablaşdırılması layihələri

14. Avtomatlaşdırılmış iqlimə nəzarət sistemləri ilə təchiz edilmiş dördüncü nəsil istixana komplekslərinin (minimum 3 hektar) yaradılması layihələri

15. Kənd təsərrüfatı təyinatlı texnikaların, habelə elevator, taxıl silosu, soyuducu anbar, çeşidləmə, saxlanma və qablaşdırma avadanlığının istehsalı layihələri

16. İnformasiya və kommunikasiya texnologiyaları üzrə sənaye məhsullarının istehsalı layihələri.".

5. Azərbaycan Respublikasının Nazirlər Kabinetibu Fərmandan irəli gələn məsələləri həll etsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 19 iyun 2026-cı il*

# Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2024-cü il 1 may tarixli 233 nömrəli Qərarı ilə təsdiq edilmiş "Enerji balansının hazırlanması, təsdiq edilməsi və icrasına nəzarət Qaydası"nda dəyişiklik edilməsi haqqında

## Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərarı

**№ 185** **Bakı şəhəri, 19 iyun 2026-cı il**

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, "İstilik təchizatı haqqında" Azərbaycan Respublikasının 2025-ci il 24 iyun tarixli 222-VIIQ nömrəli Qanununun icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2024-cü il 1 may tarixli 233 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2024, № 5 (II kitab), maddə 571; 2025, № 3, maddə 303, № 9, maddə 869) ilə təsdiq edilmiş "Enerji balansının hazırlanması, təsdiq edilməsi və icrasına nəzarət Qaydası"na əlavə - "Azərbaycan Respublikasının enerji balansı"nın strukturu (əvvəlki iki ilin faktiki, cari ilin gözlənilən, növbəti ilin illik, rüblük və sonrakı üç il üzrə illik)"nun 6-cı hissəsindən "ötürülməsi," sözü çıxarılsın və həmin hissəyə "paylanması" sözündən sonra "o cümlədən ötürülməsi" sözləri əlavə edilsin.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

# Bərpaolunan enerji mənbələrinin ərazisində günəş-elektrik stansiyasının tikintisinə icazə alınması müddətinin uzadılması haqqında

## Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərarı

**№ 186** **Bakı şəhəri, 19 iyun 2026-cı il**

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, "Elektrik enerjisi istehsalında bərpaolunan enerji mənbələrindən istifadə haqqında" Azərbaycan Respublikasının 2021-ci il 31 may tarixli 339-VIQ nömrəli Qanununun tətbiqi barədə" Azərbaycan Respublikası Prezidentinin 2021-ci il 12 iyul tarixli 1387 nömrəli Fərmanının 2.4-cü bəndinə əsasən Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

1. Azərbaycan Respublikası Nazirlər Kabinetinin "Neftçala rayonunun inzibati ərazisində dövlət və bələdiyyə mülkiyyətinə aid bəzi torpaq sahələrinin bərpaolunan enerji mənbələrinin ərazisi kimi müəyyən edilməsi haqqında" 2024-cü il 16 aprel tarixli 211 nömrəli Qərarı ilə Neftçala rayonunun Bankə qəsəbəsi ərazisində yerləşən bərpaolunan enerji mənbələrinin ərazisi kimi müəyyən edilmiş torpaq sahəsində günəş-elektrik stansiyasının tikintisinə icazə alınmasının müddəti "Elektrik enerjisi istehsalında bərpaolunan enerji mənbələrindən istifadə haqqında" Azərbaycan Respublikası Qanununun 6.7-ci maddəsinə uyğun olaraq 1 (bir) il müddətinə uzadılsın.

2. Tikintiyə icazə verən orqan (qurum) bu Qərarın 1-ci hissəsinə uyğun olaraq, tikintiyə icazə verildikdə həmin gündən, müəyyən edilmiş müddətdə tikintiyə icazə verilmədikdə isə müddət başa çatdığı gündən 3 (üç) gün müddətində bu barədə Azərbaycan Respublikasının Nazirlər Kabinetinə məlumat versin.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

## Milli Məclisin iclasında

# Elektron Hökumət İnformasiya Sisteminin tətbiqi genişləndirilir

**İyunun 19-da Milli Məclisin növbədənkənar sessiyasının növbəti iclası keçirilib. Parlamentin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən verilən məlumata görə, Milli Məclisin Sədri Sahibə Qafarova bildirib ki, iclasın gündəliyində 14 məsələ var və birinci məsələ "Azərbaycan Respublikasının 2025-ci il dövlət büdcəsinin icrası haqqında" qanun layihəsidir (ikinci oxunuş).**



Spiker bu məsələ ilə əlaqədar hökumət üzvlərinin, Hesablama Palatası rəhbərliyinin və digər vəzifəli şəxslərin iclasda iştirak etdiyini söyləyib.

Məsələ barədə İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsi sədrinin müavini Azər Badamov məlumat verib. Komitə sədrinin müavini deyib ki, 2025-ci ilin büdcəsi dövlətin mühüm funksiyalarının ahəngdar icrası üçün etibarlı maliyyə təminatı yaradıb, makroiqtisadi sabitlik qorunub saxlanılıb, sosial-iqtisadi inkişafın əsas istiqamətləri üzrə maliyyələşmə uğurla həyata keçirilib.

2025-ci ilin büdcəsinin gəlir, xərc və digər parametrlər üzrə müsbət dinamikasını diqqətə çatdıran Azər Badamov vurğulayıb ki, ötən il müdafiə və təhlükəsizlik, əhalinin sosial müdafiəsi, işğaldan azad edilmiş ərazilərin bərpası üzrə xərclərin maliyyələşdirilməsi prioritet istiqamətlər olaraq davam etdirilib. Həmçinin sahibkarlığın inkişafı, investisiya mühitinin yaxşılaşdırılması, qeyri-neft sektorunun genişləndirilməsi, nəqliyyat, logistika və digər infrastruktur layihələrinin reallaşması üçün dövlət dəstəyi tədbirləri həyata keçirilib, zəruri maliyyə vəsaitləri ayrılıb.

Layihənin məruzəçisi 2025-ci ilin dövlət büdcəsinin Azərbaycan Respublikası Prezidentinin müəyyən etdiyi strateji inkişaf prioritetlərinə, sosial-iqtisadi hədəflərə və milli maraqlara uyğun uğurla icra edildiyini vurğulayıb.

Məsələ ilə bağlı müzakirələrdə parlamentin komitə sədri Zahid Oruc, deputatlar Vüqar Bayramov, Kamal Cəfərov, Samir Vəliyev, Soltan Məmmədov çıxış edərək öz fikir və qeydlərini səsləndiriblər.

Qanun layihəsi səsə qoyularaq ikinci oxunuşda qəbul edilib.

Spiker Sahibə Qafarova gündəliyin növbəti iki məsələsinin üçüncü oxunuşda qanun layihələri olduğunu söyləyib. Spiker ikinci məsələ olan Gömrük Məcəlləsində dəyişiklik edilməsi haqqında qanun layihəsi (üçüncü oxunuş) barədə məlumat vermək üçün İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsi sədrinin müavini Azər Badamova söz verib.

Azər Badamov bildirib ki, qanun layihəsi gömrük sahəsində hüquqi tənzimləmənin təkmilləşdirilməsinə, gömrük inzibatçılığının səmərəliliyinin artırılmasına və xarici iqtisadi fəaliyyət iştirakçıları üçün daha əlverişli şəraitin yaradılmasına xidmət edir.

Komitə sədrinin müavini vurğulayıb ki, təklif olunan dəyişikliklər gömrük prosedurlarının daha şəffaf və operativ həyata keçirilməsinə, gömrük nəzarəti və auditi mexanizmlərinin təkmilləşdirilməsinə, həmçinin hüquqi müəyyənliyin artırılmasına şərait yaradacaq.

Qanun layihəsi üçüncü oxunuşda qəbul edilib.

Növbəti məsələ - "Dövlət qulluğu haqqında" qanunda dəyişiklik edilməsi barədə qanun layihəsi (üçüncü oxunuş) ilə bağlı Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin sədri Əli Hüseynli məlumat verib. Komitə sədri deyib ki, qanun layihəsi barədə əvvəlki oxunuşlarda ətraflı məlumat verilib. Dəyişiklik Naxçıvan Muxtar Respublikasında idarəçilik modelinin təkmilləşdirilməsi məqsədilə hazırlanıb.

Bu qanun layihəsi də üçüncü oxunuşda qəbul edilib.

Gündəliyin dördüncü məsələsi olan "Azərbaycan Respublikası Hökuməti ilə Ekvador Respublikası Hökuməti arasında diplomatik, rəsmi və xidməti pasport sahiblərinin viza tələblərindən azad edilməsi haqqında Saziş"in təsdiq edilməsi barədə qanun layihəsini müzakirəyə təqdim edən spiker Sahibə Qafarova xatırladıb ki, layihə beynəlxalq sənədlə bağlı olduğu üçün "Normativ hüquqi aktlar haqqında" Konstitusiya Qanununun tələbinə əsasən, bir oxunuşda qəbul ediləcək.

Qanun layihəsi barədə məlumat verən parlamentin Beynəlxalq münasibətlər və parlamentlərarası əlaqələr komitəsinin sədri Səməd Seyidov bildirib ki, viza tələblərindən azad edilməsi haqqında bağlanmış sazişlər nəticəsində Azərbaycan vətəndaşlarının ümumilikdə 95 ölkəyə sərbəst gediş-gəlişi təmin olunur.

Komitə sədri qeyd edib ki, deputatlara təqdim olunan "Azərbaycan Respublikası Hökuməti ilə Ekvador Respublikası Hökuməti arasında diplomatik, rəsmi və xidməti pasport sahiblərinin viza tələblərindən azad edilməsi haqqında Saziş" 4 may 2026-cı ildə Kito şəhərində imzalanıb. Sazişin məqsədi hər iki dövlətin etibarlı diplomatik, rəsmi və xidməti pasportlara malik olan vətəndaşlarının səyahətlərini asanlaşdırmaqdır.

Səməd Seyidov vurğulayıb ki, xarici əlaqələrin genişləndirilməsi baxımından bu qanun layihəsi ölkəmizin milli maraqlarına tam uyğundur və komitə sənədlə bağlı müsbət rəy verib.

Məsələ ilə bağlı deputat Hikmət Məmmədovun fikirləri dinlənildikdən sonra qanun layihəsi səsə qoyularaq qəbul edilib.

Gündəliyin beşinci məsələsi olan "Normativ hüquqi aktlar haqqında" Konstitusiya Qanununda dəyişiklik edilməsi barədə Konstitusiya qanununun layihəsi (birinci oxunuş) ilə bağlı məlumatı parlamentin Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin sədri Əli Hüseynli təqdim edib. O bildirib ki, "Normativ hüquqi aktlar haqqında" Azərbaycan Respublikasının Konstitusiya Qanununa təklif olunan dəyişikliklər media sahəsində fəaliyyət göstərən tənzimləyici qurumun səlahiyyətlərinin genişləndirilməsi ilə əlaqədar onun adının dəyişdirilərək "Media və Yayım Şurası" ilə əvəz olunmasını nəzərdə tutur.

Altıncı məsələ olan "Dövlət qulluğu haqqında" və "Media haqqında" qanunlarda dəyişiklik edilməsi barədə qanun layihəsi (birinci oxunuş) ilə bağlı məlumatı İnsan hüquqları komitəsinin sədri Zahid Oruc diqqətə çatdırıb. Komitə sədri bildirib ki, qanun layihəsinə əsasən, mövcud Audiovizual Şura və Medianın İnkişafı Agentliyinin bazasında kollegial idarəetmə sisteminə malik vahid qurum - Media və Yayım Şurası yaradılır. O, bu dəyişikliyi media sahəsində yeni nəsil tənzimləmə modelinə keçid kimi dəyərləndirib, təklif olunan layihənin dövlətin milli informasiya məkanının hibrid hücumlardan qorunması, regional və beynəlxalq məkanda yaranan çağırışlara uyğun media strukturlarının gücləndirilməsi, institusional mexanizmlərin təkmilləşdirilməsi baxımından əhəmiyyətindən danışıb.

Dəyişikliklərə əsasən, media və yayım sahəsində səlahiyyətli dövlət orqanı kimi Media və Yayım Şurası sosial şəbəkələrdə dezinformasiyanın aşkarlanması, media subyektlərinə iqtisadi dəstək tədbirlərinin həyata keçirilməsi və audiovizual məhsulların sifarişçisi qismində çıxış etmək kimi səlahiyyətlərə malik olacaq.

Komitə sədri qeyd edib ki, Şura lisenziyalaşdırma, Media Reyestrinin aparılması və qanunvericiliyə nəzarət funksiyaları ilə yanaşı, media sahəsinin inkişafı, ictimai rəyin öyrənilməsi və strateji informasiya siyasətinin həyata keçirilməsini də vahid mərkəzdə birləşdirəcək.

Bildirilib ki, təklif olunan model beynəlxalq təcrübəyə uyğundur. Avropa və digər Qərb ölkələrində də media və yayımın tənzimlənməsi, rəqəmsal media mühitinin idarə olunması və istifadəçi hüquqlarının qorunması vahid qurumlar tərəfindən həyata keçirilir. Müasir dövrdə informasiya hücumları təkcə ayrı-ayrı media resursları vasitəsilə deyil, müxtəlif siyasi və maraq qruplarının, rəqəmsal platformaların və sosial şəbəkələrin əlaqələndirilmiş fəaliyyəti ilə həyata keçirilir.

Vurğulanıb ki, təklif olunan dəyişikliklər strateji kommunikasiya siyasətinin daha səmərəli əlaqələndirilməsinə, dezinformasiyaya qarşı mübarizənin gücləndirilməsinə, informasiya məkanının təhlükəsizliyinin təmin edilməsinə və yerli medianın inkişafına təkan verəcək.

Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin qanun layihəsi ilə bağlı müsbət rəyini komitənin sədri Əli Hüseynli diqqətə çatdırıb.

Məsələlərin müzakirəsində komitə sədrləri Siyavuş Novruzov və Hicran Hüseynova, deputatlar Razi Nurullayev, Sevil Mikayılova, Sahib Alıyev, Elçin Mirzəbəyli, Vüqar Rəhimzadə, Azər Allahverənov, Rəşad Mahmudov və Bəhruz Məhərrəmov çıxış edərək, qanun layihəsinin mütərəqqi xarakter daşıdığını, təklif olunan dəyişikliklərin mühüm əhəmiyyət kəsb etdiyini bildiriblər.

Sonra qanun layihələri ayrı-ayrı səsə qoyularaq birinci oxunuşda qəbul olunub.

Ticarət Gəmiçiliyi Məcəlləsində, "Yol hərəkəti haqqında", "Nəqliyyat haqqında", "Dövlət rüsumu haqqında", "Mülki dövriyyənin müəyyən iştirakçılarına mənsub ola bilən və dövriyyədə olmasına xüsusi icazə əsasında yol verilən (mülki dövriyyəsi məhdudlaşdırılmış) əşyaların siyahısı haqqında", "Avtomobil nəqliyyatı haqqında" və "Aviasiya haqqında" qanunlarda dəyişiklik edilməsi barədə qanun layihəsini (birinci oxunuş) müzakirəyə təqdim edən spiker Sahibə Qafarova bildirib ki, məsələ ilə bağlı rəqəmsal inkişaf və nəqliyyat nazirinin müavini Rəhman Hümmətov iclasda iştirak edir.

Qanun layihəsi barədə İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsi sədrinin müavini Azər Badamov məlumat verib. O bildirib ki, qanun layihəsi avtonom nəqliyyat vasitələrinin tətbiqi üçün normativ hüquqi, texnoloji və institusional bazanın yaradılmasının təmin edilməsi məqsədilə hazırlanıb.

Layihə üzrə məruzəçi rəqəmsal texnologiyaların tətbiqi fonunda nəqliyyat sektorunda müşahidə olunan inkişaf meyillərinə və bu sahədə meydana çıxan yeni çağırışlara diqqət çəkib. Bildirilib ki, bu qanun layihəsi də nəqliyyat sahəsində rəqəmsallaşma və innovativ texnologiyaların tətbiqinin genişləndirilməsi ilə bağlı qlobal inkişaf meyillərinə uyğun olaraq hazırlanıb.

Vurğulanıb ki, qanun layihəsində təklif olunan dəyişikliklər də rəqəmsallaşma və innovativ texnologiyaların tətbiqi fonunda avtonom nəqliyyatın inkişafı üçün hüquqi əsasların yaradılmasına, nəqliyyat sisteminin təhlükəsizliyinin artırılmasına, iqtisadi səmərəliliyinin yüksəldilməsinə, xidmət keyfiyyətinin yaxşılaşdırılmasını, bu sahədə dövlət tənzimlənməsinin təkmilləşdirilməsini nəzərdə tutur.

Məruzəçi sənəddə təsbit olunan yeni anlayışları diqqətə çatdırıb, məsafədən idarəetmənin tətbiqi ilə bağlı tənzimləmələr, habelə istismar zamanı avtomatlaşdırılmış idarəetmə sisteminin fəaliyyətinə nəzarət, nəqliyyat vasitəsinin istismarı ilə bağlı məlumatların saxlanması, istismar zamanı yaranan hallara operativ müdaxilə mexanizmləri və digər məsələlərlə bağlı təsbit olunan qaydalar barədə məlumat verib.

Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin sədri Əli Hüseynli qanun layihəsi ilə bağlı komitəsinin müsbət rəyini diqqətə çatdırıb.

Müzakirədə deputatlar Göydəniz Qəhrəmanov, Hikmət Məmmədov və Erkin Qədirlinin fikirləri dinlənildikdən sonra layihə səsə qoyularaq birinci oxunuşda qəbul olunub.

Sonra İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin sədr müavini Azər Badamov "Yol hərəkəti haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2025-ci il 9 dekabr tarixli 307-VIIQD nömrəli Qanununun icrası ilə əlaqədar Azərbaycan Respublikasının bəzi qanunlarında dəyişiklik edilməsi haqqında qanun layihəsini (birinci oxunuş) təqdim edib.

Bildirilib ki, "Yol hərəkəti haqqında" qanunda dəyişiklik edilməsi barədə" 2025-ci il 9 dekabr tarixli qanuna əsasən yol hərəkəti iştirakçılarının təhlükəsizliyinin təmin olunması, mopedlərin iştirakı ilə baş verə biləcək yol-nəqliyyat hadisələrinin qarşısının alınması və bu sahədə hüquqi tənzimləmə mexanizminin yaradılması məqsədilə mopedlərin dövlət qeydiyyatından keçirilərək uçota alınması, onlara dövlət qeydiyyat nişanının verilməsi, habelə mopedlərin sürücülük vəsiqəsi əsasında idarə olunması müəyyən edilib. Beləliklə, mopedi idarə etmək üçün "A1" kateqoriyalı sürücülük vəsiqəsi, nəqliyyat vasitəsinin qeydiyyat şəhadətnaməsi və dövlət qeydiyyat nişanı tələb olunur.

Qeyd edilib ki, təqdim olunan qanun layihəsində "Avtomobil yolları haqqında", "Dövlət rüsumu haqqında", "İcbari sığortalar haqqında" qanunlarda uyğunlaşdırma xarakterli dəyişikliklərin edilməsi təklif olunur. Layihədə mopedlərin texniki baxışdan keçirilməsinə, dövlət qeydiyyatına alınmasına, sürücülük vəsiqəsinin verilməsi üçün imtahanların qəbuluna, sürücülük vəsiqəsinin verilməsi və ya sürücülük vəsiqəsinin dəyişdirilməsinə və dövlət qeydiyyat nişanlarının verilməsinə görə dövlət rüsumunun dərəcələrinin qüvvədə olan dövlət rüsumları məbləğində tənzimlənməsi, eləcə də qeydiyyatdan keçmiş mopedlərin istifadəsi ilə bağlı üçüncü şəxslər qarşısında mülki məsuliyyətin icbari sığortası nəzərdə tutulur.

Sənədlə bağlı müzakirələrdə deputatlar Razi Nurullayev, Elçin Mirzəbəyli, Məlahət İbrahimqızı çıxış edərək öz fikirlərini açıqlayıblar.

Qanun layihəsi birinci oxunuşda qəbul edilib.

Parlamentin Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin sədri Əli Hüseynli "Azərbaycan Respublikası Milli Məclisi Daxili Nizamnaməsinin təsdiq edilməsi haqqında", "İctimai iştirakçılıq haqqında" və "Azərbaycan Respublikası vətəndaşlarının qanunvericilik təşəbbüsü hüququndan istifadə etməsi qaydası haqqında" Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə qanun layihəsinə dair (birinci oxunuş) məlumat verib.

O, qanun layihəsinin Elektron Hökumət İnformasiya Sisteminin tətbiqinin genişləndirilməsi ilə bağlı olduğunu bildirib. Son dövrlər parlamentdə qanunların ictimai müzakirəsinin keçirilməsinin geniş vüsət aldığını və bunun qanunun tələbi, eyni zamanda vətəndaş məmnunluğunun təmin edilməsi baxımından mühüm əhəmiyyət kəsb etdiyini vurğulayıb.

Komitə sədri diqqətə çatdırıb ki, layihəyə əsasən, "Azərbaycan Respublikası Milli Məclisinin Daxili Nizamnaməsi"nə və "İctimai iştirakçılıq haqqında" Qanuna təklif edilən dəyişikliklər ictimai dinləmə və müzakirənin təşkili prosesinin Elektron Hökumət İnformasiya Sistemi üzərindən də həyata keçirilməsinin qanunvericilik əsaslarının yaradılmasını özündə ehtiva edir. O qeyd edib ki, "Azərbaycan Respublikası vətəndaşlarının qanunvericilik təşəbbüsü hüququndan istifadə etməsi qaydası haqqında" qanuna təklif edilən dəyişikliklər də eyni qəbildən olan dəyişikliklərdir və qanunvericilik təşəbbüsü hüququndan istifadənin elektron qaydada təşkili zamanı yaranan prosedurların Elektron Hökumət İnformasiya Sistemi vasitəsilə də həyata keçirilməsinin hüquqi əsaslarını müəyyən edir.

Deputatlar Erkin Qədirli və Hikmət Məmmədov məsələ barədə öz fikirlərini bildirdikdən sonra, qanun layihəsi səsə qoyularaq birinci oxunuşda qəbul edilib.

İclasda Elm və təhsil komitəsinin sədri Anar İsgəndərov "Ümumi təhsil haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə qanun layihəsini (birinci oxunuş) diqqətə çatdırıb.

O qeyd edib ki, sənəddə dövlət təhsil siyasətinin həyata keçirilməsində bir sıra məsələlərin tənzimlənməsi nəzərdə tutulur. Bildirilib ki, qanun layihəsinə görə, dövlət ümumi təhsil müəssisələrində təhsilverənlərin işgüzar geyim üslubu ilə bağlı tələblərin müəyyən edilməsi təsbit olunur. Həmin tələblərin müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi qurum tərəfindən müəyyənləşdirilməsi nəzərdə tutulur. Həmçinin təklif olunan dəyişikliklərə əsasən, təhsilalanların müəyyən edilmiş geyim qaydalarına riayət etməsinin təmin olunması ilə bağlı valideynlərin və digər qanuni nümayəndələrin vəzifələri dəqiqləşdirilir.

Qanun layihəsi birinci oxunuşda qəbul edilib.

Parlamentin spikeri gündəliyin son 4 məsələsinin ikinci oxunuşda qanun layihələri olduğunu bildirib.

Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin üzvü Bəhruz Məhərrəmov Azərbaycan Respublikasının Cinayət-Prosessual Məcəlləsində, Cəzaların İcrası Məcəlləsində və "İcra haqqında" Qanunda dəyişiklik edilməsi barədə qanun layihəsindən (ikinci oxunuş) bəhs edib. Deputat nəzərə çatdırıb ki, qanun layihəsində təklif edilən dəyişikliklərdə təqsirləndirilən şəxs olmayan, lakin əmlak üzərinə həbs qoyulması barədə cinayət prosesini həyata keçirən orqanın qərarı ilə qanuni mənafeyinə toxunulan şəxslərlə bağlı prosessual qaydaların təkmilləşdirilməsi nəzərdə tutulur.

O, layihə barədə birinci oxunuş zamanı geniş məlumat verildiyini, səsləndirilən təkliflərlə bağlı işçi qaydada müzakirələrin aparıldığını qeyd edib və məsələyə dair heç bir əlavə təklifin olmadığını nəzərə alaraq, sənədin səsə qoyulmasını xahiş edib.

Qanun layihəsi ikinci oxunuşda qəbul edilib.

Daha sonra Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin üzvü Bəhruz Məhərrəmov Azərbaycan Respublikasının Cinayət-Prosessual Məcəlləsində dəyişiklik edilməsi haqqında qanun layihəsini (ikinci oxunuş) təqdim edib.

O bildirib ki, qanun layihəsində məhkəməyədək sadələşdirilmiş icraatla bağlı bəzi prosessual müddətlərin artırılması, Məcəllənin bir sıra maddələrində "şikayət" sözünün "məlumat" sözü ilə əvəz edilməsi, habelə aidiyyəti prosessual sənədlərdə hüquqi şəxsə dair müvafiq məlumatların göstərilməsi ilə bağlı dəyişikliklər nəzərdə tutulur.

Millət vəkili ikinci oxunuş üçün sənədə dair heç bir təklifin daxil olmadığını söyləyərək, onun səsə qoyulmasını xahiş edib.

Qanun layihəsi ikinci oxunuşda qəbul edilib.

İclasda İnsan hüquqları komitəsinin sədri Zahid Oruc Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində, "İnformasiya, informasiyalaşdırma və informasiyanın mühafizəsi haqqında" və "Uşaqların zərərli informasiyadan qorunması haqqında" qanunlarda dəyişiklik edilməsi barədə qanun layihəsini (ikinci oxunuş) təqdim edib.

Komitə sədri məsələ ilə bağlı parlamentdə aparılan müzakirələrin uşaqların rəqəmsal təhlükəsizliyi sahəsində vahid və prinsipial mövqe nümayiş etdirdiyini bildirib. O, uşaqlar üçün keyfiyyətli milli filmlərin, elmi-populyar proqramların, elektron kitabxanaların və təhlükəsiz Azərbaycan dilli rəqəmsal platformaların yaradılmasının vacib olduğunu qeyd edib.

Təqdim olunan qanun layihəsində rəqəmsal mühitdə uşaqların hüquq və mənafelərinin daha effektiv qorunması, sosial şəbəkə platformalarından təhlükəsiz istifadənin təmin olunması, habelə platformaların fəaliyyətinin hüquqi tənzimlənməsinin təkmilləşdirilməsi məqsədilə bir sıra dəyişikliklər nəzərdə tutulur.

Sonra Ailə, qadın və uşaq məsələləri komitəsinin sədri Hicran Hüseynova və Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin sədri Əli Hüseynli təqdim olunan qanun layihəsinə dair bu komitələrin müsbət rəylərini diqqətə çatdırıblar.

Bildirilib ki, qanun layihəsinin birinci oxunuşda qəbulundan sonra fəal müzakirələr aparılıb, müvafiq dövlət qurumları və vətəndaş cəmiyyəti institutları tərəfindən müxtəlif maarifləndirici tədbirlər keçirilib, mediada məqalələr dərc edilib. Qeyd olunub ki, bütün bunlar cəmiyyətin sözügedən hüquqi tənzimləməni dəstəklədiyini göstərir.

Qanun layihəsi ikinci oxunuşda qəbul olunub.

Parlamentin Əmək və sosial siyasət komitəsinin sədri Musa Quliyev Mənzil Məcəlləsində, "Qaçqınların və məcburi köçkünlərin (ölkə daxilində köçürülmüş şəxslərin) statusu haqqında" və "Məcburi köçkünlərin və onlara bərabər tutulan şəxslərin sosial müdafiəsi haqqında" qanunlarda dəyişiklik edilməsi barədə qanun layihəsi (ikinci oxunuş) ilə bağlı məlumat verib. O, qanun layihəsinin birinci oxunuşu zamanı təklif olunan dəyişikliklərin mahiyyəti barədə ətraflı məlumat verildiyini və layihənin konseptual olaraq dəstəkləndiyini qeyd edib.

Komitə sədri diqqətə çatdırıb ki, müzakirəyə təqdim olunan qanun layihəsi keçmiş məcburi köçkünlərin doğma yurdlarında dayanıqlı məskunlaşmasının hüquqi əsaslarının təkmilləşdirilməsini, işğaldan azad edilmiş ərazilərə köçürülən şəxslərin statusunun və onlara göstərilən sosial dəstək mexanizmlərinin tənzimlənməsini nəzərdə tutur.

Qeyd olunub ki, dəyişikliklər nəticəsində yeni institut - "İşğaldan Azad Edilmiş Ərazilərdə Daimi Məskunlaşma Fondu" yaradılacaq. Bu fonda daxil edilən yaşayış sahələri keçmiş məcburi köçkünlərin həmin ərazilərə köçürülməsi və sonradan onların mülkiyyətinə verilməsi məqsədilə istifadə olunacaq.

Sonra İnsan hüquqları komitəsinin sədri Zahid Oruc və Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin sədri Əli Hüseynli çıxış edərək, qanun layihəsinə dair təmsil etdikləri komitələr tərəfindən müsbət rəylərin verildiyini diqqətə çatdırıblar.

Qanun layihəsi ikinci oxunuşda qəbul edilib.

***"Azərbaycan"***

Kənd təsərrüfatının inkişafına dair yeni dövlət proqramı həyata keçirilir

# Regional müşavirə



**Bu gün Azərbaycan Respublikası Prezidentinin 2026-cı il 25 may tarixli sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasında kənd təsərrüfatı, balıqçılıq və akvakultura məhsullarının istehsalı və emal sahələrinin inkişafına dair 2026-2030-cu illər üçün Dövlət Proqramı"nın icrasının təmin olunması məqsədilə Qazax-Tovuz iqtisadi rayonu üzrə regional müşavirə keçirilib.**

AZƏRTAC xəbər verir ki, Şəmkirdə təşkil olunan tədbir Prezident İlham Əliyevin 25 may 2026-cı il tarixində kənd təsərrüfatı məsələlərinə həsr olunmuş müşavirədə verdiyi tapşırıqların icrası, həmçinin dövlət proqramında müəyyən edilmiş hədəflərin regionlar üzrə əlaqələndirilmiş şəkildə həyata keçirilməsi məqsədini daşıyıb.

Müşavirədə çıxış edən Azərbaycan Respublikası Prezidentinin köməkçisi - Azərbaycan Respublikası Prezidentinin Administrasiyasının İqtisadi siyasət və sənaye məsələləri şöbəsinin müdiri Natiq Əmirov yeni dövlət proqramının əsas məqsəd və hədəfləri barədə iştirakçılara məlumat verib.

Bildirib ki, Prezident İlham Əliyevin rəhbərliyi ilə son illər həyata keçirilən sistemli aqrar islahatlar sektorunun inkişafında mühüm nəticələrə səbəb olub. Qeyd olunub ki, mayın 25-də keçirilmiş müşavirədə verilən tapşırıqlar aqrar siyasətin yeni inkişaf mərhələsini müəyyənləşdirib.

Onun sözlərinə görə, qəbul edilmiş dövlət proqramı məhsuldarlığın artırılması, intensiv və rəqabətqabiliyyətli istehsal modelinə keçidin sürətləndirilməsi, emal və ixrac imkanlarının genişləndirilməsi, balıqçılıq və akvakultura sahələrinin inkişaf etdirilməsi, eləcə də ölkənin ərzaq təhlükəsizliyinin gücləndirilməsi məqsədlərinə xidmət edir.

Kənd təsərrüfatı nazirinin müavini İlhamə Qədimova təqdimatla çıxış edərək bildirib ki, dövlət proqramı 5 məqsəd, 5 prioritet istiqamət, 16 fəaliyyət istiqaməti və 86 tədbiri əhatə edir və nəticəyönümlü indikatorlar əsasında formalaşdırılıb.

Onun sözlərinə görə, intensiv bağ sahələrinin genişləndirilməsi, buğda məhsuldarlığının artırılması, müasir suvarma sistemlərinin tətbiqinin genişləndirilməsi, aqropark və istixana fəaliyyətinin inkişafı, kiçik şərabçılıq təsərrüfatlarının formalaşdırılması və intensiv heyvandarlığın təşviqi əsas prioritetlər sırasındadır: "22 hədəf rayonda taxılçılığın inkişafı və orta məhsuldarlığın 50 sentnerə çatdırılması nəzərdə tutulur. Eyni zamanda pivot, damcı və sprinkler suvarma sistemlərinin tətbiqinin genişləndirilməsi hesabına su ehtiyatlarından daha səmərəli istifadəyə nail olunması planlaşdırılır".

Azərbaycan Dövlət Su Ehtiyatları Agentliyi sədrinin müavini İlham Bayramov çıxışında qeyd edib ki, Qazax-Tovuz iqtisadi rayonunda aqrar sahənin dayanıqlı inkişafı üçün etibarlı su təminatı və su resurslarının səmərəli idarə olunması əsas şərtlərdəndir.

Bildirib ki, son 20 ildə bu istiqamətdə geniş infrastruktur layihələri icra olunub. Ümumi sututumu 557 milyon kubmetr olan Taxtakörpü, Heydər Əliyev, Şəmkirçay, Tovuzçay və Göytəpə su anbarları istifadəyə verilib, minlərlə kilometr suvarma və drenaj şəbəkəsi tikilərək və ya bərpa edilərək istifadəyə təqdim olunub. Həmçinin minlərlə subartezian quyusu qazılıb.

Şəmkir Rayon İcra Hakimiyyətinin başçısı Rəşad Tağıyev rayonun aqrar potensialı və son illərdə əldə olunmuş nəticələr barədə məlumat verib.

Qeyd edib ki, rayonun əlverişli təbii-iqlim şəraiti, münbit torpaq ehtiyatları və su təminatı kənd təsərrüfatının inkişafı üçün əlverişli imkanlar yaradır. Bitkiçilik, kartofçuluq, meyvəçilik, üzümçülük və istixana təsərrüfatlarında yüksək göstəricilər əldə olunub. Eyni zamanda istixana komplekslərinin genişlənməsi regionda məşğulluğun artırılmasına mühüm töhfə verir.

Müşavirədə Ağstafa, Qazax, Tovuz və Şəmkir rayonlarından olan fermerlər və sahibkarlar da çıxış edərək istehsal imkanları, mövcud çağırışlar və inkişaf perspektivləri barədə fikirlərini bölüşüblər. Onlar aqrar sahəyə göstərilən dövlət dəstəyini yüksək qiymətləndirərək, yeni dövlət proqramında nəzərdə tutulan mexanizmlərin məhsuldarlığın və istehsal həcmlərinin artırılmasına mühüm təsir göstərəcəyini bildiriblər.

Tədbirin yekununda Natiq Əmirov vurğulayıb ki, aqrar sahədə məhsuldarlığın artırılması, suvarma və enerji təminatının gücləndirilməsi, müasir texnologiyaların tətbiqi və aqrotexniki tədbirlərin vaxtında icrası yalnız bütün aidiyyəti qurumların koordinasiyalı fəaliyyəti nəticəsində mümkün olacaq.

Sonda qeyd olunub ki, müşavirədə səsləndirilən rəy və təkliflər ümumiləşdirilərək aidiyyəti dövlət qurumlarına təqdim ediləcək və dövlət proqramının icrası prosesində nəzərə alınacaq.

# Strateji sahəyə xüsusi diqqət

**Müasir dünyanın qlobal problemlərindən biri də ərzaq təhlükəsizliyidir. Rusiya-Ukrayna müharibəsi göstərdi ki, təchizat zəncirində baş verən ani qırılma milyonlarla insanın bu problemlə üz-üzə qalmasına səbəb ola bilər. Odur ki, hər bir dövlət çalışır ki, ərzaq sarıdan idxaldan asılı olmasın. Bunun qarşısının alınmasının yeganə yolu isə daxili istehsalı artırmaqdır.**

Ölkəmizdə aqrar sektorun inkişafı həm də ona görə vacibdir ki, əhalinin əhəmiyyətli bir hissəsi regionlarda yaşayır. Deməli, aqrar sektorun inkişafı ərzaq təhlükəsizliyi ilə yanaşı, həm də ciddi sosial məsələdir. Yəni ölkə əhalisinin əhəmiyyətli bir hissəsinin dolanışığı bu sahə ilə bağlıdır.

İllər öncə ölkəmizdə kənd təsərrüfatının inkişafı və ərzaq təhlükəsizliyinin təmin edilməsi üçün ciddi aqrar islahatlara start verilmişdir. Bu sahədə müəyyən uğurlar qazanılmış, o cümlədən bir çox məhsulların istehsalı artmış, daxili tələbat ödənilməklə yanaşı, aqrar sektorun ixrac potensialı artmışdır. Məsələn, bu gün daxili bazar tərəvəz, bostan məhsulları, meyvə və giləmeyvə ilə yerli istehsal hesabına 107 faiz təmin olunur, üstəlik, 214 min ton xarici bazara məhsul çıxarılır. Bununla yanaşı, qoz-fındıq, yumurta istehsalında da idxaldan heç bir asılılığımız yoxdur.

Ancaq əsas ərzaq məhsulu olan buğda istehsalında vəziyyət fərqlidir. Bu sahədə yerli istehsal daxili bazarın ümumi tələbatının 55 faizini ödəyə bilir. Yerli istehsal 1 milyon 573 min ton, idxal isə 1 milyon 267 min tondur. Əbəs deyil ki, Prezident İlham Əliyev kənd təsərrüfatı məsələlərinə həsr olunmuş müşavirədə bu sahədə istehsalın artırılmasının vacibliyini xüsusi olaraq vurğulamışdır.

Yeri gəlmişkən onu da qeyd edək ki, Prezident İlham Əliyev aqrar sektorda inkişafın dinamikasını təmin etmək məqsədilə "Azərbaycan Respublikasında kənd təsərrüfatı, balıqçılıq və akvakultura məhsullarının istehsalı və emalı sahələrinin inkişafına dair 2026-2030-cu illər üçün Dövlət Proqramı"nı təsdiq etmişdir. İndi müvafiq dövlət qurumları prezident tərəfindən qarşıya qoyulan hədəflərə çatmaq və adıçəkilən proqramda irəli sürülən vəzifələri icra etmək üçün müvafiq tədbirlər görürlər.

Kənd təsərrüfatı naziri Məcnun Məmmədov kütləvi informasiya vasitələrinə verdiyi müsahibədə bu istiqamətdə görülən işlər və qarşıda duran vəzifələr barədə ətraflı məlumat vermişdir. Bildirmişdir ki, ötən il kənd təsərrüfatı üçün özünəməxsus - həm iqlim təsirləri, həm də məhsul istehsalı və məhsuldarlıq baxımından fərqli dövr oldu. Bir sıra məhsullar üzrə məhsuldarlıqda rekord həcmlər, bəzi məhsullar üzrə isə azalma qeydə alındı. Ümumilikdə kənd təsərrüfatı istehsalı ümumdaxili məhsulun 5,9 faizini təşkil etdi. Qeyri-neft ümumdaxili məhsulunda isə 8,3 faiz paya malik oldu. Məhsul istehsalının dəyəri 14,2 milyard manata çatdı. Həmin vəsait isə bitkiçilik və heyvandarlıq arasında ikinci sahənin azacıq üstünlüyü ilə təxminən yarıbayarı idi. Ümumi istehsalda artım 1 faizə yaxın, o cümlədən heyvandarlıqda 0,3, bitkiçilikdə 1,5 faiz oldu. Nazirin sözlərinə görə, son illər aqrar sektorda artımın olmasına baxmayaraq, dinamika aşağı doğru gedirdi və bu, özlüyündə ekstensiv artımın artıq öz resursunun limitlərinə çatdığını göstərirdi.

Lakin ötən il ixrac baxımından aqrar sektor üçün uğurlu oldu. Rekord həcmdə - 1,5 milyard dollarlıq məhsul ixracı həyata keçirildi. Bunun 1,1 milyard dollarlığı kənd təsərrüfatı məhsullarının, 0,4 milyardlığı isə aqrar məhsullardan emal olunmuş yekun məhsulların payına düşür. İxracatda başqa bir müsbət dinamika isə odur ki, ölkəmiz həm ixrac coğrafiyasını, həm də ixrac məhsullarının çeşidini genişləndirməyə nail olmuşdur. Ancaq nazirin sözlərinə görə, hələ də görüləcək işlər çoxdur.

Məlum olduğu kimi, ən məhsuldar torpaqlarımız və əhəmiyyətli dərəcədə su ehtiyatlarımız illərlə düşmən işğalı altında olub. İndi bu torpaqlardan istifadə etmək imkanı yaranıb. Məcnun Məmmədov bu istiqamətdə görülən işlər barədə demişdir: "Sonrakı müddəti isə ikinci mərhələ olaraq qeyd etmək istəyirəm. Belə ki, kəndlərdə yaşayan, geriyə qayıdan əhaliyə 2025-ci ildən etibarən torpaqların təhkim olunması prosesinə başlanıldı. Biz artıq 14 kənddə prosesə başlamışıq. Həmin kəndlərdən doqquzunda işlər başa çatdırılıb və fermerlərlə, əhali ilə müvafiq müqavilələr bağlanılıb. Nümunə kimi bildirim ki, ilk pilot layihəmiz Zəngilanın Ağalı kəndində oldu. Zəngilanın Məmmədbəyli, Xocalının Xanyurdu və Ballıca, Laçının Zabux kəndlərində həyata keçirilib. Xocavəndin Qırmızı Bazar qəsəbəsində hazırda həyata keçirilir. Digər kəndlərdə də əhali köçdükcə kəndətrafı torpaqların parselləndirilərək əkinə hazır vəziyyətə gətirilməsi və fermerlərə təhkim olunması nəzərdə tutulur".

Dövlətimizin başçısının kənd təsərrüfatı məsələlərinə həsr olunmuş müşavirədə qaldırdığı məsələlər göstərdi ki, bu sahədə ciddi dönüş yaradılmalıdır. Əldə olunan müəyyən uğurlara görə arxayınlaşmaq olmaz. Əsas məsələ bu sahədə olan nöqsanları, problemləri aradan qaldırmaqla, daha çox məhsul istehsalına nail olmaqdır.

*Rüstəm KAMAL,*
*"Azərbaycan"*

# "Balanslı xarici siyasət tərəfdaş ölkələrin Azərbaycana olan etimadını daha da artırıb"

**Bu gün Azərbaycan yalnız iqtisadi və siyasi potensialı ilə deyil, həm də qlobal təşəbbüslərə verdiyi töhfə, etibarlı tərəfdaş və beynəlxalq tədbirlərin uğurlu təşkilatçısı kimi tanınır. Ölkəmiz bu istiqamətdə əldə etdiyi mühüm nailiyyətləri ilə seçilir. Mötəbər beynəlxalq tədbirlərin mərkəzinə çevrilən Azərbaycanda keçirilən konfranslar, forumlar bunu təsdiq edir.**

2024-cü ildə Bakının BMT-nin ən böyük tədbiri olan İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransına (COP29) qapılarını açması, bu il 57 mindən çox iştirakçının qatıldığı Ümumdünya Şəhərsalma Forumuna (WUF13) uğurlu evsahibliyi ölkəmizin təşkilatçılıq imkanlarının və qlobal etimadının göstəricisidir. Azərbaycanın bir neçə il əvvəl BMT Təhlükəsizlik Şurasına qeyri-daimi üzv seçilməsi və Qoşulmama Hərəkatına sədrliyi dövründə geniş beynəlxalq dəstək qazanması da qlobal miqyasda etibarlı və məsuliyyətli tərəfdaş kimi qəbul edildiyini təsdiqləyir. Təbii ki, bütün bunların əsasında Prezident İlham Əliyevin yürütdüyü siyasət dayanır.

İyunun 18-də Bakıda keçirilən İslam İnkişaf Bankı Qrupunun 2026-cı il üzrə İllik Toplantılarının açılış mərasimində çıxış edən Prezident İlham Əliyev qrupun sədrinə və bütün heyətə Azərbaycanı bu tədbirə ev sahibi kimi seçdiklərinə görə minnətdarlığını bildirib. Dövlət başçısı qeyd edib ki, bu bizim üçün böyük şərəfdir və aramızda güclü əlaqələrin olmasını bir daha göstərir: "...Bildiyiniz kimi, Azərbaycan ikinci dəfədir ki, İllik Toplantıya evsahibliyi edir və bu, həmçinin sıx əlaqələrimizi, əməkdaşlıq səviyyəsini və birgə fəaliyyətin miqyasını aydın şəkildə göstərir. 2010-cu ili çox yaxşı xatırlayıram. O vaxt biz ilk dəfə toplantıya evsahibliyi edən ölkə idik. Həmin İllik Toplantı Qrup ilə tərəfdaşlığımıza, eləcə də iqtisadiyyatı şaxələndirmək üçün Azərbaycanın həyata keçirdiyi islahatlara, enerji sektorundan asılılığı azaltmağa güclü təkan verdi. O vaxtdan etibarən Azərbaycanda və ətrafda çox dəyişikliklər baş verdi. Dəyişməyən yeganə məsələ Azərbaycanın sabit və uğurlu inkişafı oldu".



**Milli Məclisin deputatı Müşfiq MƏMMƏDLİ** qəzetimizə açıqlamasında deyib ki, Azərbaycanın ikinci dəfə İslam İnkişaf Bankı Qrupunun İllik Toplantılarına evsahibliyi etməsi ölkəmizin beynəlxalq nüfuzunun, etibarlı tərəfdaş imicinin və qlobal əməkdaşlıq platforması kimi mövqeyinin növbəti təsdiqidir: "Son illər Azərbaycan yalnız regional deyil, həm də beynəlxalq miqyasda mühüm siyasi, iqtisadi və humanitar tədbirlərin keçirildiyi etibarlı məkan kimi tanınıb. Dövlətimizin ardıcıl və balanslı xarici siyasəti, təhlükəsizlik və sabitlik mühiti beynəlxalq təşkilatların və tərəfdaş ölkələrin Azərbaycana olan etimadını daha da artırıb".

Deputat qeyd edib ki, İslam İnkişaf Bankı Qrupunun İllik Toplantılarının yenidən Bakıda keçirilməsi təsadüfi deyil və bu, Azərbaycanın islam dünyasındakı nüfuzunun artmasının, iqtisadi əməkdaşlığın inkişafına verdiyi töhfələrin və beynəlxalq maliyyə institutları ilə uğurlu tərəfdaşlığının göstəricisidir: "Eyni zamanda bu cür tədbirlər ölkəmizin investisiya potensialının, iqtisadi imkanlarının və inkişaf modelinin təqdimatı baxımından da mühüm əhəmiyyət daşıyır. Azərbaycanın mötəbər beynəlxalq forumlara və konfranslara uğurla evsahibliyi etməsi göstərir ki, ölkəmiz qlobal dialoq, əməkdaşlıq və tərəfdaşlıq üçün etibarlı platformaya çevrilib. Bu uğurlar Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən məqsədyönlü siyasətin nəticəsidir və Azərbaycanın beynəlxalq mövqeyinin daha da möhkəmlənməsinə xidmət edir".

*Əsmər QARDAŞXANOVA,*
*"Azərbaycan"*

# Avropa Məhkəməsinin qərarı ədalətsiz, qərəzli və beynəlxalq hüququn müddəalarına ziddir

**İnsan Hüquqları üzrə Avropa Məhkəməsinin "V.T. və digərləri Azərbaycana qarşı" iş üzrə 2026-cı il 18 iyun tarixli qərarı ilə bağlı İnsan hüquqları üzrə Avropa Məhkəməsi yanında Azərbaycan Respublikasının səlahiyyətli nümayəndəsi bəyanat yayıb.**



AZƏRTAC bəyanatı təqdim edir:

"Azərbaycan Respublikası İnsan Hüquqları üzrə Avropa Məhkəməsinin "V.T. və digərləri Azərbaycana qarşı" iş üzrə 2026-cı il 18 iyun tarixli qərarını ədalətsiz, qərəzli, beynəlxalq hüququn müddəalarına zidd olduğunu, Avropa Məhkəməsinin yenə də siyasi oyunlara çəkilməsinin təsdiq etdiyini vurğulayır.

Avropa Məhkəməsi öz qərarında üç şəxsin ifadəsinə əsaslanaraq, heç bir mötəbər sübut olmadan, işin hallarını hərtərəfli araşdırmadan, özünü "DQR" dövlət orqanları adlandıran cinayətkarların "hesabatlarına" istinad edərək, Azərbaycan Respublikası tərəfindən İnsan hüquqlarına dair Avropa konvensiyasının pozulduğunu müəyyən etmişdir.

Xüsusi narahatlıqla qeyd olunur ki, Azərbaycan tərəfinin uzun illər ərzində təqdim etdiyi çoxsaylı məktublara, qeydlərə və etirazlara baxmayaraq, Avropa Məhkəməsi yenidən Azərbaycan üçün qəbuledilməz olan, onun beynəlxalq səviyyədə tanınmış suverenliyi və ərazi bütövlüyü ilə ziddiyyət təşkil edən terminologiyadan istifadə etmişdir.

"Azərbaycanla "DQR" arasında təmas xətti", eləcə də qondarma "DQR" ordusu, hakimiyyət orqanları, baş prokuroru və ombudsmanı kimi ifadələr heç bir dövlət və beynəlxalq təşkilat tərəfindən tanınmamış qanunsuz qurulmuş separatçı qurumla Azərbaycan Respublikası arasında hüquqi və ya faktiki bərabərlik təsəvvürü yaradır.

Bununla əlaqədar bildirilməlidir ki, "Çıraqov və digərləri Ermənistana qarşı" iş üzrə 2016-cı il 16 iyun tarixli qərarında Avropa Məhkəməsinin Azərbaycan ərazisinin bir hissəsinin Ermənistan Respublikası tərəfindən faktiki işğal olunmasını etiraf etməsinə baxmayaraq, hazırkı qərarda 2020-ci ilin noyabrına qədər işğal altında olmuş ərazilərin "DQR" adlandırılması məntiqlə uzlaşmır. Avropa Məhkəməsinin 2016-cı il tarixli qərarında birmənalı olaraq qeyd edilmişdir ki, Ermənistan Respublikasının silahlı qüvvələri Azərbaycan ərazisində yerləşdirilmiş, Ermənistanın dövlət büdcəsinin xeyli hissəsi həmin ərazilərə xərclənmiş, Azərbaycan ərazisində fəaliyyət göstərmiş işğalçı rejim Ermənistan Respublikasının birbaşa iştirakı və hərtərəfli dəstəyinə görə mövcud olmuşdur.

Avropa Məhkəməsinin dünənki qərarında Ermənistan Respublikasının ərazisində anadan olmuş, Ermənistan vətəndaşı olan hərbçinin hansı səbəblərdən Azərbaycan Respublikasının suveren ərazisində xidmət keçməsi məsələsi, ümumiyyətlə, araşdırılmamışdır. Bu məsələ araşdırılsa idi, Avropa Məhkəməsi beynəlxalq humanitar hüququn müvafiq müddəalarını tətbiq etməli olardı. Lakin bu məsələyə "diqqət yetirilməməsi" Avropa Məhkəməsinin istədiyi nəticəyə gəlməsinə xidmət etmişdir.

Həmçinin sual yaranır ki, nəyə görə qərarda hadisələrin "DQR" ərazisində baş verməsinə, "DQR dövlət orqanları" tərəfindən araşdırmanın aparılmasına, habelə hadisə barədə məlumatın "DQR ombudsmanının" hesabatında göstərilməsinə istinad edildiyi təqdirdə, iş üzrə sübut kimi, istintaq materialları ərizəçilər tərəfindən deyil, Ermənistan Respublikası tərəfindən Avropa Məhkəməsinə təqdim edilmişdir? Aydındır ki, Avropa Məhkəməsi bu məsələlərə aydınlıq gətirsə idi, qərardakı nəticəyə gəlinməsi xeyli çətinləşərdi.

Hesab edirəm ki, "DQR"in müstəqil qurum kimi göstərilməsi, "DQR" ilə Azərbaycan Respublikası arasında təmas xəttinə istinad edilməsi nəinki Avropa Məhkəməsinin presedent hüququnun təhrif edilməsi, hətta Azərbaycan Respublikasının dövlət suverenliyinə hörmətsizlik göstərilməsi kimi qiymətləndirilməlidir.

Qərar faktların açıq-aşkar birtərəfli təqdimatı ilə də səciyyələnir. Məhkəmə mahiyyət etibarilə ərizəçilərin irəli sürdüyü və Ermənistan hökumətinin dəstəklədiyi hadisələr versiyasını qəbul etmiş, lakin müvafiq dövrdə Azərbaycanın faktiki nəzarəti altında olmayan ərazilərdə baş verdiyi iddia edilən hadisələrlə bağlı irəli sürülən iddiaların yoxlanılmasında Azərbaycanın üzləşdiyi obyektiv çətinlikləri nəzərə almamış və ya əhəmiyyətli hesab etməmişdir. Ermənistan tərəfinə və qondarma "DQR" strukturlarına aid materiallar etibarlı sübut kimi qəbul edilmiş, Azərbaycanın mövqeyi isə ədalətli hüquqi qiymətləndirmə əsasında deyil, əksinə, birtərəfli mövqe sərgiləmə yolu ilə qiymətləndirilmişdir. Başqa sözlə, qərar yalnız Ermənistan tərəfinin təqdim etdiyi narrativi dəstəkləyən ehtimallar üzərində qurulmuşdur.

Kompensasiya ilə bağlı qərar da qətiyyən qəbuledilməzdir. Məhkəmə kompensasiyanı zərərçəkmişlərə birgə şəkildə deyil, eyni ailənin hər üzvünə ayrıca təyin etməklə oxşar işlərdə formalaşmış əvvəlki məhkəmə təcrübəsindən kənara çıxmışdır. Bu isə qərarın məhkəmənin öz presedent hüququnun ardıcıl və prinsipial tətbiqi əsasında deyil, emosional və birtərəfli yanaşma əsasında qəbul edildiyi təəssüratını yaradır.

Xüsusilə vurğulanmalıdır ki, Avropa Məhkəməsinin Azərbaycan Respublikasının dövlət suverenliyinə və qanuni maraqlarına hörmətsizlik göstərilməsinə İnsan hüquqları üzrə Avropa Məhkəməsi yanında Azərbaycan Respublikasının səlahiyyətli nümayəndəsi tərəfindən dəfələrlə etirazlar bildirilmiş, lakin Avropa Məhkəməsinin bu təcrübəsi davam etdirilməkdədir.

Avropa Məhkəməsinin bu cür qərarları belə təəssürat yaradır ki, Avropa Məhkəməsi AŞPA-nın çirkin oyunlarına qoşularaq, Azərbaycan Respublikası tərəfindən öz ərazilərinin erməni işğalından azad edilməsi ilə barışa bilmir və hər vəchlə Azərbaycan dövlətindən və xalqından qisasını almağa çalışır.

Bu cür təcrübə beynəlxalq məhkəmənin şəffaflığı, qərəzsizliyi, ədalətliliyi və mötəbərliyi ilə bağlı ciddi şübhələr doğurur və bununla bağlı müvafiq addımlar atılacaqdır.

Azərbaycan Respublikasının İnsan Hüquqları üzrə Avropa Məhkəməsi yanında səlahiyyətli nümayəndəsi Çingiz Əsgərov Avropa Məhkəməsinin "V.T. və digərləri Azərbaycana qarşı" iş üzrə qərarında əks olunmuş nəticələri qəti şəkildə rədd edir və bu qüsurlu qərara cavab olaraq bütün mümkün hüquqi və prosessual vasitələrin nəzərdən keçiriləcəyini bildirir".

# DİN-də xidmətə qəbul üçün növbəti sıra baxışı keçirilib





**Daxili işlər naziri general-polkovnik Vilayət Eyvazov respublikanın şəhər, rayon polis orqanları və daxili qoşunlarda xidmət etmək arzusunda olan gənclərin növbəti sıra baxışını keçirib.**

Bakıda keçirilən sıra baxışında Daxili İşlər Nazirliyinə onlayn qaydada müraciət etmiş gənclərdən daha hazırlıqlı olan 158 nəfər seçim turunun növbəti mərhələsinə buraxılıb.

Gənclər qarşısında çıxış edən nazir V.Eyvazov seçim turunun digər mərhələlərindən də uğurla keçərək daxili işlər orqanlarında xidmətə qəbul ediləcək gənclərə gələcək fəaliyyətlərində uğurlar arzulayıb, tapşırıq və tövsiyələrini verib.

*"Azərbaycan"*

# Xarici işlər naziri Ceyhun Bayramov bir sıra görüşlər keçirib

İyunun 19-da xarici işlər naziri Ceyhun Bayramov Almaniyanın Azərbaycandakı səfiri Ralf Horlemannla ölkəmizdə diplomatik fəaliyyətinin başa çatması ilə əlaqədar görüşüb.

Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsindən AZƏRTAC-a verilən məlumata görə, görüş zamanı Azərbaycan ilə Almaniya arasında mövcud ikitərəfli münasibətlərin vəziyyəti və inkişaf perspektivləri ətrafında fikir mübadiləsi aparılıb. Siyasi dialoqun, iqtisadi-ticarət əlaqələrinin, enerji təhlükəsizliyi, "yaşıl enerji", nəqliyyat-kommunikasiya, təhsil, səhiyyə və mədəni-humanitar sahələrdə əməkdaşlığın inkişafının əhəmiyyəti vurğulanıb.

Tərəflər Azərbaycan ilə Almaniya arasında yüksəksəviyyəli qarşılıqlı səfərlərin və təmasların münasibətlərin inkişafına verdiyi töhfəni qeyd edərək, əməkdaşlığın daha da genişləndirilməsi üçün mövcud potensialı müzakirə ediblər. Bu çərçivədə Azərbaycan ilə Almaniya arasında biznes dairələri arasında əlaqələrin təşviqinin əhəmiyyəti diqqətə çatdırılıb.

Görüşdə həmçinin postmünaqişə dövründə bölgədə mövcud vəziyyət, Azərbaycan-Ermənistan normallaşma prosesi, habelə işğaldan azad edilmiş ərazilərimizdə həyata keçirilən bərpa və yenidənqurma işləri müzakirə olunub.

Söhbət zamanı Azərbaycanın evsahibliyi etdiyi COP29 çərçivəsində əldə olunmuş nəticələrin iqlim gündəliyinin irəlilədilməsinə verdiyi töhfə qeyd olunub, "yaşıl keçid" və bərpaolunan enerji sahələrində əməkdaşlıq imkanları nəzərdən keçirilib.

Görüşdə qarşılıqlı maraq doğuran digər regional və beynəlxalq məsələlər ətrafında da fikir mübadiləsi aparılıb.

* * *

İyunun 19-da xarici işlər naziri Ceyhun Bayramov Malayziyanın Azərbaycandakı səfiri Ahmad Kamrizamil Bin Mohd Rza





ilə ölkəmizdə diplomatik fəaliyyətinin başa çatması ilə əlaqədar görüşüb.

Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsindən AZƏRTAC-a verilən məlumata görə, görüş zamanı Azərbaycan ilə Malayziya arasında dostluq və əməkdaşlıq münasibətlərinin mövcud vəziyyəti və inkişaf perspektivləri ətrafında fikir mübadiləsi aparılıb. Tərəflər siyasi dialoqun inkişafı, qarşılıqlı səfərlərin və təmasların intensivləşdirilməsinin, ticarət-iqtisadi əlaqələrin genişləndirilməsinin, enerji, təhsil, turizm, humanitar və mədəniyyət sahələrində əməkdaşlığın təşviqinin əhəmiyyətini vurğulayıblar.

Görüşdə Azərbaycan və Malayziya arasında beynəlxalq təşkilatlar çərçivəsində əməkdaşlıq məsələləri müzakirə olunub. Tərəflər ölkələrimizin Qoşulmama Hərəkatı, İslam Əməkdaşlıq Təşkilatı və digər çoxtərəfli platformalar çərçivəsində səmərəli əməkdaşlığının, bu il və gələn il ölkəmizdə keçiriləcək Asiyada Qarşılıqlı Fəaliyyət və Etimad Tədbirləri üzrə Müşavirə (AQEM) sammitinin və İslam Əməkdaşlıq Təşkilatı sammitinin əməkdaşlığın daha da genişləndirilməsi üçün əhəmiyyətini məmnunluqla qeyd ediblər.

Söhbət zamanı postmünaqişə dövründə regionda mövcud vəziyyət, Azərbaycan-Ermənistan normallaşma prosesi və regional əməkdaşlıq perspektivləri barədə fikir mübadiləsi aparılıb.

Görüşdə qarşılıqlı maraq doğuran digər regional və beynəlxalq məsələlər ətrafında da fikir mübadiləsi aparılıb.

* * *

İyunun 19-da Azərbaycanın xarici işlər naziri Ceyhun Bayramov Qəmər Adaları İttifaqının maliyyə, büdcə və bank sektoru naziri Moussa Abderemane ilə görüşüb.

Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsindən AZƏRTAC-a verilən məlumata görə, görüş zamanı Azərbaycan ilə Qəmər Adaları İttifaqı arasında mövcud dostluq və əməkdaşlıq münasibətlərinin inkişaf perspektivləri müzakirə olunub. Tərəflər xüsusilə beynəlxalq təşkilatlar və platformalar çərçivəsində əməkdaşlığın gücləndirilməsinin vacibliyini vurğulayıblar.

Azərbaycanın beynəlxalq təşkilatlar daxilində, o cümlədən İslam Əməkdaşlıq Təşkilatı, Qoşulmama Hərəkatı və digər çoxtərəfli platformalarda fəal rolu vurğulanaraq, qarşılıqlı dəstək və həmrəyliyin əhəmiyyəti qeyd edilib. Xüsusilə 2027-ci ildə keçiriləcək İslam Əməkdaşlıq Təşkilatının Zirvə Görüşü çərçivəsində əməkdaşlıq imkanlarının genişləndirilməsi müzakirə edilib.

Tərəflər həmçinin Cənub-Cənub əməkdaşlığı çərçivəsində inkişaf edən əlaqələrin daha da gücləndirilməsinin vacibliyini qeyd ediblər. Azərbaycanın bu platforma daxilində az inkişaf etmiş ölkələr ilə əməkdaşlığın təşviqi istiqamətində səyləri yüksək qiymətləndirilib.

# Milli Məclisdə görüş



**İyunun 19-da Milli Məclisin İnsan hüquqları komitəsinin sədri Zahid Oruc ölkəmizdə səfərdə olan İslam Əməkdaşlıq Təşkilatının (İƏT) Müstəqil Daimi İnsan Hüquqları Komissiyasının İcraçı direktoru Hadi Bin Ali Al-Yaminin rəhbərlik etdiyi nümayəndə heyəti ilə görüşüb.**

Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən verilən məlumata görə, görüşdə komitə sədri Azərbaycan-İƏT əlaqələrinin bu günü və gələcək inkişaf istiqamətləri barədə fikirlərini bölüşüb. O, bu təşkilatın üzv ölkələri düşündürən məsələlərin həllində mühüm platforma olduğunu diqqətə çatdırıb. Komitə sədri qonağın "Süni intellekt dövründə insan hüquqları: İmkanlar, risklər və məsuliyyətlər" mövzusunda keçirilən Ombudsmanların Beynəlxalq Bakı Sammitində iştirakını yüksək qiymətləndirib.

Söhbət zamanı İƏT-in İslam həmrəyliyinin, insan hüquqlarının qorunmasında rolu, süni intellektin insan hüquqlarına təsiri mövzularında fikir mübadiləsi aparılıb.

Görüş üçün təşəkkürünü bildirən İƏT-in Müstəqil Daimi İnsan Hüquqları Komissiyasının İcraçı direktoru Hadi Bin Ali Al-Yami Bakıda keçirilən Ombudsmanların Beynəlxalq Bakı Sammitinin əhəmiyyətindən danışıb. Bildirib ki, bu cür tədbirlər qarşılıqlı təcrübə mübadiləsi baxımından mühüm əhəmiyyətə malikdirlər. O, bir neçə gündən sonra İslam Əməkdaşlıq Təşkilatının üzvü olan dövlətlərin Parlament İttifaqı Konfransının 20-ci sessiyasının da Bakıda keçirilməsinin Azərbaycanın beynəlxalq səviyyədə yüksək nüfuzundan xəbər verdiyini qeyd edib. Qonaq Azərbaycanın İƏT-in fəal üzvlərindən olduğunu və ölkəmizin sədrliyi dövründə bu təşkilatın inkişafına dəyərli töhfələr verdiyini diqqətə çatdırıb.

Söhbət zamanı Milli Məclisin İnsan hüquqları komitəsinin sədr müavini Arzuxan Əli-zadə, üzvləri Sevil Mikayılova, Vüqar Rəhimzadə süni intellekt və yeni nəsil insan hüquqları, Azərbaycanın İƏT-də fəaliyyəti, ölkəmizin islam dünyası ilə əlaqələri barədə fikirlərini bölüşüblər.

*"Azərbaycan"*

*Azərbaycan Respublikası Prezidentinin 2026-cı il 19 iyun tarixli Fərmanı ilə təsdiq edilmişdir*

# Sənaye və kənd təsərrüfatı üzrə tikinti obyektlərinin elektrik şəbəkəsinə qoşulma xidmətinə görə ödənişin subsidiyalaşdırılması qaydası

**1. Ümumi müddəalar**

1.1. Bu Qayda sənaye və kənd təsərrüfatı üzrə tikinti obyektlərinin elektrik şəbəkəsinə qoşulma xidmətinə görə Azərbaycan Respublikasının Tarif (qiymət) Şurası tərəfindən müəyyən edilən ödənişin 50 (əlli) faizi məbləğində dövlət büdcəsinin vəsaiti hesabına subsidiya ödənilməsi ilə bağlı hüquqi və təşkilati məsələləri tənzimləyir.

1.2. Subsidiyalaşdırma yalnız bu Qaydanın 1 nömrəli əlavəsində nəzərdə tutulan sənaye və kənd təsərrüfatı sahələri üzrə tikinti obyektlərinə şamil edilir.

1.3. Bu Qaydada istifadə olunan anlayışlar Azərbaycan Respublikasının normativ hüquqi aktları ilə müəyyən olunmuş mənaları ifadə edir.

**2. Subsidiyalaşdırma şərtləri**

2.1. Bu Qaydanın 1.1-ci bəndində nəzərdə tutulan subsidiya məbləği sahibkarın müraciəti əsasında ödənilir.

2.2. Elektrik şəbəkəsinə qoşulma xidmətinə görə ödənişlər aşağıdakı şərtlər əsasında subsidiyalaşdırılır:

2.2.1. hüquqi şəxslərə münasibətdə - nizamnamə kapitalında dövlətin iştirak payı 30 (otuz) faizdən az olduqda;

2.2.2. sahibkar Azərbaycan Respublikası Vergi Məcəlləsinin 13.2.82-ci maddəsinə uyğun olaraq riskli vergi ödəyicisi olmadıqda;

2.2.3. sahibkarın Azərbaycan Respublikasında vergilər və digər icbari ödənişlər üzrə vaxtı keçmiş öhdəlikləri olmadıqda;

2.2.4. bu Qaydanın 3.2-ci bəndinə uyğun olaraq təqdim edilmiş sənədlərdə uyğunsuzluq aşkarlanmadıqda.

**3. Subsidiyanın verilməsi üçün müraciət və ona baxılması**

3.1. Sənaye və kənd təsərrüfatı üzrə tikinti obyektlərinin elektrik şəbəkəsinə qoşulma xidmətinə görə ödənişin subsidiyalaşdırılması ötürücü sistem operatorunun və ya paylayıcı sistem operatorunun təqdim etdiyi və tikinti obyektinin elektrik şəbəkəsinə qoşulmasına görə sahibkar tərəfindən ödəniş faktını təsdiq edən arayış əsasında həyata keçirilir.

3.2. Sahibkar (bundan sonra - ərizəçi) subsidiyanın alınması üçün bu Qaydanın 2 nömrəli əlavəsində nəzərdə tutulan ərizəni Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyinə (bundan sonra - Nazirlik) şəxsən təqdim edir və ya poçt vasitəsilə, yaxud elektron formada göndərir. Ərizəyə tikinti obyektinin elektrik şəbəkəsinə qoşulmasına görə ödəniş edildiyi faktını təsdiq edən arayış və ərizəçi tərəfindən nağdsız ödənişi təsdiq edən sənəd əlavə olunur.

3.3. Bu Qaydanın 3.2-ci bəndinin ikinci cümləsində qeyd olunan sənədlərin Elektron Hökumət İnformasiya Sistemi vasitəsilə müvafiq dövlət orqanından (qurumundan) əldə edilməsi mümkün olduqda həmin sənədlər ərizəçidən tələb edilmir. Belə sənədlərin Elektron Hökumət İnformasiya Sistemi vasitəsilə əldə edilməsi mümkün olmadığı hallarda, onların təqdim edilməsi ərizəçinin razılığı ilə sorğu əsasında müvafiq dövlət orqanından (qurumundan) tələb olunur və ya ərizəçi tərəfindən təmin edilir.

3.4. Müraciətlərə baxılması və ödənişin subsidiyalaşdırılması ilə bağlı fəaliyyətin təşkili və qərar qəbul edilməsi Nazirlik tərəfindən həyata keçirilir.

3.5. Nazirlik daxil olmuş müraciətə baxarkən "İnzibati icraat haqqında" Azərbaycan Respublikasının Qanununu və bu Qaydanın tələblərini rəhbər tutur.

3.6. Ərizədə və ona əlavə edilmiş sənədlərdə imtinaya səbəb olmayan çatışmazlıqlar aşkarlandıqda, ərizənin qeydiyyata alındığı tarixdən 5 (beş) iş günündən gec olmayaraq onların aradan qaldırılması barədə məlumat ərizəçiyə təqdim edilir və ya poçt vasitəsilə, yaxud elektron formada göndərilir. Ərizəçi həmin çatışmazlıqları məlumatı aldığı vaxtdan ən geci 10 (on) iş günü müddətində aradan qaldırmalıdır. Bu zaman bu Qaydanın 3.9-cu bəndində nəzərdə tutulmuş ödənişin subsidiyalaşdırılmasına dair qərar verilməsi ilə bağlı müddətin axımı dayandırılır. Çatışmazlıqların aradan qaldırılması barədə ərizəçinin müraciətindən sonra müddətin axımı bərpa olunur.

3.7. Ərizəçi ərizədə və ona əlavə edilmiş sənədlərdə aşkarlanmış çatışmazlıqları bu Qaydanın 3.6-cı bəndinin ikinci cümləsində göstərilən müddətdə aradan qaldırmadıqda ərizənin baxılmamış saxlanılması haqqında inzibati akt qəbul edildikdən sonra bu barədə məlumat 2 (iki) iş günü müddətində ərizəçiyə şəxsən təqdim olunur və ya poçt vasitəsilə, yaxud elektron formada göndərilir. Ərizəçi ödənişin subsidiyalaşdırılması üçün təkrar ərizə ilə Nazirliyə müraciət edə bilər.

3.8. Nazirlik tikinti obyektinin elektrik şəbəkəsinə qoşulması faktının təsdiqi üçün ötürücü sistem operatoruna və ya paylayıcı sistem operatoruna sorğu göndərir. Sorğu daxil olduğu tarixdən 3 (üç) iş günü müddətində həmin qurumlar tərəfindən cavablandırılmalıdır.

3.9. Nazirlik bu Qaydanın 3.8-ci bəndində qeyd edilən sorğunun nəticələrinə əsasən, ərizənin qeydiyyata alındığı tarixdən 7 (yeddi) iş günü müddətində müraciətin bu Qaydanın 2.2-ci bəndi ilə müəyyən edilmiş subsidiyalaşdırma şərtlərinə uyğunluğunu yoxlamaqla, elektrik şəbəkəsinə qoşulma xidmətinə görə ödənişin subsidiyalaşdırılmasına və ya subsidiyalaşdırılmadan imtinaya dair qərar qəbul edir, bu barədə məlumat 2 (iki) iş günü müddətində ərizəçiyə şəxsən təqdim edilir və ya poçt vasitəsilə, yaxud elektron formada göndərilir.

3.10. Ödənişin subsidiyalaşdırılmasından imtina haqqında inzibati akt bu Qaydanın 2.2-ci bəndində nəzərdə tutulmuş şərtlərə istinad edilməklə əsaslandırılmalıdır. Ərizəçi inzibati aktdan inzibati qaydada və məhkəməyə şikayət verə bilər.

**4. Subsidiyanın ödənilməsi**

4.1. Subsidiyanın verilməsi ilə bağlı müsbət qərar qəbul edildiyi halda Nazirlik subsidiyanın ödənilməsi ilə əlaqədar bu Qaydanın 3 nömrəli əlavəsinə uyğun olaraq ödəniş sifarişini müvafiq qərar qəbul edildiyi tarixdən 2 (iki) iş günü müddətində Azərbaycan Respublikasının Maliyyə Nazirliyi yanında Dövlət Xəzinədarlıq Agentliyinə təqdim edir.

4.2. Azərbaycan Respublikasının Maliyyə Nazirliyi yanında Dövlət Xəzinədarlıq Agentliyi 2 (iki) iş günü müddətində təqdim edilmiş ödəniş sifarişi əsasında subsidiya məbləğinin ərizəçinin bank hesabına köçürülməsini təmin etməlidir.

*"Sənaye və kənd təsərrüfatı üzrə tikinti obyektlərinin elektrik şəbəkəsinə qoşulma xidmətinə görə ödənişin subsidiyalaşdırılması Qaydası"na*

**1 nömrəli əlavə**

**Subsidiyalaşdırmanın şamil edildiyi sənaye və kənd təsərrüfatı sahələrinin SİYAHISI**

1. Bitkiçilik və heyvandarlıq, ovçuluq
2. Balıqçılıq və balıqartırma
3. Qida məhsulları istehsalı
4. İçki istehsalı
5. Tütün məmulatları istehsalı
6. Toxuculuq sənayesi
7. Geyim istehsalı
8. Dəri və dəri məmulatları, ayaqqabı istehsalı
9. Mebeldən başqa, ağacın emalı və ağacdan məmulatlar və tıxac istehsalı, hopdurma və hörmə materiallar istehsalı
10. Kağız və karton istehsalı
11. Kimya sənayesi
12. Əczaçılıq məhsulları istehsalı
13. Rezin və plastik məmulatlar istehsalı
14. Digər qeyri-metal mineral məhsulların istehsalı
15. Metallurgiya sənayesi
16. Maşın və avadanlıqdan başqa, hazır metal məmulat istehsalı
17. Kompüter, elektron və optik məhsullar istehsalı
18. Elektrik avadanlığı istehsalı
19. Maşın və avadanlıq istehsalı
20. Avtomobil, qoşqu və yarımqoşqu istehsalı
21. Sair nəqliyyat vasitələrinin istehsalı
22. Mebel istehsalı
23. Digər sənaye məhsullarının istehsalı

*"Sənaye və kənd təsərrüfatı üzrə tikinti obyektlərinin elektrik şəbəkəsinə qoşulma xidmətinə görə ödənişin subsidiyalaşdırılması Qaydası"na*

**2 nömrəli əlavə**

**ƏRİZƏ**

_______Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyinə______

1. Ərizəçi haqqında məlumatlar:

1.1. Hüquqi şəxsin adı / fərdi sahibkarın soyadı, adı, atasının adı, şəxsiyyətini təsdiq edən sənədin seriyası və nömrəsi, FİN kodu:

_______________________________________________

1.2. Hüquqi şəxsin hüquqi ünvanı / fərdi sahibkarın ünvanı:

_______________________________________________

1.3. Hüquqi şəxsin / fərdi sahibkarın VÖEN-i:

_______________________________________________

1.4. Bank rekvizitləri:

_______________________________________________

1.5. Əlaqə telefonu:

_______________________________________________

1.6. Elektron poçtu (vardırsa):

_______________________________________________

1.7. Hüquqi şəxsin rəhbərinin və ya nümayəndəsinin / fərdi sahibkarın səlahiyyətli nümayəndəsinin (vardırsa):

1.7.1. soyadı, adı, atasının adı, şəxsiyyətini təsdiq edən sənədin seriyası və nömrəsi, FİN kodu:

_______________________________________________

1.7.2. ünvanı:

_______________________________________________

1.7.3. əlaqə telefonu:

_______________________________________________

1.7.4. elektron poçtu (vardırsa):

_______________________________________________

1.7.5. etibarnamə haqqında məlumatlar:

_______________________________________________

1.8. Layihənin adı:

_______________________________________________

1.9. Layihənin həyata keçirildiyi iqtisadi fəaliyyət növü:

_______________________________________________

1.10. Layihənin həyata keçirildiyi ünvan:

_______________________________________________

**Qeyd.** Ərizə səlahiyyətli nümayəndə tərəfindən təqdim olunduqda, etibarnamə əlavə edilir.

2. Hüquqi şəxsin rəhbərinin və ya nümayəndəsinin / fərdi sahibkarın və ya onun səlahiyyətli nümayəndəsinin

_______________________________________________

(vəzifəsi, soyadı, adı, atasının adı)

3. Ərizənin tərtib edildiyi tarix

_______________________________________________

(gün, ay, il)

4. Hüquqi şəxsin rəhbərinin və ya nümayəndəsinin / fərdi sahibkarın və ya onun səlahiyyətli nümayəndəsinin imzası və möhürü (vardırsa).

M.Y.

*"Sənaye və kənd təsərrüfatı üzrə tikinti obyektlərinin elektrik şəbəkəsinə qoşulma xidmətinə görə ödənişin subsidiyalaşdırılması Qaydası"na*

**3 nömrəli əlavə**

**Sənaye və kənd təsərrüfatı üzrə tikinti obyektlərinin elektrik şəbəkəsinə qoşulma xidmətinə görə sahibkara ödənilməli olan subsidiya məbləğinə dair ÖDƏNİŞ SİFARİŞİ**

| Sahibkar barədə məlumat | | | Ödəniləcək subsidiyanın məbləği |
|---|---|---|---|
| Hüquqi şəxsin adı və ya fiziki şəxsin soyadı, adı və atasının adı | VÖEN-i | Bank rekvizitləri | |
| | | | |

Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyinin vəzifəli şəxsi:

____________ ______________________________

(imza) (vəzifəsi, soyadı, adı, atasının adı)

M.Y.

Tarix: ______________________________

(gün, ay, il)




# Azərbaycanın dünyaya təqdim olunan inkişaf modeli

## Dönməz siyasi sabitlik, dinamik iqtisadi inkişaf, artan beynəlxalq nüfuz

**İslam İnkişaf Bankı Qrupunun Bakıda keçirilən 2026-cı il üzrə İllik Toplantıları nüfuzlu beynəlxalq maliyyə tədbiri olmaqla yanaşı, həm də Azərbaycanın son illərdə keçdiyi inkişaf yolunun, beynəlxalq mövqeyinin və gələcək strateji prioritetlərinin təqdim olunduğu mühüm siyasi-iqtisadi platformaya çevrildi.**

Azərbaycan Prezidenti İlham Əliyevin açılış mərasimindəki çıxışı ölkəmizin son 35 ildə formalaşdırdığı dövlətçilik modelinin, xarici siyasət kursunun, iqtisadi inkişaf strategiyasının və postmünaqişə dövrü üçün müəyyən etdiyi prioritetlərin sistemli təqdimatı kimi böyük maraq doğurur. Çıxışda Azərbaycanın əldə etdiyi nəticələr faktlar və konkret göstəricilər əsasında təqdim olunmaqla bərabər, qarşıdakı dövr üçün inkişaf istiqamətləri də müəyyən edilib. Prezident İlham Əliyevin mesajlarında bir neçə əsas strateji xətt xüsusilə ön plana çıxarılıb.

### Azərbaycanın beynəlxalq nüfuzu və etibarlı tərəfdaş imici

Yada salaq ki, Azərbaycan İslam İnkişaf Bankı Qrupunun İllik Toplantılarına artıq ikinci dəfədir evsahibliyi edir və bu, təsadüfi seçim deyil. Belə bir fakt ölkəmizin beynəlxalq maliyyə institutları ilə formalaşdırdığı etibarlı tərəfdaşlığın və qazandığı yüksək etimadın göstəricisidir. 2010-cu ildə keçirilmiş ilk toplantı ölkəmizin iqtisadi islahatlarına və inkişaf strategiyasına yeni impuls vermişdisə, 2026-cı il toplantısı tamamilə başqa reallığın nümayişinə çevrildi. Artıq Azərbaycan təkcə inkişaf edən dövlət deyil, regional və qlobal proseslərə təsir göstərən aktorlardan biri kimi çıxış etməkdədir.

Son illər ölkəmizin evsahibliyi etdiyi mötəbər beynəlxalq tədbirlərin miqyası da bunu təsdiqləyir. 2024-cü ildə COP29-un uğurla keçirilməsi, bu il WUF13-ün Bakıda təşkili, müxtəlif beynəlxalq iqtisadi, humanitar və siyasi platformaların respublikamıza həvalə olunması ölkəmizin təşkilati imkanlarına və beynəlxalq nüfuzuna verilən yüksək qiymətin göstəricisidir. Prezident İlham Əliyev çıxışında Azərbaycanın beynəlxalq dəstək qazandığı bu nümunələri xüsusi vurğuladı: "Müstəqil xarici siyasətimiz beynəlxalq ictimaiyyətin güclü dəstəyini qazanıb. Dostlarımızın sayı ilbəil artır. Beynəlxalq ictimaiyyətin verdiyi dəstək çox nümunəvi anlarda öz əksini tapır". Azərbaycanın 155 dövlətin dəstəyi ilə BMT Təhlükəsizlik Şurasına qeyri-daimi üzv, daha sonra 120 ölkəni birləşdirən Qoşulmama Hərəkatına yekdilliklə sədr seçilməsi və sədrliyin müddətinin yenidən uzadılması respublikamızın beynəlxalq münasibətlər sistemində qazandığı etimadın bariz nümunələridir.

Burada diqqət çəkən məqamlardan biri Prezident İlham Əliyevin "beynəlxalq ictimaiyyət" anlayışına verdiyi yeni siyasi məzmundur. Dövlətimizin başçısı vurğuladı ki, beynəlxalq ictimaiyyət müəyyən dövlətlər qrupu deyil, BMT-yə üzv olan bütün ölkələrdir. Azərbaycanın məhz dünya dövlətlərinin böyük əksəriyyətinin dəstəyini qazanması isə onun müstəqil və balanslaşdırılmış xarici siyasətinin uğurlarına dəlalət edir.

### Sabitlik - inkişafın təməl daşı

Prezident İlham Əliyevin çıxışında ən çox vurğulanan amillərdən biri məhz sabitlik idi. Dövlətimizin başçısı Azərbaycanın son 35 illik inkişaf yolunu qiymətləndirərkən bildirdi ki, müstəqilliyin ilk iki ilində yaşanan ağır böhranlardan sonra ölkəmizdə formalaşan siyasi, iqtisadi və sosial sabitlik bütün uğurların əsasını təşkil edib.

Müasir beynəlxalq münasibətlər sistemində geosiyasi risklərin artdığı, silahlı münaqişələrin genişləndiyi, iqtisadi qeyri-müəyyənliyin dərinləşdiyi bir dövrdə sabitlik artıq yalnız daxili siyasət məsələsi deyil, həm də iqtisadi rəqabət üstünlüyü kimi çıxış edir. İnvestorların sabit ölkələrə üstünlük verməsi də bunun ən aydın göstəricisidir. Azərbaycan modeli isə göstərir ki, uzunmüddətli iqtisadi inkişaf yalnız siyasi sabitlik, sosial həmrəylik və idarəetmə sisteminin effektivliyi şəraitində mümkündür. Son illərdə həyata keçirilən iri enerji, nəqliyyat və sənaye layihələrinin uğuru da məhz bu amillər üzərində qurulub.

Prezident İlham Əliyevin çıxışında səsləndirdiyi iqtisadi göstəricilər də Azərbaycanın sabitlik mühitində son iyirmi ildə keçdiyi inkişaf yolunu aydın şəkildə nümayiş etdirir. Qeyri-neft sektorunun ÜDM-də payının 70 faizi keçməsi iqtisadiyyatın şaxələndirilməsi istiqamətində həyata keçirilən siyasətin real nəticəsidir. Uzun illər enerji ixracatçısı kimi tanınan Azərbaycan artıq qeyri-neft sənayesinin, xidmət sektorunun, kənd təsərrüfatının və logistikanın inkişafı hesabına yeni iqtisadi model formalaşdırır.

350 milyard ABŞ dollarına yaxın birbaşa investisiyanın cəlb edilməsi, xarici dövlət borcunun ÜDM-in cəmi 6 faizini təşkil etməsi və Azərbaycanın strateji valyuta ehtiyatlarının xarici borcu təxminən 20 dəfə üstələməsi Azərbaycanın maliyyə dayanıqlığını nümayiş etdirən mühüm göstəricilərdir. Beynəlxalq reytinq agentliklərinin ölkəmizin kredit reytinqini investisiya səviyyəsinə yüksəltməsi də təsadüfi olmayıb, ölkədə iqtisadi idarəetmənin effektivliyinə verilən yüksək beynəlxalq qiymətdir.

Sosial sahədə də diqqətəlayiq nəticələr əldə olunub. İşsizlik və yoxsulluq səviyyəsinin təxminən 5 faizə qədər enməsi, əhalinin üçdəbirindən çoxunu əhatə edən sosial proqramların həyata keçirilməsi iqtisadi inkişafın sosial rifahla paralel aparıldığını göstərir. Prezident İlham Əliyev dedi: "Ötən bir neçə ildə əhalimizin demək olar ki, 30 faizindən çoxunu əhatə edən bir neçə sosial dəstək layihəsini icra etmişik. Yoxsulluğun və işsizliyin azaldılması da hədəflərimizdən biri idi və biz buna uğurla nail olduq. Bu gün yoxsulluğun və işsizliyin səviyyəsi təqribən 5 faiz təşkil edir. Məşğulluqla bağlı olan məsələlər əhalisi artmaqda olan istənilən digər ölkə kimi, bizim də diqqətimizin mərkəzində olacaq. Çünki əhali artdığı zaman, - təəssüf ki, müsəlman ölkələrində bu tendensiyanın davam etdiyini hamımız bilirik, - bunun, eyni zamanda özü ilə bir çox çağırışlar gətirdiyini görürük. Çünki siz iş yerləri yaratmalısınız, daha çox sosial infrastruktur və ümumiyyətlə, infrastruktur qurmalısınız. Beləliklə, bu məsələ - işsizlik səviyyəsinin çox aşağı səviyyədə saxlanılması həmişə diqqət mərkəzində olacaq".

### Azərbaycanın geoiqtisadi üstünlüyü

Prezident İlham Əliyevin çıxışında Azərbaycanın enerji siyasəti artıq yalnız milli iqtisadiyyatın deyil, regional və qlobal təhlükəsizliyin mühüm elementi kimi təqdim edildi. Hazırda Azərbaycan 16 ölkəyə təbii qaz ixrac edir və bu göstəriciyə görə dünyada aparıcı mövqelərdən birini tutur. Xəzər hövzəsini Qara və Aralıq dənizləri vasitəsilə Avropaya bağlayan enerji dəhlizlərinin yaradılması uzun illər davam edən siyasi, diplomatik və iqtisadi səylərin nəticəsidir.

Cənab İlham Əliyev çıxışında yeni mərhələnin konturlarını da açıqladı. Artıq əsas prioritetlərdən biri "yaşıl enerji" ixracıdır. 2032-ci ilə qədər ölkəmizdə 8 qiqavat günəş və külək enerjisi istehsal gücünün yaradılması planlaşdırılır. Bu isə Azərbaycanın ənənəvi enerji ixracatçısından "yaşıl enerji" ixrac edən dövlətə transformasiyasını sürətləndirəcək.

Eyni zamanda "Şərq-Qərb" və "Şimal-Cənub" beynəlxalq nəqliyyat dəhlizləri Azərbaycanın geostrateji mövqeyini daha da gücləndirməkdədir. Məqsəd ölkə üzərindən daşınan yüklərin həcmini iki dəfə artırmaqdır. Bu hədəf Azərbaycanın Avrasiya məkanında logistika mərkəzi statusunu daha da möhkəmləndirməyə xidmət göstərir.

Prezident İlham Əliyevin çıxışının mühüm bir hissəsi də Azərbaycanın ərazi bütövlüyünün, suverenliyinin tam bərpasına və postmünaqişə dövründə görülən işlərə həsr olundu. Dövlət başçısı bir daha vurğuladı ki, 2020-ci il Vətən müharibəsi və 2023-cü ildə həyata keçirilən antiterror tədbirləri nəticəsində Azərbaycanın suverenliyi tam təmin olunub. Bundan sonra isə qalib tərəf kimi məhz ölkəmiz sülh təşəbbüsü ilə çıxış edib. Bu yanaşma regionda yeni siyasi reallığın əsasını təşkil edir.

Azad edilmiş Qarabağ və Şərqi Zəngəzur artıq ölkənin yeni iqtisadi inkişaf mərkəzlərindən birinə çevrilməkdədir. Hazırda həmin ərazilərdə 90 minə yaxın insan yaşayır, işləyir və təhsil alır. Dövlət tərəfindən bölgəyə yönəldilən investisiyaların həcmi artıq 17 milyard dollara yaxınlaşıb. Yeni hava limanları, avtomobil yolları, tunellər, körpülər, elektrik stansiyaları, su anbarları və digər infrastruktur layihələri bölgənin tamamilə yeni iqtisadi məkan kimi formalaşdırılmasına xidmət edir.

### Gələcəyin inkişaf prioritetləri

Prezident İlham Əliyevin çıxışı yalnız əldə olunan nəticələrin təqdimatı ilə məhdudlaşmadı. Dövlət başçısı qarşıdakı illər üçün inkişaf prioritetlərini də aydın müəyyənləşdirdi. Bu prioritetlərin əsas istiqamətlərini iqtisadiyyatın daha da şaxələndirilməsi, qeyri-neft ixracının artırılması, yeni bazarlara çıxış imkanlarının genişləndirilməsi, ərzaq təhlükəsizliyinin gücləndirilməsi, nəqliyyat-logistika potensialının artırılması, su ehtiyatlarının səmərəli idarə olunması və "yaşıl enerji" iqtisadiyyatına keçid təşkil edir.

Bu istiqamətlər Azərbaycanın uzunmüddətli inkişaf strategiyasının yeni mərhələsini formalaşdırır. Burada məqsəd iqtisadi artımı davam etdirməklə yanaşı, eyni zamanda dəyişən qlobal çağırışlara uyğun dayanıqlı inkişaf modelini möhkəmləndirməkdir.

Prezident İlham Əliyevin İslam İnkişaf Bankı Qrupunun İllik Toplantılarındakı çıxışı Azərbaycanın 35 ildə formalaşdırdığı inkişaf modelinin kompleks təqdimatı kimi tarixi mahiyyət daşıyır. Çıxışda beynəlxalq nüfuz, siyasi sabitlik, iqtisadi dayanıqlıq, enerji təhlükəsizliyi, logistika imkanları, postmünaqişə quruculuğu və "yaşıl inkişaf" strategiyası vahid konsepsiya şəklində təqdim olundu.

Çıxışın təsvir etdiyi əsas reallıqlar bundan ibarətdir ki, Azərbaycan artıq sadəcə enerji ixrac edən ölkə deyil, o, etibarlı tərəfdaş, regional logistika mərkəzi, beynəlxalq maliyyə institutları üçün cəlbedici iqtisadi məkan, "yaşıl enerji" istehsalçısı və qlobal gündəmin formalaşmasında iştirak edən məsuliyyətli dövlətdir.

Məhz buna görə İslam İnkişaf Bankının Bakıda keçirilən İllik Toplantıları mötəbər beynəlxalq maliyyə tədbiri olmaqla bərabər, həm də Azərbaycanın dünyaya təqdim etdiyi yeni inkişaf modelinin nümayişi kimi tarixə düşdü.

***İradə ƏLİYEVA,***
***"Azərbaycan"***

# Azərbaycan irimiqyaslı enerji infrastrukturu layihələrini irəli sürən, maliyyələşdirən və icra edən ölkədir

## Prezident İlham ƏLİYEV: "Bu, yaradılmış komanda işidir"

**Azərbaycanın müsbət sərmayə siyasəti müxtəlif sahələrə, o cümlədən enerji sektoruna milyardlarla ölçülən vəsait cəlb etməyə imkan yaratmışdır. Bu da öz növbəsində Xəzəri Qara dəniz və Aralıq dənizi ilə birləşdirən, ölkəmizdə hasil olunan karbohidrogenləri Avropa bazarlarına çıxaran boru kəmərlərinin çəkilməsinə yol açmışdır.**

Prezident İlham Əliyev İslam İnkişaf Bankı Qrupunun 2026-cı il üzrə Bakıda keçirilən İllik Toplantılarının açılış mərasimində çıxış edərkən bu ixrac infrastrukturunun əhəmiyyətini qeyd edərək demişdir: "Azərbaycan Avrasiya ölkələrini birləşdirən, xüsusən də enerji təchizat zəncirlərinin etibarlı olmadığı, o cümlədən enerji təhlükəsizliyinin hər bir ölkənin milli təhlükəsizliyinə çevrilən əsas amillərdən biri hesab edildiyi bir vaxtda onlara lazımi enerjini təchiz edən irimiqyaslı enerji infrastrukturu layihələrini irəli sürən, maliyyələşdirən və icra edən qlobal sahənin mühüm iştirakçısına çevrilib".

Dövlətimizin başçısı bir daha vurğulamışdır ki, bütün bunlar həqiqətən böyük səylər, diplomatiya, siyasi münasibət, qonşularla yaxşı münasibətlər, qonşuların qonşusu ilə əlaqələr, maliyyələşmə, yaxşı nüfuz və güclü iqtisadiyyat tələb etmişdir. Beləliklə, həmin meyarlar toplusu hazırda ölkəmizə mühüm enerji təchizatçılarından birinə çevrilmək imkanı yaratmışdır.

Bu gün Azərbaycan boru kəməri ilə qaz təchizatının coğrafiyası baxımından dünyada birinci yerdədir. 16 ölkəyə təbii qaz nəql edirik. Azərbaycandan qaz alan ölkələr bunlardır: Gürcüstan, Türkiyə, İtaliya, Bolqarıstan, Yunanıstan, Rumınıya, Macarıstan, Serbiya, Sloveniya, Xorvatiya, Şimali Makedoniya, Slovakiya, Ukrayna, Suriya, Almaniya və Avstriya.

Gürcüstana qaz Cənubi Qafqaz Boru Kəməri ilə 2006-cı ildən, Türkiyəyə Bakı-Tbilisi-Ərzurum kəməri ilə 2007-ci ildən və TANAP-la (Trans-Anadolu Qaz Boru Kəməri) 2018-ci ildən çatdırılır. Avropaya isə qaz 2020-ci ilin son günündən başlayaraq TAP-la (Trans-Adriatik Qaz Boru Kəməri) ixrac olunur. Suriya Türkiyə vasitəsilə Azərbaycan qazını ilk dəfə keçən il alıb.

Cari ilin yanvar-may ayları ərzində ixrac edilən qazın həcmi 10 milyard 381 milyon kubmetrə çatıb. Türkiyə Azərbaycandan qaz alan əsas tərəfdaşlardandır. TAP vasitəsilə ən çox Azərbaycan qazı idxal edən Avropa ölkəsi isə İtaliyadır. Almaniya və Avstriya İtaliya üzərindən nəql edilən qazı almağa başlayan hələlik ən son Avropa ölkələridir. Suriyaya Türkiyə üzərindən gündəlik təxminən 1,2 milyard kubmetr həcmində qaz tədarükünə start verilib. (İxrac göstəriciləri Dövlət Gömrük Komitəsinin hesabatlarında da əksini tapıb). Göründüyü kimi, Azərbaycandan qaz alan ölkələrin sayı getdikcə artır və artmaqda davam edəcəyi də gözlənilir.

Neft təchizatı daha çox ölkələri əhatə edir. Azərbaycan nefti dünya bazarlarına zəmanəmizin nəhəng mühəndis qurğusu olan, Ulu Öndər Heydər Əliyevin adını daşıyan Bakı-Tbilisi-Ceyhan əsas ixrac boru kəməri vasitəsilə çatdırılır. Bu, hasilatçı, tranzit ölkələrə və istehlakçıların hamısına fayda gətirir.

Prezidentimizin dediyi kimi: "Bu, yaradılmış komanda işidir və həqiqətən, layihələrin mürəkkəb icrası, maliyyələşməsi, relyefi, qarşımızda olan müxtəlif siyasi maneələr baxımından unikaldır".

Azərbaycanın "yaşıl enerji" gündəliyi də artıq bütün dünyaya bəllidir. Ölkəmizin bərpaolunan enerji mənbələrinin potensialı bu sahədə də sanballı layihələrin gerçəkləşməsinə imkan verir. Belə ki, "yaşıl enerji" mənbələrinin texniki potensialı quruda 135, dənizdə 157 qiqavat təşkil edir. İşğaldan azad olunmuş Qarabağ və Şərqi Zəngəzur, eləcə də Naxçıvan Muxtar Respublikası Prezident İlham Əliyev tərəfindən "yaşıl enerji" zonaları elan edilib. Çünki bu regionlar da bərpaolunan enerji mənbələri ilə zəngindir. Qarabağ və Şərqi Zəngəzurda həmin resursların texniki potensialı 10 qiqavat, Naxçıvanda isə 5 qiqavat həcmində qiymətləndirilir.

Məlum olduğu kimi, 2030-cu ilədək Azərbaycanın enerji balansında bərpaolunan enerji mənbələrinin payının 30 faizə çatdırılması nəzərdə tutulub. Lakin hazırkı inkişaf dinamikası göstərir ki, bu rəqəm 34-38 faizə qədər yüksələ bilər.

Prezident İlham Əliyev İslam İnkişaf Bankı Qrupunun 2026-cı il üzrə İllik Toplantılarının açılış mərasimindəki çıxışında bərpaolunan enerjinin də böyük potensiala malik sahələrdən biri olduğunu qeyd etmişdir: "Artıq beynəlxalq və yerli şirkətlərlə imzalanmış müqavilələr 2032-ci ilədək ölkəmizə 8 qiqavat həcmində günəş və külək enerjisi istehsal gücü qazandıracaq. Bu, minimum göstəricidir. Söhbət niyyət protokollarından deyil, artıq imzalanmış konkret müqavilələrdən gedir və bu rəqəm gələcəkdə daha da artacaq".

Yaxın gələcəkdə Azərbaycandan Avropaya "yaşıl enerji" dəhlizi də uzanacaq. Belə ki, hələ 2022-ci il dekabrın 17-də Buxarestdə "Azərbaycan Respublikası, Gürcüstan, Rumınıya və Macarıstan Hökumətləri arasında "yaşıl enerji"nin inkişafı və ötürülməsi sahəsində strateji tərəfdaşlıq haqqında Saziş" imzalanıb. Qazaxıstan və Özbəkistan da qərara gəliblər ki, Azərbaycan üzərindən bu dəhlizə özlərinin istehsal etdikləri bərpaolunun enerjini qoşsunlar. Bununla ölkəmiz "yaşıl enerji"nin həm də tranzitini həyata keçirəcək.

Bir neçə gün əvvəlki toplantıda dövlətimizin başçısının dediyi kimi: "Hazırda biz ötürücü xətlərin yaradılması və enerji ixracı istiqamətində çalışırıq, çünki qeyd etdiyim kimi, bu qədər enerjiyə ehtiyacımız olmayacaq. Buna görə də enerjiyə ehtiyacı olan bazarlara, ilk növbədə, Avropaya enerji ötürülməsini təmin edəcək infrastruktur üzərində işləyirik. Hamıya məlumdur ki, Avropanın uzun illər ərzində elektrik enerjisinə böyük ehtiyacı olacaq".

***Flora SADIQLI,***
***"Azərbaycan"***

RƏSMİ DÖVLƏT QƏZETİ AZƏRBAYCAN

20 iyun 2026-cı il

## 20 İyun Dünya Qaçqınlar Günüdür

# Bir ömrün sınağı

## Bizim üçün qaçqınlıq doğma yurda dönməyin sonsuz qüruru ilə əvəzlənib

**Dünya Qaçqınlar Günü Azərbaycan cəmiyyəti üçün həm də 30 illik bir sızıltı, çadır düşərgələrinin soyuğu, vaqon pəncərələrindən boylanan qəmli uşaq baxışları və hər açılan sabahı doğma torpağının həsrəti ilə qarşılayan nəsillərin yaddaş salnaməsidir. Çünki ötən əsrin sonlarında Ermənistanın işğalçılıq və etnik təmizləmə siyasəti nəticəsində bir milyondan çox soydaşımız da qaçqın və məcburi köçkün taleyi yaşamağa məhkum olunmuşdu.**

Mən bu ağrı ilə yalnız jurnalist kimi arxiv sənədlərindən, rəsmi hesabatlardan tanış olmamışam. "Məcburi köçkünlük" adlı ağrı-acılı qisməti düz 27 il öz taleyimdə daşımışam. Bu ağır yük çiyinlərimə yüklənəndə cəmi 10 yaşım var idi...

Dünyanı yenicə kəşf edən bir uşaq üçün məcburi köçkünlük bir gecədə böyümək, daha doğrusu, uşaqlıqla vaxtından əvvəl vidalaşmaq məcburiyyəti deməkdir. O təlaşlı köç karvanları ilə mən də uşaqlığımı doğulduğum o evdə, oynadığım o küçələrdə qoyub çıxdım. Biz o vaxt yalnız torpaqlarımızı itirmədik, həm də neçə-neçə nəslin uşaqlığını və gəncliyini o yurdlarda qoyub gəldik. Əksər məcburi köçkün uşaqlar kimi, mənim də o illərdən qalan bircə dənə də olsun körpəlik, uşaqlıq fotom yoxdur. Sanki kimsə keçmişimi tamamilə silib aparıb, sanki o illər əlimdən alınıb, itirilib... Lakin insan yaddaşı foto kağızlardan daha dözümlü sığınacaqmış. Onilliklər boyu yuxularımda həmişə evimizdə qoyub gəldiyim məktəb çantamı özümlə götürürdüm. Reallıqda talanan o çanta yuxularımda mənimlə bərabər qaçqınlıq yollarını addımlayırdı.

Bu, təkcə mənim yuxum, mənim itkim deyildi. Bu, bütöv bir xalqın ortaq yaddaş zədəsi və sarsılmaz ümidi idi. Məcburi köçkünlük illərində dünyanın bəlkə də heç bir yerində görünməyən ürəkağrıdan bir hal yaşadı bu insanlar. Onlar öz evlərinin yerlə yeksan edildiyini, dağılıb yox olduğunu bilə-bilə, o köhnə qapıların paslı açarlarını onilliklər boyu bir müqəddəs əmanət kimi sandıqlarında qoruyub saxladılar. O paslı açarlar keçmiş məcburi köçkünlərimiz üçün sarsılmaz inamın rəmzinə çevrildi. Ötən illərdə onlar mənzillərlə təmin olunsalar da, maddi vəziyyətləri yaxşılaşsa da, ruhlarının yurd nisgili heç ovunmadı. Çünki məcburi köçkünlük elə bir hissdir ki, insan harada yaşayırsa yaşasın, ruhu həmişə o köhnə evin başında fırlanır.

Bəli, düz bir qərinə keçmiş məcburi köçkünlərimiz hər gecə yuxularında öz itirilmiş yurdlarına qayıtdılar, sübhün acı gerçəkliyi ilə baş-başa qalanda isə göz yaşları tökdülər.



### Evindən, elindən didərgin düşənlər

Hər il 20 iyun Dünya Qaçqınlar Günü kimi qeyd edilir. 2000-ci ildə BMT-nin Baş məclisi bu tarixi müəyyən edən xüsusi qətnamə qəbul edib. Qətnamənin qəbulunda əsas məqsəd evindən, elindən didərgin düşən qaçqın və məcburi köçkünlərin acınacaqlı həyat şəraitini diqqətdə saxlamaq, onların sayının artmasının qarşısını almaq olub. Təəssüf ki, həmin qətnamənin üzərindən ötən 26 il ərzində dünyada nəinki qaçqınların sayını azaltmağa nail olunub, əksinə, baş verən işğallar, müharibələr bu sayı hər gün daha da artırıb.

Ermənistan tərəfindən torpaqlarımıza qarşı həyata keçirilən təcavüz siyasəti bir milyona yaxın soydaşımızı öz yurd-yuvalarını tərk etmək məcburiyyətində qoymuşdu. Öz vətənlərində didərginə çevrilən bu insanlar illərlə ağır məhrumiyyətlər içərisində çadır şəhərciklərində, vaqonlarda, yataqxanalarda yaşamağa məcbur qalmışlar. Yalnız Ulu Öndər Heydər Əliyev xalqın təkidli istəyi ilə Azərbaycanda hakimiyyətə qayıtdıqdan sonra didərgin düşən soydaşlarımızın problemlərinin həlli istiqamətində addımlar atılmağa başlanıldı. Heydər Əliyevin şəxsi diqqəti sayəsində keçmiş məcburi köçkünlərin qayğı və problemlərinin həlli ilə bağlı mühüm işlər görüldü. Ulu Öndər dəfələrlə çadır şəhərciklərinə yollanır, orada yaşayan insanların şəraitləri ilə tanış olur, problemlərinin aradan qaldırılması üçün mümkün olan bütün tapşırıqları verirdi.

Ümummilli Liderin "Əsrin müqaviləsi" ilə əsasını qoyduğu uğurlu neft strategiyası sayəsində əldə edilən ilk vəsait də məhz qaçqın və məcburi köçkünlərin mənzil-məişət şəraitinin yaxşılaşdırılmasına yönəldildi. İnsanlarımızın acınacaqlı şəraitdə yaşamağa məcbur olduğu çadır düşərgələrinin ləğvinə başlanıldı.

7 sentyabr 2001-ci ildə Heydər Əliyevin "Azərbaycan torpaqlarının erməni silahlı qüvvələri tərəfindən işğalı nəticəsində Ağdam və Füzuli rayonlarından didərgin düşmüş və çadır düşərgələrində müvəqqəti yerləşdirilmiş məcburi köçkünlərin bir qisminin həmin rayonların ərazisində məskunlaşdırılması ilə bağlı bəzi tədbirlər haqqında" və 13 may 2002-ci il "Biləsuvar rayonu ərazisində yerləşən beş çadır düşərgəsində məskunlaşmış məcburi köçkünlərin sosial-məişət vəziyyətinin yaxşılaşdırılması ilə bağlı bəzi tədbirlər haqqında" fərmanlarına uyğun olaraq, Biləsuvar, Füzuli və Ağdam rayonlarının ərazisində 5081 ailədən ibarət 22800 məcburi köçkün üçün bütün zəruri sosial-texniki infrastrukturu ilə birlikdə 20 qəsəbə salındı və Biləsuvar rayonu ərazisindəki 5 çadır düşərgəsi 2003-cü ilin iyun ayında ləğv edildi.

Ulu Öndərin siyasi kursunu uğurla həyata keçirən Prezident İlham Əliyevin fəaliyyətinin əsas istiqaməti qaçqınların və məcburi köçkünlərin problemlərinin həlli, ən başlıcası isə torpaqlarımızın işğaldan azad edilməsi idi. Dövlət başçısının diqqəti nəticəsində cəmi 4 il ərzində - 2003-cü ildən 2007-ci ilə qədər ölkədəki bütün çadır şəhərcikləri ləğv olundu. 2020-ci ilə qədər ölkədə məcburi köçkünlər üçün 100-dən çox qəsəbə-şəhərcik salındı. Ötən müddət ərzində Azərbaycanda 300 mindən çox məcburi köçkün mənzillərlə, fərdi evlərlə təmin olundu, həmçinin onların problemləri ardıcıl şəkildə öz həllini tapdı.

Ancaq Prezident İlham Əliyevin də vurğuladığı kimi, bütün bunlar müvəqqəti xarakter daşıyırdı. Hədəf Qarabağ və Şərqi Zəngəzurun azadlığı, məcburi köçkünlərin öz yurdlarına əbədi qayıdışı idi. 28 may 2020-ci ildə - Müstəqillik Günündə məcburi köçkünlər üçün salınmış "Qobu Park-3" yaşayış kompleksinin açılış mərasimində bu milli strategiya barədə Prezident İlham Əliyev qətiyyətlə bəyan etmişdi: "Ancaq onu da bilməliyik və bütün Azərbaycan xalqı bilməlidir ki, bu, sizin üçün müvəqqəti yaşayış yeridir. Torpaqlarımız işğaldan azad ediləndən sonra biz bu gün hələ də işğal altında olan torpaqlarda buna oxşar gözəl binalar, şəhərciklər tikəcəyik, ermənilər tərəfindən dağılmış şəhərlərimizi yenidən quracağıq".

### Qayıdış salnaməsi

Azərbaycan dünyada bəlkə də yeganə dövlətdir ki, Dünya Qaçqınlar Gününü həm də böyük ölçüdə bir qələbə hesabatı kimi qarşılayır. Çünki 30 il ərzində taleyimizə kölgə salan "məcburi köçkün" ifadə kimi yalnız lüğətimizdə qalıb. Bu gün həmin status yerini bərpa olunmuş haqqa və vətənə qalib kimi dönən insanların sonsuz qüruruna buraxıb.

2020-ci ilin payızında cəmi 44 gün içərisində qazanılan Zəfər torpaqlarımızın azadlığı ilə yanaşı, xalqımızın şərəf salnaməsinə çevrildi. Qələbənin üzərindən heç iki gün keçməmiş qalib lider İlham Əliyevin "Əziz keçmiş köçkünlər, siz artıq köçkün deyilsiniz…" müjdəsi yüzminlərlə insanımızın doğma yurda qayıdış gerçəkliyini özündə təcəssüm etdirirdi.

Bu gün Qarabağ və Şərqi Zəngəzura - Şuşaya, Laçına, Xocalıya... qayıdan hər bir ailə həm də dünyadakı bütün qaçqın və köçkünlər üçün bir ümid mayakıdır. Onlar sübut edirlər ki, beynəlxalq hüququn işləmədiyi yerdə tarixi ədaləti xalqın həmrəyliyi və dövlətin gücü bərpa edir.

20 İyun - Dünya Qaçqınlar Günü bizim üçün həm də yarımçıq qalmış mənəvi haqq-hesabın xatırlanma günüdür. Qarabağ fəryadı dindiyi halda, qəlbimizin digər tərəfində - Qərbi Azərbaycanda dədə-baba yurdu qalan yüzminlərlə soydaşımızın qaçqınlıq yarası hələ də sızıldayır. İndiki Ermənistan ərazisindən, Göyçədən, Zəngəzurdan, İrəvandan zorla qovulan insanların yurd nisgili hələ də dinməyib. Ancaq əminik ki, xalqımız "köçkünlük" adlı böyük bir məşəqqəti tarixin arxivinə göndərdiyi kimi, gün gələcək qərbi azərbaycanlı soydaşlarımızın da dinc, təhlükəsiz və ləyaqətli şəkildə sülh yolu ilə öz tarixi yurdlarına dönüşünü qeyd edəcək.

*Yasəmən MUSAYEVA,*
*"Azərbaycan"*

# Xankəndi və Ağdərəyə daha 80 nəfər köçdü

**İyunun 19-da Xankəndi şəhərinə və Ağdərə rayonuna növbəti köç olub. Xankəndi şəhərində Ağdərə və Xocalı rayonlarında Bərpa, Tikinti və İdarəetmə Xidmətinin ictimaiyyətlə əlaqələr şöbəsindən AZƏRTAC-a verilən məlumata görə, bu gün Xankəndi şəhərinə 68 nəfərdən ibarət 18 ailə, Ağdərə rayonunun Aşağı Oratağ kəndinə isə 2 ailə olmaqla 12 nəfər köçürülüb.**









Sakinlərə mənzillərin açarlarını Xankəndi şəhərində, Ağdərə və Xocalı rayonlarında Azərbaycan Respublikası Prezidentinin Xüsusi nümayəndəsinin müavini Səbuhi Qəhrəmanov və Xankəndi şəhərində, Ağdərə və Xocalı rayonlarında Bərpa, Tikinti və İdarəetmə Xidmətinin direktor müavini Mahmud Əfəndiyev təqdim ediblər.

Tədbirdə çıxış edən S.Qəhrəmanov sakinləri yurdlarına qayıtmaları münasibətilə təbrik edib, onlara doğma torpaqda xoş günlər arzulayıb. O, bölgədə həyata keçirilən genişmiqyaslı bərpa-quruculuq və tikinti işləri barədə də məlumat verərək bildirib ki, sakinlərin burada rahat və təhlükəsiz yaşayışı üçün bütün zəruri infrastruktur yaradılıb, sosial obyektlər istifadəyə verilib. Səbuhi Qəhrəmanov, həmçinin sakinlərin məşğulluq məsələlərinin həlli istiqamətində həyata keçirilən tədbirlərdən danışaraq, bölgədə yeni iş yerlərinin yaradıldığını, peşə hazırlığı və məşğulluq proqramlarının icra edildiyini, qayıdan vətəndaşların dayanıqlı məşğulluğunun təmin olunmasının dövlətin əsas prioritetlərindən biri olduğunu vurğulayıb.

ANAMA əməkdaşları tərəfindən köç edən sakinlərlə mina təhlükəsizliyinə dair maarifləndirmə görüşü keçirilib. Sakinlərə mina və partlamamış hərbi sursatların yaratdığı təhlükələr, riskli ərazilərdə davranış qaydaları, eləcə də şübhəli əşyalar aşkar edildiyi zaman atılmalı addımlar barədə ətraflı məlumat verilib.

Sakinlər də doğma torpağa qayıdış sevinclərini bölüşüblər.

# Qarabağın və Şərqi Zəngəzurun azad olunması və yenidən doğuşundan nə qədər danışılsa da, azdır

## İİB Qrupunun prezidenti: "Qarabağ və Şərqi Zəngəzurda ...baş verən inkişaf olduqca təsiredicidir"



**Qarabağ və Şərqi Zəngəzurda həyata keçirilən bərpa və yenidənqurma işləri həm də strateji siyasi əhəmiyyətə malikdir. Proses çərçivəsində dağıdılmış infrastrukturun bərpası, yeni yaşayış məntəqələrinin salınması, yol-nəqliyyat şəbəkələrinin yenilənməsi və sosial xidmətlərin sıfırdan təşkili Azərbaycanın təkcə hərb yox, quruculuq meydanında da öz sözünü deməyə qadir olduğunu göstərir.**



30 ilə yaxın davam edən işğal zamanı ermənilər tərəfindən vəhşicəsinə dağıdılıb viranə qalmış Qarabağ və Şərqi Zəngəzur bu gün dirçəliş dövrünü yaşayır. Keçmiş məcburi köçkünlərin doğma torpaqlarına qayıtması, orada layiqli şəkildə yaşaması üçün genişmiqyaslı tədbirlər görülür. Artıq Böyük qayıdış uğurla reallaşmaqdadır. Bir ilə yaxındır ki, regionda sülh şəraitində yaşamaq imkanı yaranıb və bunun müsbət nəticələri tədricən özünü göstərməkdədir. Bununla belə xalqın hafizəsində dərin iz buraxmış acı hadisələri unutmamaq da tarixi yaddaş baxımından çox əhəmiyyətlidir. Ermənistanın işğal dövründə şəhər və kəndlərimizə, eləcə də dini-mədəni irsimizə vurduğu ziyan, o cümlədən məscidlərin dağıdılması və onların təhqir edilməsi kimi faktlar xalqımızın şüurunda silinməz izlər buraxıb. Xocalı faciəsi isə dövrün ən ağır və ən ağrılı səhifələrindən biri olaraq qalır.

Bütün bu acı xatirələr keçmişdə qalmaqla yanaşı, bu günün reallıqları qarşısında yeni bir mərhələ olan sülh və quruculuq dövrünün başlanğıcını daha da aydın göstərir. Dağıdılmış infrastrukturun yenidən qurulması, müasir şəhər və kəndlərin salınması, nəqliyyat və kommunikasiya xətlərinin bərpası prosesin əsas istiqamətlərindəndir. Eləcə də iqtisadi fəallığın artırılması və keçmiş məcburi köçkünlərin doğma yurdlarına təhlükəsiz şəkildə qayıdışının təmin edilməsi də prioritet məsələlər sırasındadır. Bu addımlar regionun dayanıqlı inkişafına və uzunmüddətli sabitliyinə xidmət edir. Nəqliyyat və logistika infrastrukturunun yaradılması da ilkin vəzifələrdəndir. Füzuli, Zəngilan və Laçında yeni beynəlxalq hava limanlarının tikilib istifadəyə verilməsi regionun ölkədaxili və beynəlxalq əlaqələrini gücləndirən mühüm amilə çevrilib. Paralel olaraq avtomobil və dəmir yolu xətlərinin çəkilişi Qarabağı və Şərqi Zəngəzuru Azərbaycanın digər iqtisadi zonaları ilə birləşdirərək inteqrasiyanı sürətləndirir.

Aqrar sahənin dirçəldilməsi istiqamətində də sistemli tədbirlər görülür. Münbit torpaqlarda yeni suvarma sistemlərinin qurulması, enerji təminatının yaxşılaşdırılması və kənd təsərrüfatı parklarının yaradılması bölgənin iqtisadi potensialını artırır. Xüsusilə heyvandarlıq, üzümçülük, taxılçılıq və bostan məhsulları istehsalı üçün əlverişli şərait formalaşır. Bu isə həm daxili bazarın təminatına, həm də gələcək ixrac imkanlarının genişlənməsinə zəmin yaradır. Şəhərlərin yenidən qurulması, "ağıllı kənd" və digər yaşayış məhəllələrinin salınması, infrastruktur layihələrinin icrası, istehsal və digər iqtisadi obyektlərin yaradılması keçmiş məcburi köçkünlərin Qarabağ və Şərqi Zəngəzura qayıdışına və əzəli torpaqlarımızda layiqli yaşayışına hesablanıb.

Bu genişmiqyaslı tikinti-quruculuq və bərpa işləri azad olunmuş ərazilərin sürətli şəkildə dirçəldilməsinə və burada dayanıqlı məskunlaşmanın təmin edilməsinə xidmət edir. Görülən işlərin miqyası və ardıcıllığı dövlətin bu sahəyə göstərdiyi strateji önəmi aydın şəkildə nümayiş etdirir. Hər iki iqtisadi rayonda aparılan tikinti-quruculuq işlərinin nəticəsidir ki, həm Şərqi Zəngəzura, həm də Qarabağa Böyük qayıdış möhtəşəmdir. Proqrama uyğun olaraq, 2022-ci il oktyabrın 19-da Zəngilanın Ağalı kəndinə başlanan ilk köç prosesi hazırda azad olunmuş digər ərazilərdə uğurla davam edir. 30 ildən artıq məcburi köçkünlük həyatı yaşayan soydaşlarımız böyük sevinc və qürur hissi ilə doğma yurd-yuvalarında məskunlaşırlar.

Məhz bu kontekstdə Prezident İlham Əliyev İslam İnkişaf Bankı Qrupunun (İİB) Bakıda keçirilən 2026-cı il üzrə 51-ci İllik Toplantılarının açılış mərasimindəki çıxışında vurğulayıb: "Ərazilərimizi azad etdikdən dərhal sonra genişmiqyaslı bərpa və yenidənqurma proqramına başladıq. Bu gün artıq Qarabağda və Şərqi Zəngəzurda təxminən 90 min insan yaşayır, çalışır və təhsil alır. Müxtəlif infrastruktur və yaşayış layihələrinin həyata keçirilməsi üçün dövlət büdcəsindən 15 milyard ABŞ dollarından artıq vəsait ayrılıb. Bütün maliyyə mənbələri nəzərə alındıqda isə azad edilmiş ərazilərə yönəldilən ümumi investisiyaların həcmi 17 milyard ABŞ dollarına yaxındır".

Əslində, proses təkcə milli resurslar hesabına deyil, həm də beynəlxalq maliyyə institutlarının dəstəyi ilə daha sürətli və dayanıqlı şəkildə irəliləyir. Bu mənada İİB Qrupu da azad olunmuş ərazilərdə həyata keçirilən bərpa və yenidənqurma prosesinə mühüm maliyyə dəstəyi göstərən beynəlxalq tərəfdaşlardandır. Bankın həmin istiqamətdə ayırdığı investisiyalar regionda infrastrukturun yenidən qurulmasına, sosial-iqtisadi layihələrin icrasına və dayanıqlı inkişafın sürətləndirilməsinə xidmət edir. Bu əməkdaşlıq Qarabağ və Şərqi Zəngəzurun dirçəldilməsi prosesində beynəlxalq maliyyə institutlarının rolunu daha da gücləndirir və Böyük qayıdış proqramının uğurla həyata keçirilməsinə əlavə imkanlar yaradır. Bankın dəstəyi regionun yenidən dirçəldilməsi prosesinə həm maliyyə, həm də texniki baxımdan əlavə güc verir və dayanıqlı inkişaf məqsədlərinə uyğun layihələrin reallaşdırılmasına töhfə verir. Təsadüfi deyil ki, İİB Qrupunun prezidenti Məhəmməd Süleyman Əl-Casir bankın 51-ci İllik Toplantıları çərçivəsində təşkil olunan tədbirdə bildirib: "Qarabağda və Şərqi Zəngəzurda gedən bərpa və yenidənqurma işlərini yerində görmək üçün bölgəyə iki dəfə səfər etmişəm. Baş verən inkişaf olduqca təsiredicidir. İlk maliyyələşdirdiyimiz layihələrdən biri su və irriqasiya sistemi ilə bağlı idi. Hazırda isə 430 milyon dollardan çox böyük bir layihə üzərində çalışırıq. Bu layihə kanalların bərpasını və su itkisinin qarşısının alınmasını nəzərdə tutur".

Göründüyü kimi, Qarabağ və Şərqi Zəngəzurda həyata keçirilən bərpa və yenidənqurma işləri regionun sürətli dirçəlişini təmin edir. Böyük qayıdış proqramı çərçivəsində infrastrukturun yenilənməsi, əhalinin doğma yurdlarına qayıdışı və dayanıqlı inkişafın formalaşdırılması istiqamətində mühüm nəticələr əldə olunmaqdadır.

*Züleyxa ƏLİYEVA,*
*"Azərbaycan"*

# Azərbaycan Respublikası Milli Məclisinin deputatlarının 2026-cı ilin iyul ayında vətəndaşların qəbulu cədvəli

| № | Deputat | Tarix və yer | Əlaqələndirici şəxslər və əlaqə nömrələri |
|---|---|---|---|
| 1. | **Əhmədov Əli Cavad oğlu** | 15, 29 (Bakı şəhəri) | Mais Günəşov +99451 277 0025<br>25sayli_sd@meclis.gov.az |
| 2. | **Əsgərov Ziyafət Abbas oğlu** | 18 (Naxçıvan MR, Sədərək rayonu)<br>25 (Naxçıvan MR, Şərur rayonu) | Günay Orucova +99451 641 9841<br>1sayli_sd@meclis.gov.az |
| 3. | **Qasımlı Musa Cəfər oğlu** | 08 (Yardımlı rayonu)<br>15 (Masallı rayonu) | Adil Mustafayev +99450 676 3526<br>75sayli_sd@meclis.gov.az |
| 4. | **Hüseynov Rafael Baba oğlu** | 02 (Hacıqabul rayonu)<br>09 (Kürdəmir rayonu) | Ceyhun Ağayev +99470 887 7090<br>63sayli_sd@meclis.gov.az |
| 5. | **Abbasov Aqil Məhəmməd oğlu** | 05 (Bakı şəhəri)<br>19 (Ağcabədi rayonu) | Fərhad Əliyev +99451 230 3237<br>85sayli_sd@meclis.gov.az |
| 6. | **Ağamalı Günay Fəzail qızı** | 04 (Salyan rayonu)<br>11 (Biləsuvar və Neftçala rayonları) | Emin Xudiyev +99450 451 2676<br>65sayli_sd@meclis.gov.az |
| 7. | **Ağayeva Ülviyyə Cavanşir qızı** | 05, 19 (Tovuz rayonu)<br>06, 20 (Ağstafa və Qazax rayonları) | Arzu Musayeva +99455 649 3070<br>107sayli_sd@meclis.gov.az |
| 8. | **Ağazadə Əminə Həmid qızı** | 18, 25 (Kürdəmir rayonu) | Namiq Ağayev +99455 298 8050<br>62sayli_sd@meclis.gov.az |
| 9. | **Akimova Elnarə Seydulla qızı** | 02, 09 (Sumqayıt şəhəri) | Soltanov İltifat +99470 860 8644<br>46sayli_sd@meclis.gov.az |
| 10. | **Alıyev Sahib Eyvaz oğlu** | 02, 20 (Ağdaş rayonu) | Rəhman Rəhmanov +99451 277 3003<br>93sayli_sd@meclis.gov.az |
| 11. | **Allahverənov Azər Kərim oğlu** | 08, 15 (Bakı şəhəri) | Ülvi Məmmədəliyev +99455 544 5566<br>29sayli_sd@meclis.gov.az |
| 12. | **Aran Səyyad Adil oğlu** | 04 (İmişli rayonu)<br>18 (Saatlı rayonu) | Pərvin Mahmudov +99450 255 1388<br>Ağa Abışov +99450 775 7477<br>82sayli_sd@meclis.gov.az |
| 13. | **Arpadarai Nigar Cavid qızı** | 08, 22 (Bakı şəhəri) | Nuru Əliyev +99450 341 7126<br>7sayli_sd@meclis.gov.az |
| 14. | **Aslanov Novruzəli Davud oğlu** | 09, 16, 23, 30 (İsmayıllı rayonu) | Kamran Xanlarlı +99450 502 4888<br>89sayli_sd@meclis.gov.az |
| 15. | **Badamov Azər Camal oğlu** | 10, 24 (Qusar rayonu) | General Sadulov +99450 313 2962<br>61sayli_sd@meclis.gov.az |
| 16. | **Bayramov Kamran Fərhad oğlu** | 04 (Göygöl rayonu)<br>11 (Daşkəsən rayonu) | Məmməd Məmmədli +99450 247 9747<br>100sayli_sd@meclis.gov.az |
| 17. | **Bayramov Vüqar İbad oğlu** | 03, 10 (Füzuli rayonu) | Eltun Ağakişiyev +99450 226 8002<br>84sayli_sd@meclis.gov.az |
| 18. | **Bədəlov Bədəl Şamil oğlu** | 11 (Goranboy rayonu)<br>25 (Naftalan şəhəri) | Gündüz Hacıyev +99450 364 9426<br>96sayli_sd@meclis.gov.az |
| 19. | **Bülbüloğlu Polad** | 02, 13 (Bakı şəhəri, Milli Məclisin inzibati binası) | Aydan Hüseynova +99450 777 6725<br>124sayli_sd@meclis.gov.az |
| 20. | **Cəfərov Kamal Xaqani oğlu** | 04, 16 (Sabirabad rayonu) | Nazim Çələbiyev +99451 277 6000<br>68sayli_sd@meclis.gov.az |
| 21. | **Cəfərov Müşfiq Cəfər oğlu** | 04 (Gəncə şəhəri)<br>18 (Samux rayonu) | Sahib Əmiraslanov +99450 627 9252<br>41sayli_sd@meclis.gov.az |
| 22. | **Cəfərova Tamam Şaməmməd qızı** | 01, 08 (Şamaxı rayonu) | Aytəkin Quliyeva +99451 466 0090<br>Nigar Aslanova +99450 5963438<br>88sayli_sd@meclis.gov.az |
| 23. | **Əfəndiyev Məzahir Cavid oğlu** | 02 (Göyçay rayonu)<br>09 (Ağdaş rayonu) | Murad Abdullayev +99451 844 2424<br>92sayli_sd@meclis.gov.az |
| 24. | **Əfəndiyeva Günay Elçin qızı** | 08, 15 (Bakı şəhəri) | Vəfa Mürşüdlü +99450 379 0095<br>14sayli_sd@meclis.gov.az |
| 25. | **Ələkbərov Əziz Yusif oğlu** | 04, 18 (Saatlı rayonu) | Samir Nəsirov +99450 247 4355<br>66sayli_sd@meclis.gov.az |
| 26. | **Əliyev Bəxtiyar Həmzə oğlu** | 02, 09 (Ağdam rayonu) | Vüqar Əbdüləzimov +99450 288 2292<br>119sayli_sd@meclis.gov.az |
| 27. | **Əliyeva Jalə Fazil qızı** | 13 (Zərdab rayonu)<br>14 (Kürdəmir rayonu) | Firdovsi Eyvazov +99450 331 9434<br>95sayli_sd@meclis.gov.az |
| 28. | **Əli-zadə Arzuxan Baxşəli oğlu** | 04, 11 (Bakı şəhəri) | Yəhya Həsənov +99455 814 0555<br>Mövsüm Həsənli +99451 277 0067<br>27sayli_sd@meclis.gov.az |
| 29. | **Əmiraslanov Azər Kamal oğlu** | 08, 24 (Ağstafa rayonu) | Əlövsət Allahyarov +99450 398 4697<br>108sayli_sd@meclis.gov.az |
| 30. | **Əmiraslanov Əhliman Tapdıq oğlu** | 18, 25 (Sabirabad rayonu) | Raqif Xəlilov +99450 277 9638<br>67sayli_sd@meclis.gov.az |
| 31. | **Əsədov Heydər Xanış oğlu** | 17, 24 (Şirvan şəhəri) | Arif Qasımov +99450 3195888<br>51sayli_sd@meclis.gov.az |
| 32. | **Əsgərov Asif Yunis oğlu** | 11, 18 (Zaqatala rayonu) | Elbrus Məmmədov +99455 677 6262<br>112sayli_sd@meclis.gov.az |
| 33. | **Feyziyev Cavanşir Əyyub oğlu** | 04, 25 (Şəki şəhəri) | Turan Salamov +99450 520 6618<br>115sayli_sd@meclis.gov.az |
| 34. | **Fətəliyeva Sevinc Həbib qızı** | 06, 14 (Bakı şəhəri) | Eldar Qurbanov +99450 277 0956<br>30sayli_sd@meclis.gov.az |
| 35. | **Fətiyev Xanlar Nuru oğlu** | 09, 23 (Tərtər rayonu) | Xəyyam Ələkbərzadə +99450 243 9030<br>98sayli_sd@meclis.gov.az |
| 36. | **Gəncəliyev Tural Babaşah oğlu** | 01, 16 (Bakı şəhəri) | Xatirə Əliyeva +99455 722 7431<br>122sayli_sd@meclis.gov.az |
| 37. | **Hacıyev Sabir Kamal oğlu** | 01, 13 (Göyçay rayonu) | Orxan Rzayev +99410 110 0159<br>91sayli_sd@meclis.gov.az |
| 38. | **Həmzəyev Naqif Ələşrəf oğlu** | 02, 24 (Gəncə şəhəri) | Sərxan İmanov +99450 255 1438<br>38sayli_sd@meclis.gov.az |
| 39. | **Həmzəyeva Ülviyyə Tapdıq qızı** | 02, 14 (Naxçıvan MR, Naxçıvan şəhəri) | Araz Xudiyev +99450 658 2375<br>5sayli_sd@meclis.gov.az |
| 40. | **Həsənquliyev Qüdrət Müzəffər oğlu** | 18, 25 (Bakı şəhəri) | Hüseyn Müzəffərli +99450 547 7764<br>36sayli_sd@meclis.gov.az |
| 41. | **Həsənov Malik Əvəz oğlu** | 11, 25 (Cəlilabad rayonu) | Ələddin Əliyev +99451 911 5116<br>71sayli_sd@meclis.gov.az |
| 42. | **Həsənov Nurlan Urfan oğlu** | 10, 17 (Şəmkir rayonu) | Anar Quluyev +99499 299 5599<br>103sayli_sd@meclis.gov.az |
| 43. | **Həsənova Afət Əbil qızı** | 15, 22 (Bakı şəhəri) | Namiq Mustafayev +99450 320 3286<br>32sayli_sd@meclis.gov.az |
| 44. | **Hüseynli Əli Məhəmməd oğlu** | 04, 18 (Yevlax şəhəri) | Bayram Yusifov +99450 262 6131<br>53sayli_sd@meclis.gov.az |
| 45. | **Hüseynov Aydın Nəsir oğlu** | 15, 22 (Bakı şəhəri) | Vüsal Yusifov +99470 200 9878<br>37sayli_sd@meclis.gov.az |
| 46. | **Hüseynova Hicran Kamran qızı** | 08, 29 (Sumqayıt şəhəri) | Elçin Kərimov +99451 460 5334<br>42sayli_sd@meclis.gov.az |
| 47. | **Hüseynova Sevinc Əmirəhməd qızı** | 11, 25 (Gədəbəy rayonu) | Elxan İsmayılov +99450 277 0749<br>104sayli_sd@meclis.gov.az |
| 48. | **Xasayeva Səbinə Səməd qızı** | 02, 09 (Bakı şəhəri) | Gülnarə Məmmədli +99451 582 2505<br>11sayli_sd@meclis.gov.az |
| 49. | **İbrahimqızı Məlahət İbrahim qızı** | 09, 23 (Bakı şəhəri) | Xətai Məmmədli +99450 255 2142<br>21sayli_sd@meclis.gov.az |
| 50. | **İbrahimli Fəzail Feyruz oğlu** | 10, 25 (Cəlilabad rayonu) | Faiq Ağayev +99450 201 5670/<br>+99450 277 5549<br>73sayli_sd@meclis.gov.az |
| 51. | **İbrahimov Eldar Rza oğlu** | 11, 18 (Naxçıvan MR, Naxçıvan şəhəri) | Yasin Bayramov +99450 255 1306<br>4sayli_sd@meclis.gov.az |
| 52. | **İsgəndərov Anar Camal oğlu** | 11, 25 (Lənkəran şəhəri) | Valeh Mikayılov +99450 335 2232<br>78sayli_sd@meclis.gov.az |
| 53. | **İskəndərov Vüqar Yapon oğlu** | 04, 18 (Şəki şəhəri) | Anar Nağıyev +99450 295 0115<br>114sayli_sd@meclis.gov.az |
| 54. | **İsmayılov İmamverdi İbiş oğlu** | 06, 13 (Sumqayıt şəhəri) | Məlahət Əzizova +99450 855 2026<br>125sayli_sd@meclis.gov.az |
| 55. | **İsmayılov Şahin Əmir oğlu** | 11, 25 (Beyləqan rayonu) | Çingiz Səfərov +99450 277 9536<br>83sayli_sd@meclis.gov.az |
| 56. | **İsmayılzadə Fariz Akif oğlu** | 05, 19 (Lənkəran şəhəri) | Mansur Talıbov +99450 369 7882<br>77sayli_sd@meclis.gov.az |
| 57. | **Kərimli Azər Şəmşid oğlu** | 04, 18 (Zaqatala rayonu) | Samir Hüseynzadə +99455 830 1363<br>111sayli_sd@meclis.gov.az |
| 58. | **Kərimzadə Pərvin Orxan qızı** | 06, 20 (Gəncə şəhəri) | Hicran Məmmədova +99450 277 0368<br>39sayli_sd@meclis.gov.az |
| 59. | **Qafarov Kamaləddin Nəsrəddin oğlu** | 02, 29 (Bakı şəhəri) | Nazim Cəfərov +99450 708 6911<br>9sayli_sd@meclis.gov.az |
| 60. | **Qafarov Vasif Vaqif oğlu** | 04, 25 (Lerik rayonu) | Pərviz Ağaxanlı +99455 628 6966<br>80sayli_sd@meclis.gov.az |
| 61. | **Qasımlı Mircəlil Xəqani oğlu** | 01 (Bakı şəhəri)<br>06 (Gəncə şəhəri) | Anar Əliyev +99470 255 9484<br>123sayli_sd@meclis.gov.az |
| 62. | **Qədirli Erkin Toğrul oğlu** | 06, 20 (Bakı şəhəri) | Fariz Zöhrabov +99470 918 3110<br>16sayli_sd@meclis.gov.az |
| 63. | **Qəhrəmanov Göydəniz İbrahim oğlu** | 09, 23 (Bakı şəhəri) | Rəhim Qədirov +99450 555 8845<br>17sayli_sd@meclis.gov.az |
| 64. | **Quliyev Azay Əjdər oğlu** | 07, 15 (Bakı şəhəri) | Asəf Vəliyev +99450 578 5187<br>8sayli_sd@meclis.gov.az |
| 65. | **Quliyev Eldar Allahyar oğlu** | 05, 19 (Bakı şəhəri) | Eynulla Rəsulov +99450 222 6899<br>28sayli_sd@meclis.gov.az |
| 66. | **Quliyev Musa İsa oğlu** | 11, 25 (Gəncə şəhəri) | Göyüş Şəfizadə +99450 255 1442<br>40sayli_sd@meclis.gov.az |
| 67. | **Quliyev Ülvi Zahid oğlu** | 08, 15 (Bakı şəhəri) | Nurlan Qurbanov +99450 241 5156<br>15sayli_sd@meclis.gov.az |
| 68. | **Qurbanlı Mübariz Qəhrəman oğlu** | 03 (Şəmkir rayonu)<br>17 (Samux rayonu) | Elnur Tağıyev +99455 212 8191<br>101sayli_sd@meclis.gov.az |
| 69. | **Qurbanov Eyvaz Daşdəmir oğlu** | 10, 24 (Oğuz şəhəri) | Səxavət Kərəmov +99470 510 6968<br>117sayli_sd@meclis.gov.az |
| 70. | **Qurbanov Sadiq Haqverdi oğlu** | 10, 24 (Salyan rayonu) | Elnur Rəhimov +99455 375 6075<br>64sayli_sd@meclis.gov.az |
| 71. | **Mahmudov Rəşad Məmmədqulu oğlu** | 04, 15 (Astara rayonu) | Həsənağa Əskərli +99477 542 0770<br>79sayli_sd@meclis.gov.az |
| 72. | **Məhəməliyev Nəsib Məhəmməd oğlu** | 04, 18 (Balakən rayonu) | Yusif Mirzəyev +99450 213 6259<br>110sayli_sd@meclis.gov.az |
| 73. | **Məhərrəmov Bəhruz Abdurrəhman oğlu** | 18, 25 (Biləsuvar rayonu) | Əfsun Əlizadə +99450 277 0436<br>69sayli_sd@meclis.gov.az |
| 74. | **Məhərrəmzadə Əlibala Səttar oğlu** | 04, 25 (Quba rayonu) | Elnur Xəlilov +99455 308 4950<br>59sayli_sd@meclis.gov.az |
| 75. | **Məmmədli Müşfiq Fazil oğlu** | 08, 15 (Siyəzən rayonu) | Nəsimi Əliyev +99455 887 1314<br>55sayli_sd@meclis.gov.az |
| 76. | **Məmmədov Anar İlyaz oğlu** | 11, 12 (Tərtər rayonu)<br>25 (Kürdəmir rayonu)<br>26 (Goranboy rayonu) | Elçin Cahangirov +99450 324 2791<br>97sayli_sd@meclis.gov.az<br>anarmammadov@meclis.gov.az |
| 77. | **Məmmədov Ceyhun Valeh oğlu** | 05 (Biləsuvar rayonu)<br>12 (Bakı şəhəri) | Rəşad Quliyev +99455 847 5621<br>120sayli_sd@meclis.gov.az |
| 78. | **Məmmədov Elman Camal oğlu** | 01, 08 (Bakı şəhəri) | Mahir Rzayev +99450 288 6629 / +99470 290 0335<br>118sayli_sd@meclis.gov.az |
| 79. | **Məmmədov Hikmət Baba oğlu** | 01, 14 (Bakı şəhəri) | Azər Quliyev +99450 277 1219<br>19sayli_sd@meclis.gov.az |
| 80. | **Məmmədov İlham Kazım oğlu** | 04, 18 (Yevlax şəhəri) | Rüstəm Əliyev +99450 277 7417<br>52sayli_sd@meclis.gov.az |
| 81. | **Məmmədov Qaya Məmməd oğlu** | 08, 15 (Bakı şəhəri) | Samir Əliyev +99455 377 3102<br>31sayli_sd@meclis.gov.az |
| 82. | **Məmmədov Məşhur Şahbaz oğlu** | 04, 18 (Masallı rayonu) | Əli Nağıyev +99450 210 8641<br>74sayli_sd@meclis.gov.az |
| 83. | **Məmmədov Soltan Teymur oğlu** | 11, 18 (Bakı şəhəri) | Xətai Salmanov +99450 255 1446<br>12sayli_sd@meclis.gov.az |
| 84. | **Məmmədova Nigar Fikrət qızı** | 01, 09 (Abşeron rayonu) | Bikəxanım Qulaməddinova +99451 277 0014<br>48sayli_sd@meclis.gov.az |
| 85. | **Məsimli Əli Əhməd oğlu** | 25 (Qax rayonu)<br>26 (Şəki rayonu) | Vüsal Baxışov +99455 511 2287<br>113sayli_sd@meclis.gov.az |
| 86. | **Mikayılova Sevil Əlirazı qızı** | 06, 13 (Xaçmaz rayonu) | İradə Çobanova +99455 730 8606<br>58sayli_sd@meclis.gov.az |
| 87. | **Mirkişili Tahir Famil oğlu** | 06, 20 (Sumqayıt şəhəri) | Cavid Quliyev +99451 520 2211<br>43sayli_sd@meclis.gov.az |
| 88. | **Mirzəbəyli Elçin Əbdülrəhim oğlu** | 04, 11 (Ağsu rayonu) | İbrahim Bağırlı +99455 268 8484<br>90sayli_sd@meclis.gov.az |
| 89. | **Mirzəzadə Aydın Böyükkişi oğlu** | 10, 24 (Mingəçevir şəhəri) | Pərviz Məmmədov +99451 373 2443<br>54sayli_sd@meclis.gov.az |
| 90. | **Mollazadə Asim Nazim oğlu** | 01, 15 (Bakı şəhəri) | Samir Quliyev +99455 223 7272<br>22sayli_sd@meclis.gov.az |
| 91. | **Möhbalıyev Səttar Suliddin oğlu** | 06, 16 (Naxçıvan MR, Babək rayonu) | Rizvan Hüseynquliyev +99470 744 2537 /<br>+99450 649 7066<br>3sayli_sd@meclis.gov.az |
| 92. | **Muradov Rövşən Şahbaz oğlu** | 07, 21 (Bakı şəhəri) | Rauf Nəcəfli +994 55 508 6055<br>124sayli_sd@meclis.gov.az |
| 93. | **Musabəyov Rasim Nəsrəddin oğlu** | 07, 21 (Bakı şəhəri) | Asif Nəsibov +99450 288 2725<br>18sayli_sd@meclis.gov.az |
| 94. | **Musayev Elşad Nəbi oğlu** | 04, 11 (Bakı şəhəri) | Vüqar Qasımov +99455 774 9919<br>10sayli_sd@meclis.gov.az |
| 95. | **Musayev Elşən Məmmədhənifə oğlu** | 11, 18 (Qəbələ rayonu) | Cəfər Əliyev +99455 288 0089<br>116sayli_sd@meclis.gov.az |
| 96. | **Mustafa Fazil Qəzənfər oğlu** | 06, 13, 20 (Bakı şəhəri) | Əjdər Əliyev +99450 385 3950<br>26sayli_sd@meclis.gov.az |
| 97. | **Nağıyev Arzu Nəsib oğlu** | 11 (Tovuz rayonu)<br>25 (Gədəbəy rayonu) | Elşad İsmayılov +99450 336 0212<br>105sayli_sd@meclis.gov.az |
| 98. | **Namazov Ramid Zakir oğlu** | 06, 20 (Abşeron rayonu) | Bəxtiyar Məmmədov +99455 412 1986<br>50sayli_sd@meclis.gov.az |
| 99. | **Nəbiyev Rizvan Novruz oğlu** | 09, 30 (Xırdalan şəhəri) | Rişad Abbasov +99499 766 8868<br>49sayli_sd@meclis.gov.az |
| 100. | **Nəsirov Elman Xudam oğlu** | 08, 16 (Cəlilabad rayonu) | Üzeyir Mustafayev +99450 797 4425<br>72sayli_sd@meclis.gov.az |
| 101. | **Novruzov Siyavuş Dünyamalı oğlu** | 09, 22 (Naxçıvan MR, Şərur rayonu) | İbrahim Orucov +99460 460 6061<br>2sayli_sd@meclis.gov.az |
| 102. | **Nurullayev Razi Qulaməli oğlu** | 07, 21 (İmişli rayonu) | Vüqar Süleymanov +99450 247 8777<br>81sayli_sd@meclis.gov.az |
| 103. | **Nurullayeva Könül Oruc qızı** | 02, 16 (Bakı şəhəri) | Sabit Mahmudov +99450 206 0254 /<br>+99455 276 2375<br>24sayli_sd@meclis.gov.az |
| 104. | **Oruc Zahid Məhərrəm oğlu** | 10, 24 (Bakı şəhəri) | Ceyhun Fərəcov +99450 288 2093<br>33sayli_sd@meclis.gov.az |
| 105. | **Paşayeva Gülşən Məmmədəli qızı** | 04, 15 (Bakı şəhəri) | Ramin Ağacanov +99455 226 2607<br>13sayli_sd@meclis.gov.az |
| 106. | **Paşazadə Cavanşir Hümmət oğlu** | 05, 17 (Lənkəran rayonu) | Sulduz Ağayev +99450 328 2123<br>76sayli_sd@meclis.gov.az |
| 107. | **Rafailov Anatoliy Xaimoviç** | 04, 11 (Quba rayonu) | Qəhrəman Qasımov +99450 364 3926 /<br>+99450 744 0526<br>60sayli_sd@meclis.gov.az |
| 108. | **Rəhimzadə Vüqar Gəncəli oğlu** | 08 (Naxçıvan MR, Ordubad rayonu)<br>22 (Naxçıvan MR, Culfa rayonu) | Məhərrəm Əliverdiyev +99470 230 0777<br>6sayli_sd@meclis.gov.az |
| 109. | **Rüstəmxanlı Tənzilə Yolçu qızı** | 09, 23 (Neftçala rayonu) | Fərman Hüseynov +99450 339 7415<br>70sayli_sd@meclis.gov.az |
| 110. | **Rzayev Tahir Musa oğlu** | 08, 09, 27, 28 (Ağcabədi rayonu) | Samir Məmmədov +99451 423 3395<br>86sayli_sd@meclis.gov.az |
| 111. | **Salmanova Səbinə Qədir qızı** | 02, 13 (Sumqayıt şəhəri) | Mirmahmud Mahmudov +99470 288 9638<br>45sayli_sd@meclis.gov.az |
| 112. | **Seyidov Səməd İsmayıl oğlu** | 02, 13 (Qazax rayonu) | Qədir Mehtixanlı +99470 502 3932 /<br>+99455 678 4859<br>109sayli_sd@meclis.gov.az |
| 113. | **Seyidzadə Şahin Kamil oğlu** | 01 (Qobustan rayonu)<br>08 (İsmayıllı rayonu) | Elman Mikayılov +99450 600 25 50<br>87sayli_sd@meclis.gov.az |
| 114. | **Səfərov Nizami Abdulla oğlu** | 03, 21 (Tovuz rayonu) | Elbəy Bədirov +99450 869 6767<br>106sayli_sd@meclis.gov.az |
| 115. | **Səmədzadə Ziyad Əliabbas oğlu** | 09, 30 (Bakı şəhəri) | Quliyev Azad +99450 216 4311<br>23sayli_sd@meclis.gov.az |
| 116. | **Süleymanlı Mahir Tahir oğlu** | 10, 24 (Şabran rayonu) | Orxan Süleymanov +99455 319 1717<br>56sayli_sd@meclis.gov.az |
| 117. | **Şükürov Zaur Ramiz oğlu** | 06 (Abşeron rayonu)<br>13 (Sumqayıt şəhəri) | Aslan Talıbov +99455 283 6367<br>47sayli_sd@meclis.gov.az |
| 118. | **Vəliyev Ağalar İsrəfil oğlu** | 02, 16 (Xaçmaz rayonu) | İlham Musayev +99450 275 0111<br>57sayli_sd@meclis.gov.az |
| 119. | **Vəliyev Samir Əhməd oğlu** | 02, 14 (Bakı şəhəri) | Vüsal Əliyev +99450 277 8842<br>20sayli_sd@meclis.gov.az |
| 120. | **Vəliyeva Mehriban Hidayət qızı** | 01, 13 (Sumqayıt şəhəri) | Ramiz Alıyev +99450 518 3434<br>44sayli_sd@meclis.gov.az |
| 121. | **Vəliyeva Pərvanə Bulut qızı** | 09, 30 (Bakı şəhəri) | Kamil Hacıyev +99455 811 3330<br>35sayli_sd@meclis.gov.az |
| 122. | **Yıldırım Fatma Vidadi qızı** | 09, 17 (Bərdə rayonu) | Fuad Ağayev +99455 420 8040<br>99sayli_sd@meclis.gov.az |
| 123. | **Zabelin Mixail Yuryeviç** | 11, 25 (Bakı şəhəri) | Səfi Qasımov +99455 941 9898<br>34sayli_sd@meclis.gov.az |

Qəbul saatları və yerləri barədə ətraflı məlumat əldə etmək, həmçinin qəbula yazılmaq üçün cədvəldə qeyd olunan telefon nömrələri ilə əlaqə saxlamaq tövsiyə olunur.





# Mədəniyyət





● Müslüm Maqomayev adına Azərbaycan Dövlət Akademik Filarmoniyası - 90

# Daşların harmoniyası: füsunkarlığı ilə hamını heyran edən musiqi məbədi

**"Şəhərsalma və Memarlıq İli" çərçivəsində paytaxtımızın hər bir tarixi binası özünəməxsus ehtişamı ilə yenidən gündəmə gəlir. Həmin möhtəşəm abidələr sırasında şəhərsalma tariximizin ən parlaq səhifələrindən birini təşkil edən, Bakının qədim mərkəzində ucalan Müslüm Maqomayev adına Azərbaycan Dövlət Akademik Filarmoniyası xüsusi yer tutur. Bu gün respublikamızın baş musiqi məbədi həm şəhərsalma irsi, həm də rəsmi fəaliyyətinin 90 illik yubileyi fonunda özünün qızıl dövrünü yaşayır.**



## Monte-Karlodan Bakıya uzanan memarlıq körpüsü

İçərişəhər divarlarının ətəyində, Niyazi və İstiqlaliyyət küçələrinin kəsişməsində yerləşən bu gözəl binanın inşası şəhərimizin memarlıq simasını kökündən dəyişmişdir. 1910-1912-ci illərdə polyak mənşəli tanınmış mülki mühəndis Qavriil Ter-Mikelovun layihəsi əsasında tikilən bina italyan renessansı və rokoko üslublarının mükəmməl sintezidir. Müəllifin məşhur Monte-Karlo əyləncə klubunun (kazino) memarlıq motivlərindən ilhamlanaraq ərsəyə gətirdiyi bu layihə Bakının relyefinə və iqliminə uyğunlaşdırılmışdır. Bina ilk olaraq Bakı milyonçularının və şəhər elitasının asudə vaxtını səmərəli keçirməsi üçün "İctimai toplantıların yay binası" (yay klubu) kimi istifadəyə verilmişdir. Binanın unikal yay və qış zalları, xüsusilə də dəniz mehini və akustikanı tənzimləyən mühəndis həlli onu dünyasəviyyəli memarlıq nümunəsinə çevirmişdir.



Deyilənə görə, binanın inşası zamanı Bakı neft sənayesinin atası və böyük xeyriyyəçi Hacı Zeynalabdin Tağıyev memarın qarşısında çox kəskin və maraqlı bir şərt qoyur: səs və akustika şərti. Tağıyev layihə ilə tanış olarkən binanın həm qapalı, həm də açıq (yay) zallarının olacağını görür. O, memara deyir: "Bina elə tikilməlidir ki, mən İçərişəhərdəki evimin pəncərəsini açanda və ya eyvanda oturanda filarmoniyanın yay zalında çalınan musiqini, oxunan mahnını aydın eşidə bilim". Memar Ter-Mikelov bu şərti yerinə yetirmək üçün tikilinin yay zalını dəniz tərəfə baxan xüsusi amfiteatr formasında layihələndirir. Binanın arxasındakı İçərişəhər divarları isə təbii bir rezonator (səsgücləndirici) rolu oynayır. Nəticədə səs dalğaları şəhərin yuxarı hissələrinə, o cümlədən Tağıyevin mülkünə qədər maneəsiz və təmiz şəkildə çatır.

## Binanın memarlıq və heykəltaraşlıq sintezi

Müslüm Maqomayev adına Azərbaycan Dövlət Akademik Filarmoniyasının binası bədii memarlıq üslubu, daxili planı və mühəndislik həlləri baxımından şəhərsalma tariximizin ən mükəmməl tikililərindən biridir. Bina italyan renessansı (Palladianizm) və fransız rokoko üslublarının parlaq sintezidir. Memar tikilinin xarici eksteryerində Fransa rivyerasındakı məşhur Monte-Karlo kazinosunun memarlıq elementlərindən və teras formalarından ilhamlanmışdır. Tikili dağlıq relyefdə, terraslı şəkildə yerləşir və bu, binanın fasadına xüsusi bir əzəmət və vizual dərinlik qazandırır. Binanın daxili hissəsində zəngin suvaq gips bəzəkləri, qızılı işləmələr və korinf orderli sütunlar üstünlük təşkil edir. Əsas konsert zalı təxminən 1100 nəfərlik tamaşaçı tutumuna malikdir. Zalın tavan, divar və lojalarının daxili quruluşu elə hesablanmışdır ki, səhnədəki ən zəif səs belə zalın ən uzaq nöqtəsinə təbii şəkildə çatır.

Binanın dəniz tərəfə baxan fasadında xüsusi olaraq açıq havada konsertlər keçirmək üçün yay zalı inşa edilmişdir. Bu hissə qədim yunan və Roma amfiteatrları üslubundadır. Oturacaqlar yarımçevrə şəklində pilləli düzülmüşdür. Yay zalının arxasında yerləşən qədim İçərişəhər qala divarları səs dalğalarını geri qaytararaq açıq havada unikal bir akustik effekt yaradır.

Binanın memarlıq və heykəltaraşlıq sintezi onun hər bir detalında özünü büruzə verir. Fasadın heykəltaraşlıq plastikasına gəldikdə binanın xarici görünüşü zərif barelyeflər, bədii oyma naxışlar və klassik heykəltaraşlıq formaları ilə zəngindir. Pəncərə tağlarının üzərindəki qadın büstləri (maskaronlar) və relyefli gips ornamentlər binaya klassik Avropa saraylarının əzəmətini bəxş edir.

Fasadın əsas kompozisiyasını bəzəyən antik memarlıq elementləri, eyvan və lojaları saxlayan dekorativ sütunlar relyefli heykəltaraşlıq işçiliyi ilə işlənmişdir. Binanın mərkəzi hissəsini qapayan sferik gümbəz, kənarlarda ucalan və zərif relyefli vazalarla tamamlanan iki möhtəşəm qüllə (rotonda) Bakının ümumi şəhərsalma panoramasında ritmik bir heykəltaraşlıq silueti yaradır. Əgər binanın xarici divarları italyan intibahının monumental heykəltaraşlıq qaydalarına ciddi tabedirsə, daxili konsert zalı tamamilə fərqli bir ab-havadadır. Rokoko üslubunun qızılı işləmələri, dəniz balıqqulağı (rokayl) motivli relyefləri və divarlardakı lirik bədii suvaq (ştuk) sənəti daxili məkana vizual musiqi ritmi bəxş edir. "Şəhərsalma və Memarlıq İli"ndə bu binanın hər bir relyefi və cizgisi Bakının əsrlər boyu müxtəlif mədəniyyətlərin incilərini özündə necə ustalıqla sintez etdiyinin əyani sübutudur.

## 1936-cı ildən başlayan salnamə

1920-ci ilə qədər bura Bakı neft sənayeçilərinin toplaşdığı lüks bir məkan olmuşdur. Azərbaycanda sovet hakimiyyəti qurulduqdan sonra pərakəndə fəaliyyət göstərən müxtəlif ansambllar, orkestrlər və xalq musiqiçiləri bu binada cəmləşmişdilər. Ona görə də SSRİ-nin digər respublikalarında olduğu kimi, Azərbaycanda da vahid musiqi mərkəzinin yaradılması zərurəti yaranmışdı və 1936-cı ilin mayında Dövlət Filarmoniyası rəsmi olaraq fəaliyyətə başlamışdı. 11 avqust 1937-ci ildə Xalq Komissarları Sovetinin qərarı ilə filarmoniyaya görkəmli bəstəkar, Azərbaycan klassik musiqisinin banilərindən biri olan Müslüm Maqomayevin adı verilmişdir.

Filarmoniyanın formalaşmasında Üzeyir bəy Hacıbəyli, Soltan Hacıbəyov, Niyazi və Bülbül kimi nəhəng sənətkarların əvəzsiz xidmətləri olmuş, ilk milli orkestr və xor kollektivləri məhz burada yaradılmışdır.

1941-1945-ci illər müharibəsi dövründə Bakı filarmoniyası cəbhə arxasında döyüşçülərin və xalqın mənəvi ruhunu ucaldan ən mühüm ideoloji təbliğatçılardan birinə çevrilmişdir. Müharibənin ilk günlərindən etibarən filarmoniyanın rəhbərliyi (başda Üzeyir bəy Hacıbəyli olmaqla) xüsusi "Cəbhə konsert briqadaları" yaratmışdı. Artistlər, xanəndələr və musiqiçilər birbaşa ön cəbhəyə, hospitallara gedərək əsgərlər üçün ruhlandırıcı konsertlər verirdilər. Müalicə mərkəzlərində hər gün musiqi proqramları təşkil olunurdu. Bu, yaralıların reabilitasiyasında böyük rol oynayırdı. Həmin illərdə xalqı qələbəyə səsləyən bir çox vətənpərvərlik mahnısı, marş və simfonik əsər (məsələn, Qara Qarayev və Cövdət Hacıyevin "Vətən" operası) məhz bu binanın səhnəsində ilk dəfə ifa olunaraq xalqın mənəvi gücünü artırırdı.

Filarmoniya 1936-cı ildə rəsmi dövlət statusu alaraq təsis edilərkən onun ilk milli kollektivlərinin (orkestr, xor və rəqs ansamblları) formalaşmasında bədii rəhbər qismində dahi bəstəkar Üzeyir bəy Hacıbəyli misilsiz rol oynamışdır. Bu musiqi məbədinə bəstəkar Soltan Hacıbəyov və rejissor Şəmsi Bədəlbəyli kimi nəhəng simalar direktorluq etmişlər.

Xalq artisti, görkəmli Azərbaycan bəstəkarı və pedaqoqu Soltan Hacıbəyov filarmoniyaya uzun müddət - 1947-ci ildən 1962-ci ilədək rəhbərlik etmişdir. Onun rəhbərliyi dövründə filarmoniyanın tabeliyindəki musiqi kollektivləri tam peşəkar səviyyəyə yüksəlmişdir. O, klassik simfonik musiqi ilə yanaşı, xalq musiqiçilərinin və xanəndələrin də filarmoniya səhnəsində geniş təmsil olunmasını təmin etmiş, gənc bəstəkarların əsərlərinin ifasına xüsusi dəstək vermişdir.

Xalq artisti, görkəmli teatr rejissoru Şəmsi Bədəlbəyli filarmoniyaya rəhbərlik etdiyi qısa dövrdə konsertlərin bədii quruluşuna, səhnə tərtibatına və daxili nizam-intizama böyük yeniliklər gətirmişdir. Rejissor baxışı sayəsində filarmoniyanın xüsusilə "Yay zalı"ndakı kütləvi konsertlər bədii cəhətdən zənginləşmiş, musiqinin teatrallaşdırılmış elementlərlə sintezinə nail olunmuşdur.

SSRİ-nin son dövrlərində və müstəqilliyin ilk illərində filarmoniyanın idarəçiliyində müxtəlif tanınmış mədəniyyət xadimləri fəaliyyət göstərmişlər. Bu şəxslər binanın qəzalı vəziyyətdə olduğu 1990-cı illərin çətin iqtisadi və siyasi keçid dövründə musiqi kollektivlərinin dağılmasının qarşısını almış və yaradıcı heyəti qoruyub saxlamışlar. 1996-2004-cü illərdə binada dövlət səviyyəsində irimiqyaslı və əsaslı bərpa-təmir işləri aparılmışdır. 27 yanvar 2004-cü ildə bina müasir akustik avadanlıqlar və tarixi görkəmi qorunmaqla yenidən qapılarını sənətsevərlərin üzünə açmışdır. Xalq artisti Murad Adıgözəlzadə əsaslı təmirdən sonra fəaliyyətini bərpa edən filarmoniyanın idarəçiliyini öz üzərinə götürmüşdür. Onun dövründə filarmoniya beynəlxalq statuslu festivalların - Üzeyir Hacıbəyli Beynəlxalq Musiqi Festivalı, Qəbələ Beynəlxalq Musiqi Festivalının, Bakı konsertlərinin baş mərkəzinə çevrilmişdir. O, həmçinin xarici ölkələrdən gələn dünyaşöhrətli simfonik və kamera orkestrlərinin proqramlarını təşkil edərək müasir idarəçilik sistemi qurmuşdur.

Bu möhtəşəm konsert təşkilatında 7 kollektiv fəaliyyət göstərir. Ü.Hacıbəyli adına Azərbaycan Dövlət Simfonik Orkestri, Azərbaycan Dövlət Xor Kapellası, Q.Qarayev adına Azərbaycan Dövlət Kamera Orkestri, F.Əmirov adına Əməkdar Kollektiv Azərbaycan Dövlət Mahnı və Rəqs Ansamblı və bu kollektivin nəzdində fəaliyyət göstərən Azərbaycan Dövlət Xalq Çalğı Alətləri Orkestri, Bakı Dövlət Kamera Orkestri, Azərbaycan Dövlət Rəqs Ansamblı və Azərbaycan Dövlət Simli Kvarteti. M.Maqomayev adına Azərbaycan Dövlət Akademik Filarmoniyası respublikanın aparıcı konsert təşkilatıdır. Filarmoniya klassik musiqinin təbliği və təşviqində müstəsna rol oynayır.

Bir faktı qeyd edək ki, Azərbaycan Dövlət Simfonik Orkestri 1920-ci ildə Üzeyir bəy Hacıbəylinin təşəbbüsü ilə yaradılıb. Tez bir zamanda orkestr Qlinkanın, Çaykovskinin, Musorqskinin, Rimski-Korsakovun, Motsartın, Bethovenin, Şubertin, Berliozun, Mendelsonun, Vaqnerin, Listin və başqa bəstəkarların əsərlərini yüksək səviyyədə, peşəkarlıqla ifa etməyə başlayıb. Müxtəlif illərdə Dövlət Simfonik Orkestri ilə dirijorlardan M.Çernyaxovski, U.Qoldşteyn, A.Stolerman və başqaları işləmişlər.

Bu musiqi məbədi Azərbaycan mədəniyyətinin inkişafındakı yüksək xidmətlərinə görə sonradan "akademik" statusa layiq görülmüşdür. "Şəhərsalma və Memarlıq İli"ndə möhtəşəm bina həm də paytaxtın vizual simasının formalaşmasında ən uğurlu tarixi şəhərsalma nümunəsi kimi böyük rəğbət doğurur.

Zaman sürətlə axıb gedir, şəhərlər böyüyür, memarlıq trendləri dəyişir. Lakin Müslüm Maqomayev adına Azərbaycan Dövlət Akademik Filarmoniyası 90 illik tarixi boyu dəyişməz qalan bir dəyərin rəmzi olaraq yaşayır: bu, milli ruhun və sənətə olan sonsuz sevginin simvoludur.

***İradə ƏLİYEVA,***
***İlham BABAYEV (foto),***
***"Azərbaycan"***

● Cahangir Cahangirov - 105

# O, peşəkar musiqidə azsaylı zirvələrdəndir

**Azərbaycan bəstəkarlıq məktəbinin görkəmli nümayəndələrindən olan Cahangir Cahangirov musiqi tariximizi öz yaradıcılıq irsi ilə zənginləşdirmişdir. Bəstəkarın yaradıcılığı müxtəlif janr və formaları əhatə etmiş, yaradıcılıq üslubu və fərdi bəstəkarlıq xüsusiyyətləri hər bir əsərində öz əksini tapmışdır.**



Cahangir Cahangirov dahi Üzeyir bəy Hacıbəylinin, eyni zamanda dünya klassik bəstəkarlarının ənənələrinə əsaslanan istedadlı bəstəkar, dirijor-xormeystr, ictimai xadim və pedaqoq olmuşdur. Yaradıcılığa 1940-cı illərdə qədəm qoyan bəstəkar bir-birinin ardınca gözəl əsərlər yaradaraq inkişaf etmişdir. O, bəstəkarlıq sahəsində ilk addımlarını mahnı və xor musiqisi ilə başlamış və bütün yaradıcılığı boyu məhz bu janra üstünlük vermişdir.

Cahangir Cahangirov 1921-ci ildə Balaxanıda anadan olmuşdur. A.Zeynallı adına Bakı Musiqi Məktəbində, Azərbaycan Dövlət Konservatoriyasında təhsil almışdır. Mütəxəssislərin fikrinə görə, Cahangir Cahangirovun xor sahəsindəki yaradıcılığı əsası Üzeyir bəy tərəfindən qoyulan Azərbaycan xor sənətində zirvə sayılır. 1949-cu ildən başlayaraq bəstəkar Azərbaycan radiosunun nəzdində yaradılan xora rəhbərlik edərək 15 ildən artıq bu kollektivlə birgə işləyib. Müəllifin yazdığı mahnıların çoxu ilk dəfə həmin kollektivin ifasında səslənib. Habelə o, Azərbaycan Dövlət Filarmoniyasının nəzdindəki Mahnı və Rəqs Ansamblının bədii rəhbəri olub.

Bəstəkarın yaradıcılığı çoxşaxəliliyi ilə seçilir. 1945-ci ildə vətənpərvərlik yanğısı ilə Təbrizdə qurulmuş "Azərbaycan Milli Hökuməti" himninin musiqisini bəstələyən bəstəkarın bu sıradan xor və instrumental musiqiləri, operaları, bir-birindən gözəl mahnıları var. Bunlara misal olaraq bəstəkarın xor musiqisi sahəsində maraqlı əsərlərindən "Arazın o tayında" poemasını, 12 hissədən ibarət "Dostluq mahnısı" kompozisiyasını, "Azad" və "Xanəndənin taleyi" operalarının xor nömrələrini, "Füzuli", "Nəsimi", "Aşıq Alı" kantatalarını, "Sabir" oratoriyasını, Süleyman Ələsgərovla birlikdə yazdığı odanı, onlarca xor miniatürlərini göstərmək olar. Sadalanan əsərlərdən xüsusilə "Füzuli" kantatası Cahangir Cahangirova böyük şöhrət gətirib. O, kantatada böyük şairin möhtəşəm obrazını onun daxili aləminin özünəməxsus təsirli və qəlboxşayan musiqi dili ilə aça bilib. Kantatanın mətn əsasını Füzulinin üç qəzəli təşkil edir. Hər bir qəzəl isə öz növbəsində bir hissəni özündə birləşdirir.

1949-cu ildə "Arazın o tayında" vokal simfonik poemasını yaradaraq bu əsərə görə SSRİ Dövlət mükafatı laureatı adına layiq görülür. 1950-ci ildə "Arazın o tayında" poeması Moskvanın sütunlu salonunda və Leninqradda ifa olunub, lent yazısı isə Ümumittifaq Radiosunun Qızıl fonduna daxil edilib. Böyük bəstəkar 1962-ci ildə Mirzə Ələkbər Sabirin 100 illik yubileyi münasibətilə xor və simfonik orkestr üçün "Sabir" oratoriyasını yazıb.

Cahangir Cahangirov "Azad" və "Xanəndənin taleyi" adlı iki operanın müəllifidir. Hər iki əsərində C.Cahangirov musiqi klassikamızın korifeyi Üzeyir bəy Hacıbəylinin sənət ənənələrini davam etdirib. Məlumdur ki, xanəndənin repertuarı muğam və təsniflərdən ibarət olur. Operanın qəhrəmanı özü xanəndə olsa da, müəllif ifaçılıq sənətinin materialı kimi muğamlardan sitat şəklində istifadə etməyi qarşısına məqsəd qoymayıb. Lakin onun operadakı musiqi materialı başdan-başa muğam boyaları ilə rövnəqlənib. 1957-ci ildə Xalq yazıçısı Mirzə İbrahimovun eyniadlı əsəri əsasında bəstələdiyi "Azad" operasında istismar olunan bir xalqın ağır işgəncələrlə dolu həyat tərzi, azadlıq yolunda mübarizəsi əks etdirilib. Librettonun müəllifi və tamaşanın quruluşçu rejissoru Kərim Kərimovdur.

Cahangir Cahangirovun irihəcmli, mürəkkəb formalı görkəmli əsərləri ilə yanaşı, musiqi xəzinəmizi zənginləşdirən çoxlu mahnıları da var. Bu mahnılar asanlıqla ürəklərə yol tapır. Cahangir sənətinin başlıca məziyyəti müasirlik və dövrün tələbi ilə ayaqlaşmaqdır. Məhz bunun üçündür ki, bəstəkarın mahnıları müasirlərimizin ürək çırpıntılarını, xoş arzusunu, istəyini ifadə edir, adamları qurmağa, yaratmağa səsləyir. Onun "Ana", "Aylı gecələr", "Bakı", "Dan ulduzu, bir də mən", "Ay qız", "Ala göz" və s. bəstəkar mahnıları dillər əzbəridir. Bəzi gözəl mahnıları məhz teatr tamaşalarından, ekrandan "ayrılaraq" xalq arasında geniş yayılıb. Bu mənada "Yenilməz batalyon" filmindən "Teymurun mahnısı"nı, "Koroğlu" filmindən "Xanəndə qızın mahnısı"nı, "Dəli Kür" filmindən "Ana Kür" və "Bayatılar" mahnılarını yada salmaq yerinə düşər. Bu mahnılarda lirik ifadə çox güclüdür. Onu da qeyd edək ki, Cahangir Cahangirov uzun müddət tanınmış şair Zeynal Cabbarzadə, İslam Səfərli və Rəfiq Zəka ilə birlikdə çalışıb.

Şairlərdən söz düşmüşkən, Füzuli dühası, Füzuli lirikası Cahangir Cahangirovun yaradıcılıq təxəyyülünə çox yaxındır. O üzdən bəstəkar vaxtaşırı Füzuli şeiriyyatından ilhamlanaraq ürəyəyatımlı əsərlər bəstələyib. Bu baxımdan onun Füzulinin qəzəllərinə bəstələdiyi vokal miniatürləri, xüsusilə "Eşitməzdim" qəzəl-romansı həddindən artıq cəlbedicidir.

Azərbaycan musiqi mədəniyyətinin inkişafında xidmətlərinə görə, bəstəkar 1950-ci ildə "Stalin" mükafatına, 1958-ci ildə Azərbaycan SSR Əməkdar incəsənət xadimi, 1963-cü ildə Azərbaycan SSR Xalq artisti fəxri adlarına, iki dəfə "Qırmızı Əmək Bayrağı" ordeninə layiq görülmüşdür. Haqqında "Bəstəkar Cahangir Cahangirov" adlı sənədli film çəkilmişdir.

Xalqımızın qəlbində əbədiyaşarlıq qazanan Cahangir Cahangirov 1992-ci ildə dünyasını dəyişmişdir.

***Rəhman SALMANLI,***
***"Azərbaycan"***

# Heydər Əliyev Sarayının səhnəsində film-tamaşa - "Bizim Maqsud müəllim"

**Heydər Əliyev Sarayında Xalq yazıçısı Maqsud İbrahimbəyovun yaradıcılığına həsr olunmuş "Bizim Maqsud müəllim" film-tamaşasının premyerası olub. Layihə Mədəniyyət Nazirliyi tərəfindən Heydər Əliyev Sarayı və Maqsud İbrahimbəyov Yaradıcılıq Mərkəzinin iştirakı ilə həyata keçirilib.**



Layihə görkəmli yazıçı, dramaturq və kinossenarist Maqsud İbrahimbəyovun anadan olmasının 90 illik yubileyinin qeyd edilməsi haqqında Prezident İlham Əliyevin imzaladığı müvafiq sərəncama əsasən həyata keçirilir.

Səhnə əsərində Maqsud İbrahimbəyovun yaradıcılığı əsasında uşaqlıqdan hər kəsin sevdiyi qəhrəmanlar yeni təqdimatda tamaşaçıların qarşısına çıxıblar. Tamaşa Azərbaycan kinosunun "Qızıl fondu"na daxil olan "Uşaqlığın son gecəsi" və "Bizim Cəbiş müəllim" bədii filmlərindən elementlərin, eləcə də müxtəlif ekran əsərlərindəki personajları bir araya gətirən bədii təxəyyül məhsulu olan yeni səhnələrin sintezi üzərində qurulub.

Kinokamera səhnədə baş verənləri çəkir, real vaxt görüntüsü isə böyük ekranda yayımlanır. Tamaşaçılar yaddaqalan epizodların yenidən canlandığını, yeni səhnələrin necə yaradıldığını müşahidə edirlər.

Rejissor çəkiliş prosesinə rəhbərlik edir, aktyorlar personajlarının motivasiyasını anlamağa çalışır və hamısı birlikdə bu yaradıcı aləmdə müəllifin özünü - Maqsud İbrahimbəyovu axtarırlar. Onlar onu qəhrəmanların xarakterlərində tapırlar, onların həyat hekayələrini tamamlayırlar və personajların taleyini daha dərindən açan yeni epizodlar yaradırlar.

Tamaşada Taleh Yüzbəyov, Rumiya Ağayeva, Şövqi Hüseynov, Qüdrət Fətulla, Rafael İsgəndərov, Günəş Mehdizadə, Ramin Şıxəliyev, Fərhad Səmimi, Nurlan Süleymanlı, Murad Məmmədov, Aytac Hacıyeva, İrina Yakubenko, İskra Tarrant, Ayxanım Kuandıkova, Roman Bayramov, Məmməd Rəfiyev, Cəmilə Hilalova, Hüseyn Hüseynov, Sərtab Salmanlı, eləcə də Xalq artisti, tanınmış pianoçu Salman Qəmbərovun rəhbərliyi ilə musiqi kollektivi iştirak edib.

Səhnə əsərinin quruluşçu rejissoru Konstantin Soldatov, dramaturqu İsmayıl İman, rəssamı Çingiz Babayev, kinooperatoru Tatyana Şurqalina, səs operatoru Platon Soldatovdur.



# Dünya Çempionatı -2026

## Messinin ailəsi şayiələrlə bağlı məlumat yayıb



**Argentina millisinin və "İnter Mayami"nin hücumçusu Lionel Messinin atası Xorxe Messinin səhhəti ilə bağlı yayılan şayiələrə ailə münasibət bildirib. Bununla bağlı bəyanat "The Touchline"ın "X" sosial şəbəkəsindəki hesabında dərc olunub.**

Qeyd edilir ki, Xorxe Messi hazırda müəyyən sağlamlıq problemləri ilə üzləşib və həkimlərin nəzarəti altındadır. Onun müalicəsinin davam etdiyi və vəziyyətində müsbət irəliləyişin müşahidə olunduğu vurğulanıb. Ailə həmçinin yayılan xəbərlər, şayiələr və fərziyyələr fonunda tamamilə şəxsi xarakter daşıyan bir məsələnin ictimai müzakirəyə çıxarılması zamanı bəzi şəxslərin həssaslıq, hörmət və dürüstlük nümayiş etdirməməsindən narahat olduğunu bildirib. Eləcə də qeyd olunub ki, Xorxe Messinin vəziyyəti barədə dəqiq və etibarlı məlumata yalnız onun ən yaxın ailə üzvləri malikdir. Buna görə də ailənin rəsmi açıqlamaları istisna olmaqla yayılan hər hansı məlumatın doğru və etibarlı hesab edilməməsi xahiş olunub.

"Belə bir vaxtda hər kəsi məsuliyyətli, təmkinli və humanist davranmağa çağırırıq. İnsan sağlamlığı və ailənin mənəvi rahatlığı mediada spekulyasiya və ya məsuliyyətsiz müzakirə mövzusuna çevrilməməlidir. Bizə göstərilən dəstəyə, hörmətə və narahatlığa görə minnətdarıq, eyni zamanda Xorxenin və bütün ailənin şəxsi həyatına hörmətlə yanaşılmasını xahiş edirik", - deyə bəyanatda bildirilir.

Xatırladaq ki, Lionel Messinin dünya çempionatının qrup mərhələsində Əlcəzair millisinin qapısına vurduğu ilk qoldan sonra göz yaşlarını saxlaya bilməməsinin səbəbi kimi atasının səhhətində yaranan problemlər göstərilmişdi. Məlumatlarda 67 yaşlı Xorxe Messinin vəziyyətinin bu həftə pisləşdiyi iddia olunurdu.

## Özbək futbolçunun teleoperatora jesti



**Özbəkistan millisinin müdafiəçisi Abdukodir Xusanov qrup mərhələsinin ilk turunda Kolumbiya yığmasına qarşı keçirilən və 1:3 hesabı ilə başa çatan oyunda toqquşduğu teleoperatora üzrxahlıq əlaməti olaraq öz oyun formasını hədiyyə edib.**

Bu barədə Özbəkistan Futbol Assosiasiyasının sosial şəbəkə hesabında yayımlanan məlumatda bildirilib. Qeyd olunur ki, matç zamanı müdafiəçi Abdukodir Xusanov yan xətt yaxınlığında top uğrunda mübarizə apararkən təsadüfən televiziya operatoru ilə toqquşub. Hadisədən sonra Özbəkistan Futbol Assosiasiyasının nümayəndələri operatorun səhhəti ilə maraqlanmaq üçün ona baş çəkiblər və A.Xusanovun avtoqrafı olan xüsusi formanı ona hədiyyə ediblər. Müdafiəçi həmçinin operatora tezliklə sağalması ilə bağlı səmimi arzularını və salamlarını çatdırıb.

## Montelladan iddialı açıqlama



**Qrup mərhələsində Paraqvayla qarşılaşacaq Türkiyə millisinin baş məşqçisi Vinçenso Montella matçdan əvvəl təşkil olunmuş mətbuat konfransında iddialı açıqlamalar verib.**

İtalyan mütəxəssis Avstraliya məğlubiyyətindən sonra ölkədə yaradılan xaosdan və komandaya qarşı olan hörmətsizlikdən ciddi məyus olduğunu bildirib: "Mən artıq 5 ildir burdayam və özümü bu xaosu bəsləyən bir çox insandan daha çox türk kimi hiss edirəm. Son 3 ildə futbolçularla birlikdə çox böyük uğurlara imza atmışıq və dünyada təqdir olunarkən, öz ölkəmizdə ilk məğlubiyyətdə hər şeyi yıxmağa çalışan bir sistemin olması məni çox üzür. Avstraliyaya qarşı 30 zərbə vursaq da, rəqib 10 nəfərlə müdafiə olunduğu üçün bu səddi aşmaq çətin oldu. Lakin topa sahib olma və uzaqdan zərbələr mövzusunda daha yaxşı ola bilərdik. İndi hər şeyi yenidən yoluna qoymaq üçün Paraqvay matçını səbirsizliklə gözləyirik və hədəfimizə doğru yürüməyə davam edəcəyik".



## Vitinyadan yeni rekord

**Portuqaliya millisinin yarımmüdafiəçisi Vitinya Konqo yığması ilə matçda (1:1) ötürmə sayı üzrə rekordu yeniləyib. Bu barədə "Opta" statistika platforması məlumat yayıb.**

Ulduz futbolçu qrup mərhələsinin 1-ci turu çərçivəsində keçirilən görüşün 83 dəqiqəsi ərzində 128 ötürmə edib və onlardan 121-i dəqiq alınıb. Hər iki göstərici statistikanın aparıldığı 1966-cı ildən bəri dünya çempionatları tarixində meydanda 90 dəqiqədən az daxil olan oyunçular arasında ən yüksək nəticə kimi tarixə düşüb.

Qeyd edək ki, K qrupunun 2-ci turunda Portuqaliya millisi Özbəkistan, 3-cü turunda isə Kolumbiya ilə qarşılaşacaq.

## Kanadalı İsmayıl Kone ciddi zədə alıb

**Kanada millisinin yarımmüdafiəçisi İsmayıl Kone Qətərlə keçirilən oyununda (6:0) ciddi zədə alıb.**



Hadisə matçın 55-ci dəqiqəsində baş verib. Qətər millisinin futbolçusu Assim Madibo ilə toqquşmadan sonra Konenin sol ayağı ağır zədələnib. Futbolçu meydanı xərəkdə tərk edib. Baş hakim epizodu qiymətləndirərək Madiboya birbaşa qırmızı vərəqə göstərib.

Oyundan sonra Kanada millisinin üzvü Moiz Bombito sosial şəbəkə hesabında komanda yoldaşının xəstəxanadan fotosunu paylaşıb. Şəkildə Bombito zədəli futbolçunun yanında yer alıb və ona dəstəyini ifadə edib.

## Huqo Broos əzmkarlıqdan razı qalıb



**Qrup mərhələsində Çexiya ilə 1:1 hesablı heç-heçə edən Cənubi Afrika millisinin baş məşqçisi Huqo Broos matçdan sonra mətbuat konfransında danışıb.**

Cənubi Afrikanın məşhur "iDiski Times" portalı xəbər verir ki, təcrübəli mütəxəssis komandasının erkən qol buraxmasına baxmayaraq göstərdiyi əzmkarlıqdan razı qalıb: "Erkən qol buraxmaq planlarımızı pozdu, amma komandamız təslim olmadı. Tədricən oyunda tarazlığı bərpa etdik. İkinci hissədə daha cəsarətli və hücumameyilli oynadıq. Sonda futbolçularımın əzmkarlığı öz bəhrəsini verdi. Teboho Mokoena gərgin anlarda çox soyuqqanlı davrandı və penaltini dəqiq yerinə yetirərək bizi turnirdə saxladı. Bu bir xal bizə son tur öncəsi böyük ümid verir".

## Neymar Haiti ilə oyunu da buraxdı



**Ulduz hücumçu Neymar Braziliya millisinin Haiti yığması ilə matçında da meydana çıxmadı. "Daily Sport" nəşrinin məlumatına görə, forvard hələlik optimal formasını bərpa etmək üzərində çalışır və ardıcıl olaraq məşqlərə davam edir.**

Məşqçilər qərargahı komandanın liderini qorumağa və ona tələsmədən bərpa prosesini sakit şəkildə tam başa vurmasına imkan yaratmağa üstünlük verir. Beləliklə, əgər Neymar tam hazır olarsa, onun yalnız qrup mərhələsinin üçüncü turunda Şotlandiyaya qarşı keçiriləcək matçda meydana qayıdacağı gözlənilir.

## Məşqçilərin mübahisəsindən sonra kütləvi dava

**Qrup mərhələsinin ikinci turu çərçivəsində Kanada və Qətər yığmaları arasındakı qarşılaşma kütləvi dava ilə yekunlaşıb.**

Gazeta.ru xəbər verir ki, final fitindən dərhal sonra başlayan qarşıdurmaya həm oyunçular, həm də komandaların nümayəndələri qoşulublar. Diqqətçəkən məqam odur ki, qalmaqal Kanada yığmasının baş məşqçisi Cessi Marş ilə Qətər komandasının məşqçisi Xulen Lopeteqi arasındakı mübahisədən sonra yaranıb.

## "Gərginlik fonunda qapıçı səhvə yol verdi"

**A qrupunun II turunda baş tutan görüşdə Cənubi Koreyanın Meksikaya uduzmasında (0:1) qapıçı səhvi rol oynayıb. Bunu komandanın baş məşqçisi Hon Myen Bo oyundan sonra mətbuat konfransında deyib.**

Mütəxəssis buraxılan səhvin ümumi gedişata mənfi təsir göstərdiyini qeyd edib: "Oyunçularımız matç boyu çox səy göstərdilər və taktiki planları ümumilikdə yaxşı yerinə yetirdilər. Nəticə bizim üçün məyusedicidir, lakin futbolçularımın göstərdiyi mübarizəyə görə başımızı aşağı salmağa heç bir əsas yoxdur. Meksikanın matçın əvvəlində çox aqressiv təzyiq edəcəyini gözləyirdik. İlk 20 dəqiqədə qol buraxmamaq bizim üçün çox vacib idi və oyunçular buna dözə bildilər. Bundan sonra üstünlüyü ələ aldıq. Qol epizodu zamanı cərimə meydançası daxilində qarışıqlıq var idi. Fikrimcə, həmin gərginlik fonunda qapıçı səhvə yol verdi". O, şanslarının qaldığını söyləyib: "Qarşıda hələ bir oyunumuz var və turnir bizim üçün bitməyib. İndi tamamilə sakit qalmalı, həyəcanlanmadan yolumuza davam etməliyik. Son turdakı rəqibimiz Cənubi Afrika Respublikası çox sürətli komandadır. Bu oyuna taktiki cəhətdən ən yaxşı şəkildə hazırlaşacağıq".



## Manzambi də mundial tarixinə düşdü

**İsveçrə millisinin futbolçusu Joan Manzambi dünya çempionatlarının tarixinə düşüb. Yarımmüdafiəçi buna B qrupunun II turunda Bosniya və Herseqovinanı məğlub etdikləri matçda nail olub.**

O, mundiallarda əvəzetmədən meydana çıxaraq dubl edən ən gənc oyunçu kimi futbol tarixinə düşüb. J.Manzambi bunu 20 yaş 247 günündə bacarıb.

Əvvəlki rekord DÇ-2002-də Sloveniyaya qarşı görüşdə iki dəfə fərqlənən paraqvaylı Nelson Kuevasaya (22 yaş 153) məxsus idi.



## Mundialda ikinci het-trik

**Kanada millisinin hücumçusu Conatan David DÇ-2026-da het-trik edən ikinci futbolçu olub. 25 yaşlı forvard bunu B qrupunun 2-ci turunda Qətərə qarşı keçirilən oyunda bacarıb.**

Conatan Devidin 3 qolu sayəsində Kanada millisi rəqibini 6:0 hesabı ilə darmadağın edib. O, matçın ən yaxşı oyunçusu seçilib.

Xatırladaq ki, DÇ-2026-da ilk het-trikin müəllifi isə Argentina millisinin kapitanı Lionel Messi olub. O, Əlcəzair üzərində 3:0 hesablı qələbə ilə başa çatan matçda hər 3 qolun müəllifidir.

## İran Futbol Federasiyası FIFA-ya rəsmi şikayət ünvanlayıb

**İran Futbol Federasiyası dünya çempionatı zamanı tətbiq olunan səyahət məhdudiyyətləri ilə bağlı FIFA-ya rəsmi şikayət ünvanlayıb.**

AZƏRTAC xəbər verir ki, mövcud qaydalara əsasən, İran millisinə ABŞ ərazisinə oyundan yalnız bir gün əvvəl daxil olmağa və qarşılaşma başa çatan gün ölkəni tərk etməyə icazə verilir.

Federasiya bu məhdudiyyətlərin iştirakçı komandalar üçün bərabər şərait prinsipinə zidd olduğunu və komandanın hazırlıq prosesinə mənfi təsir göstərdiyini bildirib. İran tərəfi oyunlardan 48 saat əvvəl ev sahibi şəhərlərə gəlmək üçün etdiyi müraciətlərin bir neçə dəfə rədd edildiyini də açıqlayıb.

Hazırda İran millisi bazasını Meksikanın Tixuana şəhərində qurub. ABŞ Daxili Təhlükəsizlik Departamentinin nümayəndəsi isə komandanın bu şərtlərlə əvvəlcədən razılaşdığını bəyan edib.

Qeyd edək ki, İran yığmasını qrup mərhələsində ABŞ-də Belçika və Misir millilərinə qarşı daha iki oyun gözləyir.

## Murat Yakın gərgin oyun haqqında danışdı

**İsveçrə millisi Bosniya və Herseqovina ilə matçda qələbəyə layiq olduğunu göstərib. Bunu yığmanın baş məşqçisi Murat Yakın DÇ-2026-nın qrup mərhələsində Bosniya və Herseqovinaya qarşı keçirilən oyundan sonra deyib.**

Mütəxəssis komandasının oyuna düzgün yanaşdığını bildirib: "Matç ərzində meydanda enerjini yüksək səviyyədə saxlamaq bizim əsas planımız idi. Dəyişikliklər zamanı sürətli futbolçuları meydana buraxaraq rəqibə təzyiq göstərmək istədik və bu, öz nəticəsini verdi. Oyunun son hissəsində üstünlüyü tam ələ aldıq və qələbəyə layiq olduğumuzu göstərdik".

## Əşrəf Hakimi məhkəmə qarşısına çıxacaq



**Mərakeş millisinin və PSJ-nin müdafiəçisi Əşrəf Hakimi bir qadına təcavüz ittihamı ilə bağlı məhkəmə qarşısına çıxacaq. Bu barədə "RMC Sport" məlumat yayıb.**

Futbolçunun tərəfinin verdiyi apellyasiya şikayəti rədd edilib və işə cinayət məhkəməsində baxılacaq. Bildirilir ki, dinləmələr zamanı Fransa millisinin hücumçusu Kilian Mbappe də şahid qismində ifadə vermək üçün çağırılacaq.

Xatırladaq ki, 2023-cü ildə Həkimiyə 24 yaşlı qadına qarşı təcavüz ittihamı ilə rəsmi ittiham irəli sürülmüşdü. Bundan sonra o, məhkəmə nəzarəti altına alınmışdı.

27 yaşlı futbolçu 2021-ci ildən PSJ-də çıxış edir. O, Paris təmsilçisinin heyətində Fransa çempionatının 5 qat qalibi olub, həmçinin 2 Fransa kuboku, 3 Fransa Superkuboku və Qitələrarası kubok qazanıb.

*Hazırladı:*
*Dönməz ABBASOV*

# ABŞ-İran danışıqları təxirə salındı

**ABŞ-nin vitse-prezidenti Cey Di Vens İran nümayəndə heyəti ilə birbaşa danışıqlar aparmalı olduğu İsveçrəyə səfərini ləğv edib. İsveçrə Xarici İşlər Nazirliyi dünənə planlaşdırılan Bürgenstok dağ kurortunda görüşün baş tutmayacağını təsdiqləyib. Ağ Ev bildirib ki, Vens qarşıdan gələn texniki danışıqların planları hələ dəqiqləşdirilmədiyi üçün səfəri təxirə salıb.**



"Bu danışıqların logistikası heç vaxt sadə və ya proqnozlaşdırıla bilən olmayıb. Bildirildiyinə görə, vitse-prezident İsveçrəyə uçmaq niyyətində deyil", - deyə Amerika mediası Ağ Ev sözçüsünə istinadən məlumat yayıb. Lakin o əlavə edib ki, ABŞ nümayəndə heyəti ən qısa zamanda görüşə getməyə hazırdır və texniki danışıqlara mümkün qədər tez başlamağa ümid edir.

Məlum olduğu kimi, ABŞ Prezidenti Donald Tramp və İran Prezidenti Məsud Pezeşkian iyunun 17-də 14 maddəlik anlaşma memorandumu imzalayıblar. Bundan sonra Amerika rəsmiləri ABŞ və İran nümayəndələri arasında İsveçrədə rəsmi imza mərasiminin keçiriləcəyini açıqlayıblar. Lakin İran Xarici İşlər Nazirliyi sənədin artıq imzalandığı üçün bunun zəruriliyinə şübhə ilə yanaşıb.

Bu arada İranın Ali lideri Müctəba Xamenei Pezeşkianın anlaşma memorandumunu imzalamasına razılıq verdiyini açıqlayıb. Öz növbəsində ABŞ ordusu İrana qarşı dəniz blokadasını ləğv etdiyini, ABŞ və İran prezidentləri tərəfindən imzalanmış memorandumda nəzərdə tutulduğu kimi, gəmilərin Fars körfəzində tranzitinə mane olmayacağını bildirib.

Daha sonra memorandumda ölkədə hərbi əməliyyatların dayandırılmasını tələb etməsinə baxmayaraq, İsrailin Livanın cənubunda yenidən hava hücumları təşkil etdiyi qeyd olunub. Livan Səhiyyə Nazirliyi zərbələr nəticəsində azı 18 itki verdiyini, İsrail ordusu isə İranın dəstəklədiyi Hizbullah qruplaşmasına zərbə endirdiyini və dörd əsgərin öldüyünü bildirib. Hizbullahla əlaqəli Livan mediası isə danışıqların İsrailin davam edən hava hücumları səbəbindən dayandırıldığını qeyd edib.

*Rizvan CƏFƏROV, "Azərbaycan"*


# OXUCULARIN VƏ MƏTBUAT YAYIMI TƏŞKİLATLARININ NƏZƏRİNƏ!

## "AZƏRBAYCAN" *qəzetinə abunə yazılışı davam edir!*

**Abunə respublikanın bütün poçt şöbələri tərəfindən aparılır. Eyni zamanda aşağıda göstərilən mətbuatyayımı qurumlarına müraciət edə bilərsiniz:**

| | |
|---|---|
| *"Azərpoçt" MMC* | *(012) 598-49-55, (051) 225-02-13* |
| *"Azərmətbuatyayımı" ASC* | *(012) 441-19-91, (050) 322-33-17* |
| *"Qaya" firması* | *(012) 566-77-80, (050) 214-40-53* |
| *"Region Press" MMC* | *(055) 316-79-01, (050) 316-79-01* |
| *"Səma-M" MMC* | *(012) 594-09-59* |
| *"Ziya" LTD* | *(012) 497-76-96, (050) 306-77-22* |
| *"Pressinform" MMC* | *(012) 598-49-52, (070) 340-01-00* |
| *"City press" MMC* | *(055) 819-09-26* |

**1 illik -156** (yüz əlli altı) **manat**
**6 aylıq - 78** (yetmiş səkkiz) **manat**
**3 aylıq - 39** (otuz doqquz) **manat**
**1 aylıq - 13** (on üç) **manat**




## Hörmətli oxucular!

*Abunə ilə bağlı hər hansı bir problemlə üzləşsəniz, redaksiyaya **(Tel.: (012) 539-59-33)** zəng vura bilərsiniz.*


# Avropa Parlamenti qanunsuz miqrantlarla bağlı qaydaları sərtləşdirib

**Avropa İttifaqının yeni qaydası digər məsələlərlə yanaşı, Avropa İttifaqı (Aİ) xaricindəki miqrantlar üçün saxlama mərkəzlərinin inşasını da nəzərdə tutur. Qanunsuz immiqrantlara qarşı sanksiyalar isə sərtləşdiriləcək.**

Avropa Parlamenti Aİ-də sığınacaq verilməsi rədd edilmiş, lakin öz ölkələrinə geri göndərilə bilməyən əcnəbilərin deportasiyası ilə bağlı yeni qaydanı təsdiqləyib. 666 avropalı deputatdan 418-i üçüncü ölkələrdə bu cür insanlar üçün saxlama mərkəzlərinin yaradılmasını nəzərdə tutan qaydaların lehinə səs verib.

Bu "qayıdış mərkəzləri"nin harada yaradıla biləcəyi hələ də məlum deyil. Həmin mərkəzlərdə Aİ-də qalmaq hüququ olmayan, lakin məsələn, həmin ölkələr onları geri götürməkdən imtina etdikləri üçün öz ölkələrinə qaytarıla bilməyən şəxslər yerləşdiriləcək. Afrika ölkələri müzakirə olunan mümkün variantlar arasındadır.

Əvvəllər bildirilirdi ki, hökumətləri daha sərt immiqrasiya qanunlarını dəstəkləyən bir neçə Aİ ölkəsi bu cür deportasiya mərkəzlərinin yaradılmasını müdafiə edir. Bunlara Almaniya, Avstriya və Danimarka daxildir.

Yeni qaydalar həmçinin yaşayış icazəsi olmadığı halda Aİ-ni tərk etməkdən imtina edən insanlar üçün daha sərt sanksiyalar nəzərdə tutur. DPA xəbər agentliyinin məlumatına görə, qanunsuz miqrasiya ilə mübarizə üçün mümkün yeni tədbirlərə müavinət ödənişlərinin azaldılması və ya tamamilə dayandırılması daxildir.

Brüssel ümid edir ki, yeni qaydalar daha çox qanunsuz immiqrantı Aİ-yə girişinə icazə verilmədikdə öz ölkələrinə qayıtmağa təşviq edəcək. Rəsmilərin sözlərinə görə, deportasiya əmrlərinə məruz qalan hər dörd nəfərdən yalnız biri öz ölkələrinə qayıdır.

Bu ideyanın tənqidçiləri çox vaxt özləri "mərkəz"lərin yaradılmasına qarşı çıxmırlar, əksinə, onların Aİ daxilində qurulmasını tələb edirlər, çünki üçüncü ölkələrdə bu cür mərkəzlərdəki şəraiti izləmək daha çətindir və miqrantlar orada fundamental insan hüquqlarının pozulması ilə üzləşə bilərlər.

*Rizvan HİLALOĞLU, "Azərbaycan"*




## Ultra sürətli enerji doldurma stansiyaları yaradılır

**Çinin elektromobil istehsalçısı olan "BYD" Avropa bazarındakı fəaliyyətini genişləndirmək məqsədilə yeni nəsil ultra sürətli enerji doldurma şəbəkəsinin yaradılmasına başlayıb.**




Şirkət 2027-ci ilin sonuna qədər Avropa ölkələrində ümumilikdə 3 min ədəd "Flash Charger" stansiyası quraşdırmağı planlaşdırır. İlk 1500 kVt gücündə enerji doldurma məntəqələri artıq Almaniya və Böyük Britaniyada istifadəyə verilib. Yeni sistem güc baxımından "Tesla"nın 500 kVt gücündə olan "V4 Supercharger" stansiyalarını geridə qoyur. Buna baxmayaraq, "Tesla" hazırda Avropada təxminən 20 min enerji doldurma nöqtəsi ilə infrastruktur üstünlüyünü qoruyur.

Məlumata əsasən, bir "Flash Charger" stansiyasının qurulma xərci təxminən 580 min avro təşkil edir. Bu isə layihənin ümumi investisiya dəyərinin təxminən 2 milyard dollara yaxın olacağını göstərir. Mütəxəssislər bildirirlər ki, yüksək enerji gücünə baxmayaraq, sistem elektrik şəbəkəsinə əlavə yüklənmə yaratmayacaq. Enerji əvvəlcədən xüsusi batareyalarda saxlanılacaq və əsasən gecə saatlarında toplanacaq. Bu üsul pik saatlarda elektrik şəbəkəsinə düşən təzyiqi azaltmağa yönəlib.

Yeni stansiyalar standart CCS girişinə malik bütün elektromobillərə xidmət göstərəcək. Lakin maksimum 1500 kVt doldurma sürətindən yalnız "BYD"nin yeni "Blade Battery" texnologiyası ilə təchiz olunan modellər yararlana biləcək. Hazırda Avropada bu texnologiyanı dəstəkləyən yeganə avtomobil 115 min avro qiymətində olan "Denza Z9 GT" modelidir. Şirkətin açıqlamasına görə, həmin avtomobil yeni stansiyalarda cəmi 5 dəqiqə ərzində batareyanın 70 faizini doldura bilir. Ekspertlər hesab edirlər ki, "BYD"nin bu addımı Avropada elektromobil bazarında rəqabəti daha da artıracaq və ultra sürətli enerji doldurma texnologiyalarının yayılmasını sürətləndirəcək.

## "App Store" üçün yeni abunə modeli




"Apple" şirkəti "App Store" tətbiqində istifadəçilər üçün yeni abunə modelini istifadəyə verməyə hazırlaşır. Şirkətin açıqlamasına görə, ilin sonuna qədər fərqli tətbiqlərin ödənişli xidmətlərini bir paket altında birləşdirməyə imkan verən "Subscription Bundles" funksiyası təqdim olunacaq. Yeni sistem sayəsində istifadəçilər müxtəlif şirkətlərə məxsus tətbiqlərin abunələrini vahid paket şəklində əldə edə biləcəklər. Məsələn, gələcəkdə "Instagram Plus" və "Tinder Platinum" kimi tamamilə fərqli xidmətlər bir abunə daxilində təklif oluna bilər. Bu yanaşma "Apple TV" və "Peacock" kimi platformaların ortaq media paketlərinə bənzədilir.

Şirkət bununla yanaşı, "Suites" adlı yeni xidmət modelini də təqdim etməyə hazırlaşır. Bu sistemdə yalnız paket daxilində mövcud olan və ayrıca əldə edilə bilməyən xüsusi xidmətlər istifadəçilərə təqdim olunacaq. Yeni qaydalara əsasən, uzun müddət yenilənməyən və istifadəçilər tərəfindən maraq görməyən tətbiqlərə qarşı daha sərt nəzarət tətbiq olunacaq. Eyni zamanda "Mac App Store" platformasında yerləşdirilən tətbiqlər üçün "Intel" prosessorlu köhnə "Mac" kompüterlərinə dəstək tələbi ləğv edilir.

"Apple" həmçinin tərtibatçılardan tətbiq və oyunlarda sosial media xüsusiyyətlərinin olub-olmadığını bildirməyi tələb edəcək. Bu məlumatlar yaş məhdudiyyətlərinin müəyyənləşdirilməsi və "Screen Time" funksiyasının daha düzgün işləməsi üçün istifadə olunacaq. Abunə paketləri və "Suites" sistemi ilə bağlı daha ətraflı məlumatın yay aylarının sonuna yaxın açıqlanacağı gözlənilir.

## "Logitech"dən qatlanan cihaz



"Logitech" şirkəti mobil istifadə və səyahət üçün nəzərdə tutulmuş yeni "Mobi Fold" adlı simsiz siçanını təqdim edib. Qatlana bilən konstruksiyası və 79 qram çəkisi sayəsində cihazı cibdə və ya çantada rahat daşımaq mümkündür. Model qrafit, ağ, yasəmən və qum rəng seçimləri ilə təklif olunur.

Siçanın əsas xüsusiyyətlərindən biri təxminən 130 dərəcə açılan xüsusi menteşə mexanizmidir. "Logitech" bu mexanizmin gündəlik istifadədə uzunömürlü olması üçün 15 illik istismar şərtlərinə uyğun sınaqlardan keçirildiyini bildirir. Menteşənin ətrafı silikon materialla örtülüb ki, bu da həm tutuşu yaxşılaşdırır, həm də cihazı zərbələrdən qoruyur.

Şirkətin açıqlamasına əsasən, daxili batareya tam enerji ilə bir aya qədər işləmə imkanı verir. Bundan əlavə, cəmi birdəqiqəlik sürətli enerji doldurma istifadəçiyə təxminən 22 saatlıq əlavə istifadə müddəti qazandırır. Texniki baxımdan model 4K DPI optik sensor, toxunma əsaslı idarəetmə paneli və proqram vasitəsilə fərdiləşdirilə bilən funksiyalarla təchiz olunub. Toxunma paneli həm sürətli sürüşdürmə, həm də önə və geriyə keçid əmrlərini dəstəkləyir. "Mobi Fold" eyni anda üç fərqli qurğuya qoşula bilir və istifadəçi alt hissədə yerləşən düymə vasitəsilə onlar arasında keçid edə bilir. Maraqlı xüsusiyyətlərdən biri də ayrıca enerji düyməsinin olmamasıdır, siçanı qatlamaq onu avtomatik söndürür.

## Yenilənmiş "Motorola Razr Ultra"

"Motorola" yenilənmiş "Razr Ultra" qatlanan smartfonunu nümayiş etdirib. Şirkət yeni modeldə kamera və batareya sahəsində bəzi yeniliklər etsə də, cihazın 1500 dollarlıq qiyməti əsas müzakirə mövzusuna çevrilib. Dizayn baxımından smartfon əvvəlki nəsillə oxşardır. Model 4 düymlük xarici ekran və açıldıqda 7 düymlük elastik əsas ekran təqdim edir.

Yeni modeldə rəng seçimləri də yenilənib. Xüsusilə "Alcantara" örtüklü "Orient Blue" versiyası premium görünüşü ilə diqqət çəkir. Telefon qatlandıqda kifayət qədər kompakt ölçüyə malik olur. Cihaz "Snapdragon 8 Elite" prosessoru, 16 GB RAM və 512 GB-a qədər yaddaşla təchiz olunub. Gündəlik istifadə və oyun performansı yüksək olsa da, əvvəlki modellə müqayisədə ciddi sıçrayış müşahidə olunmur. Kamera tərəfində əsas yenilik 50 MP həllinə malik yeni "LOFIC" sensorudur. Sensor daha geniş dinamik diapazon və aşağı görüntü səs-küyü təqdim edir. Ekspertlər hesab edirlər ki, "Razr Ultra" bazarın ən güclü qatlanan smartfonlarından biri olsa da, təqdim etdiyi yeniliklər qiymət artımını tam əsaslandırmır.

*Hazırladı: Ülkər XASPOLADOVA, "Azərbaycan"*



# Bilmək istəyirəm

***- Bəzən olur ki, binada yaşayan sakinlərdən biri ümumi istifadəyə aid sahəni (pilləkən boşluğu, dəhliz, giriş hissəsi və s.) özününkü kimi istifadə edir, ora əşya yığır. Bəzi hallarda səliqəsizlik, hətta təhlükəli vəziyyətlər də yaranır. Qonşular bu vəziyyətə necə reaksiya verməli və hüquqi baxımdan nə edə bilərlər?***

***Ülkər ŞAHALIZADƏ, Bakı şəhəri***

- Sualınıza cavab olaraq bildiririk ki, çox aktual və gündəlik həyatda tez-tez rast gəlinən bir problemə toxunursunuz. İlk olaraq nəzərə almaq lazımdır ki, çoxmənzilli binaların girişləri (bloklar), pilləkən boşluqları və dəhlizləri bütün mənzil sahiblərinin ümumi paylı mülkiyyətidir. Heç bir sakinin bu sözügedən sahələri təkbaşına zəbt etmək, ora əşyalar (şkaf, tikinti materialları, köhnə mebel və s.) yığaraq digər qonşuların hərəkətini (istifadəsini) məhdudlaşdırmaq hüququ yoxdur.

Azərbaycan Respublikası Mənzil Məcəlləsinin 35.1-ci maddəsinə əsasən, yaşayış binasının tərkib hissəsinin mülkiyyətçilərinə həmin binada mənzillərin hissəsi olmayan və binada birdən artıq sahəyə xidmət etmək üçün nəzərdə tutulan obyektlər (o cümlədən mənzillərarası pilləkən meydançaları, pilləkənlər, liftlər, lift şaxtası və ya digər şaxtalar, dəhlizlər, texniki mərtəbələr, çardaqlar, mühəndis qurğuları olan zirzəmilər, həmin binada birdən artıq sahəyə xidmət edən avadanlıq (texniki zirzəmi), habelə binanın daşıyıcı və daşıyıcı olmayan konstruksiyalarını ayıran dam örtükləri, binada sahələrin daxilində və onların hüdudlarından kənarda yerləşən və birdən artıq sahəyə xidmət edən mexaniki, elektrik, sanitar-texniki və digər avadanlıq, yaşıllaşdırma və abadlaşdırma elementləri də daxil olmaqla binanın yerləşdiyi torpaq sahəsi, binaya xidmət etmək, onun istismarı və abadlaşdırılması üçün nəzərdə tutulmuş həmin torpaq sahəsində yerləşən obyektlər) ümumi paylı mülkiyyət hüququ ilə mülkiyyətçilərə məxsusdur.

Həmçinin Mənzil Məcəlləsinin 35.2-ci maddəsinin tələbinə görə, çoxmənzilli binanın sahə mülkiyyətçiləri ümumi mülkiyyətə sahiblik edir, ondan istifadə edir və Mənzil Məcəlləsi və mülki qanunvericiliklə müəyyən edilmiş hədlərdə barəsində sərəncam verir.

Mövcud mübahisənin həllində hüquqi müstəviyə keçməzdən əvvəl məsələni qonşuluq münasibətləri çərçivəsində həll etməyə çalışmaqda fayda var. Bu hal həm vaxta qənaət edir, həm də qonşuluq münasibətlərinin sarsılmasının qarşısını alır. Bunun üçün mübahisəni yaradan qonşuya bu vəziyyətin həm narahatlıq yaratdığı, həm də qanunsuz olduğu mülayim şəkildə izah edilməlidir. Əgər müraciət müsbət mənada həllini tapmazsa, o zaman binanın idarəedici orqanına (MMMC və s.) dərhal şifahi və ya yazılı (yazılı forma daha məqsədəmüvafiq sayıla bilər) məlumat verilməlidir. Nəzərə alınmalıdır ki, idarəedici orqan binanın ümumi sahələrinin lazımi şəraitdə saxlanılmasına görə məsuliyyət daşıyır.

Bundan başqa, blokların əşyalarla doldurulması, sadəcə, estetik (görüntü) və hərəkət problemi deyil, həm də ciddi təhlükə mənbəyi sayıla bilər. Bu təhlükələrə ilk növbədə yanğın, zəlzələ və digər fövqəladə hallar zamanı həmin əşyaların sakinlərin təxliyəsinə və aidiyyəti xidmət əməkdaşlarının (məsələn, yanğınsöndürənlərin və s.) hərəkətinə mane olması daxildir. Bütün bunların mərkəzində insan həyatının dayanması unudulmamalıdır. Odur ki, arzuolunmayan hallarla qarşılaşmamaq üçün Fövqəladə Hallar Nazirliyinə də məlumat verməkdə fayda var.

Həmçinin əgər zəbt olunma faktı digər qonşuların mənzilinə daxil olmasına mane olursa və ya açıq-aşkar ictimai qayda pozuntusu (məsələn, antisanitariya və s.) ilə müşayiət olunursa, ərazi üzrə sahə müvəkkilinə müraciət edilməlidir. Müraciət əsasında polis əməkdaşı hadisə yerinə gələrək müvafiq akt tərtib edir və qanunsuzluğun (yaranmış maneənin) aradan qaldırılmasını tələb edir.

Göstərilənlərlə yanaşı, sizin məhkəməyə müraciət hüququnuzun olması da diqqətdən kənar qalmamalıdır. Belə ki, qarşılaşdığınız mənzərə ilə bağlı müvafiq iddia ərizəsi əsasında məhkəməyə müraciət edə bilərsiniz. Müraciətiniz mülki qanunvericiliyə əsasən ümumi paylı mülkiyyət hüququ əsasında, eləcə də ümumi paylı mülkiyyətdən istifadəyə yaranmış maneənin aradan qaldırılması ilə bağlı müddəalara əsaslanmalıdır. Bu halda iddia ərizəsində qonşunun ümumi istifadədə olan sahəyə qanunsuz müdaxiləsinin (zəbtinin) aradan qaldırılmasını və sahənin əvvəlki vəziyyətinə qaytarılmasını (əşyaların götürülməsini və s.) tələb edə bilərsiniz.

**Sualları cavablandırdı: Paşa SƏFƏROV, Azərbaycan Respublikası Vəkillər Kollegiyasının üzvü**

**Qəzetin daim yenilənən rəsmi internet ünvanı: www.azerbaijan-news.az**

**"Caspel" MMC-yə məxsus EKR-3102F markalı 1107532 saylı kassa aparatı itdiyi üçün etibarsız sayılır.**


BAŞ REDAKTOR
**Bəxtiyar SADIQOV**

**Əlaqə telefonları:**

| | | | |
|---|---|---|---|
| Qəbul otağı | - 539-68-71, | Beynəlxalq həyat, idman və informasiya şöbəsi | - 539-63-82, 432-37-68 |
| Baş redaktor müavinləri | - 538-86-86, 538-35-55 | Humanitar siyasət şöbəsi | - 538-56-60, 434-55-58 |
| Məsul katib | - 539-43-23, | İctimai əlaqələr şöbəsi | - 539-49-20, 538-31-11, |
| Məsul katib müavinləri | - 539-44-91, | Kompüter mərkəzi | - 538-20-87, |
| Parlament və siyasət şöbəsi | - 539-84-41, 539-21-00, | Mühasibatlıq | - 539-59-33 |
| İqtisadiyyat şöbəsi | - 538-42-32 | | |

*AZ 1073, Bakı şəhəri, Mətbuat prospekti 23L "Azərbaycan Nəşriyyatı" MMC 4-cü mərtəbə*

az.reklam@mail.ru




www.azerbaijan-news.az

Qeydiyyat № 1

"Azərbaycan" qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, "Azərbaycan Nəşriyyatı" MMC-nin mətbəəsində çap edilmişdir

Qəzetə dərc üçün göndərilən materiallar Azərbaycan dövlətinin mövqeyinə uyğun olmalıdır

Gündəlik rəsmi dövlət qəzeti

Tiraj 3778
Sifariş 784

Qiyməti 60 qəpik